RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN



№ 60 (9515) 17 mart 2024-cü il BAZAR

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR

# Gürcüstan - Azərbaycan dostluğu və qardaşlığı dərin tarixi köklərə əsaslanır

◆ Gürcüstanın Baş naziri İrakli Kobaxidzenin Azərbaycana rəsmi səfəri



**İlham ƏLİYEV:** "Bu gün biz ölkələrimizin ərazi bütövlüyü, suverenliyi ilə bağlı bir daha qarşılıqlı dəstək ifadə etdik və bu gün mətbuat qarşısında mən bunu bir daha demək istəyirəm. Biz bütün dövrlərdə bir-birimizin suverenliyini, ərazi bütövlüyünü, sərhədlərin toxunulmazlığını dəstəkləyən açıqlamalar vermişik, müvafiq beynəlxalq təşkilatlarda səsvermə zamanı bir-birimizi dəstəkləmişik, bundan sonra da bu dəstək davam edəcək. Heç bir ölkənin suveren ərazisi zor gücü ilə dəyişdirilə bilməz. Beynəlxalq hüququn normaları hər bir ölkə üçün əsas olmalıdır və burada heç bir ayrı-seçkilik ola bilməz. Azərbaycan uzun illər ərzində işğaldan əziyyət çəkmiş, öz ərazi bütövlüyünü və suverenliyini bərpa etmiş ölkə kimi çox yaxşı bilir ki, beynəlxalq hüququn normaları bəzi hallarda güc tətbiq etməklə bərpa olunur. Bu yol da tamamilə qanunidir".

Martın 16-da Gürcüstanın Baş naziri İrakli Kobaxidzenin Azərbaycana rəsmi səfəri başlayıb. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin ölkəmizdə rəsmi səfərdə olan Gürcüstanın Baş naziri İrakli Kobaxidze ilə təkbətək görüşü olub. Elə həmin gün Prezident İlham Əliyev və Baş nazir İrakli Kobaxidze mətbuata bəyanatlarla çıxış ediblər.

Sonra Prezident İlham Əliyevin Gürcüstanın Baş naziri İrakli Kobaxidze ilə nahar əsnasında geniş tərkibdə görüşü keçirilib.

Gürcüstanın Baş naziri İrakli Kobaxidze Fəxri xiyabana gələrək xalqımızın Ümummilli Lideri, müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu Heydər Əliyevin xatirəsini ehtiramla yad edib, məzarı önünə əklil qoyub.

Baş nazir İrakli Kobaxidze Azərbaycanın azadlığı, suverenliyi və ərazi bütövlüyü uğrunda mübarizədə canlarından keçmiş qəhrəman Vətən övladlarının xatirəsini hörmətlə anıb, məzarları üzərinə tər çiçəklər düzüb, "Əbədi məşəl" abidəsinin önünə əklil qoyub.

Gürcüstanın Baş naziri İrakli Kobaxidzenin Azərbaycan Respublikasına rəsmi səfəri martın 16-da başa çatıb.

**İrakli KOBAXİDZE:** "Bizim birlikdə təməlini qoyduğumuz bir sıra layihələr var və onlar strateji əhəmiyyət daşıyır. Gələcək üçün də çox böyük planlarımız var. Biz cənab Prezidentlə bir sıra layihələri müzakirə etdik, orada birgə iştirak imkanlarımız var. Bu sahədə işlər bizim üçün də çox önəmlidir. Eyni zamanda ticarət məsələsini müzakirə etdik. Azərbaycan Gürcüstanın ilk beşlikdə yer alan ticarət tərəfdaşıdır və biz əminik ki, bu rəqəmlər getdikcə artacaq. Nəqliyyat, energetika sahələrində də çox mühüm potensialımız var və cənab Prezident artıq bunu qeyd etdi. Bu işlər davam etdiriləcək. Qarşılıqlı səfərlər davam edəcək. Nümayəndə heyətlərinin görüşləri davam edəcəkdir ki, bu sahələrdə də bizim əməkdaşlığımız dərinləşdirilə bilsin. Biz bu əməkdaşlığı irəliyə aparmağa tam şəkildə hazırıq".

→ 2-3

# ABŞ Azərbaycan və Ermənistan arasında möhkəm və ləyaqətli sülhün tərəfdarıdır

Azərbaycan Respublikasının Prezidenti zati-aliləri cənab İlham Əliyevə



Hörmətli cənab Prezident.

Amerika Birləşmiş Ştatlarının xalqı adından Sizə və Azərbaycan xalqına xoş arzularımı yetirir və Novruz bayramınızın dinc, firavan və sevincli keçməsini diləyirəm.

Yenilənmə və düşünmə fəslini qeyd etdiyimiz bir vaxtda Amerika Birləşmiş Ştatları ölkələrimiz arasında tərəfdaşlığa və gələcək nəsillər üçün regionda təhlükəsizliyi təşviq edəcək, Azərbaycan və Ermənistan arasında möhkəm və ləyaqətli sülhə nail olunmasına davamlı sadiqliyini bir daha təsdiq edir. Bu il ərzində regional bağlılığın irəlilədilməsi və iqtisadi inkişafın genişləndirilməsi üçün Sizinlə birgə çalışmağı arzu edirəm.

Novruz bayramınız mübarək!

*Hörmətlə,*

***Cozef R.BAYDEN,***
***Amerika Birləşmiş Ştatlarının Prezidenti***

# Əhalinin sağlamlığı Prezidentin diqqət mərkəzindədir




**Martın 16-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi tərəfindən alınmış müasir təcili tibbi yardım avtomobilləri ilə tanış olub.**

AZƏRTAC xəbər verir ki, agentliyin İdarə Heyətinin sədri Zaur Əliyev təxliyə zamanı həyati təhlükəsi olanlara təcili tibbi yardım göstərməyə imkan yaradan yeni ambulanslar barədə dövlətimizin başçısına məlumat verib.

Bildirilib ki, ambulansların alınmasında məqsəd əhaliyə göstərilən təcili və təxirəsalınmaz tibbi yardım xidmətinin keyfiyyətini yaxşılaşdırmaqdır. Qeyd olunub ki, İtaliyanın "Iveco Daily 35S15/E4" markalı 100 ədəd təcili tibbi yardım avtomobilindən 66-sı sadə diferensiallı, 3-ü psixiatrik, 20-si reanimobil, 1-i portativ rentgen aparatlı və 10-u perinatal küvəzlidir.

Avtomobillər xəstə səhiyyə müəssisəsinə aparılarkən artıq yolda müalicəyə başlamağa imkan verən ən müasir tibbi avadanlıqlarla təmin edilib ki, bu da ən ağır vəziyyətdə olan pasiyentlərin təhlükəsiz daşınmasına imkan verir.

Perinatal küvəzli təcili yardım avtomobilləri patoloji yenidoğulmuşların tibb müəssisələrində göstərilməsi mümkün olmayan tibbi xidmətləri almaları məqsədilə müvafiq perinatal mərkəzlərə çatdırılması üçün nəzərdə tutulub.

Müxtəlif psixi pozğunluqlardan əziyyət çəkən xəstələrin daşınması üçün nəzərdə tutulan təcili tibbi yardım avtomobillərində xüsusi arakəsmələr quraşdırılıb.

→ 4

# Azərbaycan qazının Avropaya yolu Türkiyədən keçir

## TANAP-ın təməlinin qoyulmasından 9 il ötür

Bu boru xəttinin təkcə region üçün deyil, bütün Avropa məkanı üçün də əhəmiyyəti böyükdür. "Cənub qaz dəhlizi"ni yaradan üç kəmərin ikincisi olması TANAP-ın dəyərini daha aydın əks etdirir. Belə ki, bu xətt Gürcüstan-Türkiyə sərhədində genişləndirilmiş CQBK (Cənubi Qafqaz Boru Kəməri) ilə birləşir, Türkiyə-Yunanıstan sərhədində isə TAP-a qovuşur.

→ 9

# Bakıdan dünyaya birlik mesajı

"Parçalanmış dünyanın bərpası" mövzusuna həsr olunan XI Qlobal Bakı Forumuna bir çox ölkənin, eləcə də nüfuzlu beynəlxalq təşkilatın nümayəndələri qatılıblar. Forumda 68 ölkədən 400-dən çox qonaq iştirak edib. Üç gün ərzində davam edən XI Qlobal Bakı Forumunda dünya gündəmində yer alan mühüm problemlər araşdırıldı, onların həlli yönündə müzakirə və fikir mübadilələri aparıldı. Bütün bunların timsalında Bakıda keçirilən növbəti forumun dünyanın yeni çağırışlarına töhfə verəcəyi şübhəsizdir.

→ 5

# Avropa Parlamenti erməni lobbisinin təmsilçisinə çevrilib

"Milli Məclisin bəyan etdiyi kimi, sözügedən parlament Avropa xalqlarının problemləri, qarşılaşdıqları çağırışlar ilə məşğul olmaq əvəzinə artıq tam şəkildə erməni lobbisinin, azərbaycanofob, islamofob, şovinist və irqçi qüvvələrin təmsilçisinə çevrilib. Avropa Parlamentinin ötən illər ərzində Azərbaycanın ərazi bütövlüyünü və suverenliyini sözdə belə olsa tanımaqdan, dəstəkləməkdən inadla imtina etməsinin dəfələrlə şahidi olmuşuq. Lakin ölkəmizin ərazi bütövlüyü və suverenliyinə qarşı aparılan indiki kampaniya Avropa Parlamentinin Azərbaycana qarşı birmənalı şəkildə hücuma keçdiyini göstərir.

→ 7

## Gürcüstanın Baş naziri İrakli Kobaxidzenin Azərbaycana rəsmi səfəri

# Gürcüstan - Azərbaycan dostluğu və qardaşlığı dərin tarixi köklərə əsaslanır

## Prezident İlham Əliyevin və Baş nazir İrakli Kobaxidzenin təkbətək görüşü





**Martın 16-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin dövlətimizin başçısının dəvəti ilə ölkəmizdə rəsmi səfərdə olan Gürcüstanın Baş naziri İrakli Kobaxidze ilə təkbətək görüşü olub.**

AZƏRTAC xəbər verir ki, görüşdə ölkələrimiz arasında dostluq və qardaşlıq münasibətlərinin müxtəlif sahələrdə uğurla inkişaf etdiyi qeyd olundu. Gürcüstanın Baş nazirinin ölkəmizə rəsmi səfərinin əməkdaşlığımızın daha da genişlənməsi işinə töhfə verəcəyi bildirildi.

Söhbət zamanı ikitərəfli münasibətlərin perspektivləri və qarşılıqlı maraq doğuran məsələlər ətrafında fikir mübadiləsi aparıldı.

## Prezident İlham Əliyevin Baş nazir İrakli Kobaxidze ilə geniş tərkibdə görüşü



Martın 16-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Gürcüstanın Baş naziri İrakli Kobaxidze ilə nahar əsnasında geniş tərkibdə görüşü keçirilib.

## Prezident İlham Əliyev və Baş nazir İrakli Kobaxidze mətbuata bəyanatlarla çıxış ediblər

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Gürcüstanın Baş naziri İrakli Kobaxidze martın 16-da mətbuata bəyanatlarla çıxış ediblər. AZƏRTAC xəbər verir ki, əvvəlcə Azərbaycan Prezidenti bəyanatla çıxış etdi.**







### Prezident İlham Əliyevin bəyanatı

- Hörmətli cənab Baş nazir.

Hörmətli qonaqlar.

İlk növbədə, cənab Baş nazir, Sizi Azərbaycanda səmimiyyətlə salamlayıram, Azərbaycana xoş gəlmisiniz. Mən şadam ki, Baş nazir vəzifəsində fəaliyyətinizə başlayandan dərhal sonra Siz Azərbaycana səfər edirsiniz. Bu münasibətlə mən Sizə təşəkkürümü bildirdim. Eyni zamanda Sizi bir daha Baş nazir vəzifəsində fəaliyyətə başlamağınız münasibətilə ürəkdən təbrik edirəm.

Sizin səfəriniz çox böyük əhəmiyyət daşıyır. Biz təkbətək görüş əsnasında bir çox məsələləri geniş müzakirə etdik. Gürcüstan və Azərbaycan iki müstəqil dövlət kimi daim bir-birinin yanındadır, bizim dostluğumuz, qardaşlığımız dərin tarixi köklərə əsaslanır. Əsrlərboyu bizim xalqlarımız dostluq və mehriban qonşuluq şəraitində yaşamışlar, dövlətlərarası münasibətlər bu möhkəm zəmin üzərində qurulmuşdur.

Bu gün hər iki ölkə birgə səylərlə nəinki öz iqtisadi inkişafını təmin edir, eyni zamanda bölgə üçün və böyük mənada, Avrasiya üçün də önəmli ölkələrə çevrilib. Birgə həyata keçirdiyimiz infrastruktur layihələri - nəqliyyat, enerji layihələri bir çox ölkələr üçün böyük əhəmiyyət kəsb edir və bundan sonra da bu istiqamətdə əlavə addımlar atılacaq. Xüsusilə nəqliyyat sahəsində yaradılan və yaradılacaq yeni infrastruktur bir çox ölkələr üçün əvəzolunmaz imkanlar açacaq. Xüsusilə Bakı-Tbilisi-Qars dəmir yolunun bir-iki aydan sonra artıq genişləndirilmiş formada fəaliyyətə başlaması hesab edirəm ki, böyük nailiyyətlərdən biridir. Dediyim kimi, bir-iki aya bu dəmir yolunun ötürmə qabiliyyəti 1 milyon tondan 5 milyon tona çatdırılacaq və eyni zamanda bu dəmir yolunun fəaliyyəti bir çox ölkələr üçün də cəlbedici olacaq.

Bu ayın əvvəlində Bakıda ənənəvi "Cənub Qaz Dəhlizi"nin Məşvərət Şurası keçirilmişdir, Gürcüstan bu tədbirdə yüksək səviyyədə təmsil olunmuşdur. Bütün iştirakçılar bir daha gördülər ki, burada Azərbaycan, Gürcüstan və Türkiyə bu layihənin təşəbbüskarları kimi xüsusi rola malikdirlər. Azərbaycan qazı Gürcüstan vasitəsilə bir neçə ölkəyə ixrac edilir. Ümumiyyətlə, Azərbaycan qazını alan ölkələrin sayı 8-ə çatıb və bu, son deyil. Yaxın gələcəkdə bu ölkələrin sayı artacaq və Azərbaycanın enerji resurslarına olan tələbatı ildən-ilə artır və artacaq. Biz dünya bazarlarının xüsusiyyətlərini yaxşı bilirik, mən dünya enerji bazarlarını nəzərdə tuturam. Yaxşı bilirik ki, Avropa qitəsində Azərbaycan qazına tələbat ildən-ilə artacaq. Bizim həm resurslarımız var, sərmayə qoymaq üçün maliyyə imkanlarımız var, Gürcüstan kimi etibarlı dostlarımız var ki, tranzit imkanları genişdir. Belə olan halda bizim enerji layihələrimiz bundan sonra da bir çox ölkələrin enerji təhlükəsizliyini təmin edəcək və burada Gürcüstan ilə Azərbaycan iki etibarlı tərəfdaş kimi çıxış edir.

Təbii ki, biz yeni layihələr üzərində də işləyirik. Onlardan biri "yaşıl enerji" layihəsidir. Burada da Gürcüstan və Azərbaycan digər ölkələrlə bərabər çox böyük və genişmiqyaslı layihənin icrasına başlamışdır. Hesab edirəm ki, Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum, "Cənub qaz dəhlizi", Bakı-Tbilisi-Qars kimi uğur gətirən layihələr "yaşıl enerji" layihəsi üçün örnək olacaq və "yaşıl enerji" layihəsi eyni müvəffəqiyyətlə icra ediləcəkdir. Buna da böyük tələbat var. Həm Gürcüstanın, həm Azərbaycanın çox böyük bərpaolunan enerji potensialı var və biz hazırda texniki-iqtisadi əsaslandırma üzərində çalışırıq. Hesab edirəm ki, ilin sonuna qədər bu iş başa çatacaq və ondan sonra praktiki addımlar atılacaqdır.

Mən bir məsələni də qeyd etmək istəyirəm ki, aparılan düşünülmüş islahatlar nəticəsində Gürcüstanda sabitlik, əmin-amanlıq, təhlükəsizlik hökm sürür. Bu, xüsusilə indiki geosiyasi vəziyyəti nəzərə alsaq, böyük nailiyyətdir və biz bütün bu uğurlar münasibətilə gürcü qardaşlarımızı təbrik edirik.

Bizim ticarət dövriyyəmiz də artmaqdadır. Artıq 900 milyon dollara yaxındır və keçən il təxminən 15 faiz artıb. Gürcüstan hökumətinin düşünülmüş islahat siyasəti nəticəsində ölkədə çox gözəl sərmayə iqlimi yaradılmışdır. Azərbaycan investorları Gürcüstan iqtisadiyyatına 3,4 milyard dollar sərmayə qoymuşlar. Təbii ki, bunun əsas səbəbi gözəl investisiya iqliminin mövcudluğudur.

Eyni zamanda bu gün biz ölkələrimizin ərazi bütövlüyü, suverenliyi ilə bağlı bir daha qarşılıqlı dəstək ifadə etdik və bu gün mətbuat qarşısında mən bunu bir daha demək istəyirəm. Biz bütün dövrlərdə bir-birimizin suverenliyini, ərazi bütövlüyünü, sərhədlərin toxunulmazlığını dəstəkləyən açıqlamalar vermişik, müvafiq beynəlxalq təşkilatlarda səsvermə zamanı bir-birimizi dəstəkləmişik, bundan sonra da bu dəstək davam edəcək. Heç bir ölkənin suveren ərazisi zor gücü ilə dəyişdirilə bilməz. Beynəlxalq hüququn normaları hər bir ölkə üçün əsas olmalıdır və burada heç bir ayrı-seçkilik ola bilməz. Azərbaycan uzun illər ərzində işğaldan əziyyət çəkmiş, öz ərazi bütövlüyünü və suverenliyini bərpa etmiş ölkə kimi çox yaxşı bilir ki, beynəlxalq hüququn normaları bəzi hallarda güc tətbiq etməklə bərpa olunur. Bu yol da tamamilə qanunidir. BMT Nizamnaməsi hər bir ölkəyə özünü müdafiəetmə hüququ tanıyıb və Azərbaycan məhz bu hüquqdan istifadə edərək ərazi bütövlüyünü bərpa etmişdir.

Bir daha demək istəyirəm ki, Gürcüstanın Baş nazirinin - dost, qonşu və qardaş ölkənin rəhbərinin səfəri böyük əhəmiyyət daşıyır. Əminəm ki, bizim bu gün başlayan şəxsi tanışlığımız dostluğa çevriləcək, çünki xalqlarımız dost xalqlardır. Bizim nümayəndə heyətinin üzvləri bir-biri ilə uzun illər təmasdadırlar və onları da dostluq əlaqələri bağlayır. İki qardaş ölkə bundan sonra da əl-ələ verərək, çiyin-çiyinə irəliyə gedəcək və qarşıda duran bütün vəzifələri birlikdə həll edəcəkdir.

Bir daha cənab Baş nazir Sizi salamlayıram, bir daha "Xoş gəlmisiniz!" deyirəm.

❖ ❖ ❖

Sonra Gürcüstanın Baş naziri bəyanatla çıxış etdi.

### Baş nazir İrakli Kobaxidzenin bəyanatı

- Hörmətli cənab Prezident.

Hörmətli media nümayəndələri.

Baş nazir seçilməyimdən sonra Azərbaycanda səfərdə olmağımdan çox məmnunam. Bizim üçün çox vacib idi ki, ilk səfərlərdən biri Azərbaycana edilsin. Mən cənab Prezident Əliyevə nümayiş etdirilən qonaqpərvərliyə görə təşəkkür edirəm.

Cənab Prezident, Siz də qeyd etdiyiniz kimi, bizim ölkələri tarixi dostluq bağları birləşdirir və bu münasibətlər çox möhkəm təməl üzərində qurulub. Əminəm ki, bu münasibətlər bundan sonra da eyni ruhda davam edəcək. Hazırda bizim siyasi, iqtisadi və digər sahələrdə çox gözəl dialoqumuz var, müsbət dinamikamız mövcuddur. Bizim niyyətimiz bu əməkdaşlığı və tərəfdaşlığı dərinləşdirməkdir.

Ölkələrimiz arasında siyasi tərəfdaşlığı bir daha qeyd etmək istərdim. Azərbaycana və Prezidentinə təşəkkür edirəm ki, hər zaman ölkəniz bizim ölkəmizin suverenliyini və ərazi bütövlüyünü dəstəkləyib. Bildiyiniz kimi, Gürcüstan da hər zaman Azərbaycanın ərazi bütövlüyünü dəstəkləyib.

Bu gün bizim çox məhsuldar görüşümüz oldu, müxtəlif mövzulara toxunduq. Qardaş ölkələrimiz arasında qlobal siyasi hadisələri də müzakirə etdik. Ölkələrimiz arasında tərəfdaşlıq və dostluq həmin qlobal kontekstdə də olduqca vacibdir. Sülh məsələlərinə xüsusi diqqət yetirilməlidir və bizim mövqeyimiz ondan ibarət olmuşdur. Biz sabitliyə maksimum dərəcədə töhfə verməyə çalışmışıq. Biz gələcəkdə də regionumuzda bunu davam etdirəcəyik.

Bizim birlikdə təməlini qoyduğumuz bir sıra layihələr var və onlar strateji əhəmiyyət daşıyır. Gələcək üçün də çox böyük planlarımız var. Biz cənab Prezidentlə bir sıra layihələri müzakirə etdik, orada birgə iştirak imkanlarımız var. Bu sahədə işlər bizim üçün də çox önəmlidir. Eyni zamanda ticarət məsələsini müzakirə etdik. Azərbaycan Gürcüstanın ilk beşlikdə yer alan ticarət tərəfdaşıdır və biz əminik ki, bu rəqəmlər getdikcə artacaq. Nəqliyyat, energetika sahələrində də çox mühüm potensialımız var və cənab Prezident artıq bunu qeyd etdi. Bu işlər davam etdiriləcək. Qarşılıqlı səfərlər davam edəcək. Nümayəndə heyətlərinin görüşləri davam edəcəkdir ki, bu sahələrdə də bizim əməkdaşlığımız dərinləşdirilə bilsin. Biz bu əməkdaşlığı irəliyə aparmağa tam şəkildə hazırıq.

Ümid edirəm ki, cənab Prezident tezliklə Gürcüstana səfər edəcək. Mən onu artıq dəvət etdim. Bu, bizim üçün çox böyük şərəf olardı. Bu səfər bizim əməkdaşlığımızın dərinləşdirilməsinə bir daha xidmət edəcək. Bir daha vurğulamaq istəyirəm ki, tərəfdaşlığımız mükəmməl səviyyədədir. Əlbəttə, hər zaman potensial var və biz bundan sonra da bu dostluğu, əməkdaşlığı və tərəfdaşlığı dərinləşdirmək üçün əlimizdən gələni edəcəyik.

Cənab Prezident, qonaqpərvərliyə görə bir daha sağ olun.

## Gürcüstanın Baş naziri İrakli Kobaxidzenin Azərbaycana rəsmi səfəri

# Gürcüstan - Azərbaycan dostluğu və qardaşlığı dərin tarixi köklərə əsaslanır

## Gürcüstanın Baş naziri İrakli Kobaxidze Ulu Öndər Heydər Əliyevin məzarını ziyarət edib

Gürcüstanın Baş naziri İrakli Kobaxidze martın 16-da Fəxri xiyabana gələrək xalqımızın Ümummilli Lideri, müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu Heydər Əliyevin xatirəsini ehtiramla yad edib, məzarı önünə əklil qoyub. AZƏRTAC xəbər verir ki, görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın da xatirəsi anılıb, məzarı üzərinə tər güllər düzülüb.



## Şəhidlərin xatirəsinə ehtiram

**Azərbaycanda rəsmi səfərdə olan Gürcüstanın Baş naziri İrakli Kobaxidze martın 16-da Şəhidlər xiyabanını ziyarət edib.**

AZƏRTAC xəbər verir ki, Baş nazir İrakli Kobaxidze Azərbaycanın azadlığı, suverenliyi və ərazi bütövlüyü uğrunda mübarizədə canlarından keçmiş qəhrəman Vətən övladlarının xatirəsini hörmətlə anıb, məzarları üzərinə tər çiçəklər düzüb, "Əbədi məşəl" abidəsinin önünə əklil qoyub.

Bakının ən hündür nöqtəsindən Azərbaycan paytaxtının mənzərəsini seyr edən qonağa Şəhidlər xiyabanının tarixi və şəhərimizdə görülən abadlıq-quruculuq işləri barədə ətraflı məlumat verilib.



## Bakıda Azərbaycan və Gürcüstanın Baş nazirlərinin görüşü olub

**Martın 16-da Bakıda Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov ilə ölkəmizdə rəsmi səfərdə olan Gürcüstanın Baş naziri İrakli Kobaxidze arasında görüş keçirilib.**

Nazirlər Kabinetinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, görüşdə Azərbaycan-Gürcüstan strateji tərəfdaşlığının müxtəlif sahələrdə yüksək səviyyəsindən məmnunluq ifadə olunub. İki ölkə arasında fəal siyasi dialoqun aparıldığı, Azərbaycan və Gürcüstanın beynəlxalq təşkilatlar çərçivəsində bir-birini dəstəklədikləri vurğulanıb. İqtisadi əməkdaşlığın yaxşı dinamikaya malik olduğu məmnunluqla qeyd edilib.

Bildirilib ki, Azərbaycan Gürcüstana ən çox sərmayə yatıran ölkələrdən və onun əsas ticarət tərəfdaşlarından biridir. Azərbaycanın və Gürcüstanın birgə həyata keçirdiyi enerji və nəqliyyat layihələri uğurlu regional əməkdaşlıq nümunəsi kimi səciyyələndirilib. Bu kontekstdə "Cənub qaz dəhlizi"nin strateji əhəmiyyəti xüsusi vurğulanıb. Eyni zamanda Azərbaycan və Gürcüstanın iştirakı ilə yaradılmaqda olan Avropaya "yaşıl enerji" körpüsünün bir çox Avropa ölkələrinin enerji təhlükəsizliyinə əlavə töhfə verəcəyinə əminlik ifadə olunub.

Nəqliyyat-tranzit sahəsi əməkdaşlığın əsas istiqamətlərindən biri kimi dəyərləndirilib. Bakı-Tbilisi-Qars dəmir yolu xəttinin əhəmiyyəti vurğulanıb. Həmçinin Orta dəhlizin inkişaf etdirilməsi istiqamətində birgə atılan addımların önəmi qeyd olunub.



Azərbaycan torpaqlarının işğaldan azad edilməsi ilə açılan yeni əməkdaşlıq imkanlarına toxunulub, Cənubi Qafqazda iqtisadi əlaqələrin və nəqliyyat kommunikasiyalarının bərpasının yük daşımalarının artmasına xidmət edəcəyinə və bütün region ölkələrinə iqtisadi cəhətdən əhəmiyyətli fayda verəcəyinə əminlik ifadə olunub.

Mədəni-humanitar sahədə əməkdaşlığın dinamikası təqdir edilib. Bildirilib ki, əməkdaşlıq Azərbaycan-Gürcüstan dostluq və qardaşlıq münasibətlərinin möhkəmlənməsinə, iki xalqın bir-birinə daha da yaxınlaşmasına mühüm töhfə verir.

Bununla yanaşı, ikitərəfli əməkdaşlığın müxtəlif sahələrdə genişləndirilməsi üçün hələ istifadə edilməmiş geniş potensialın olduğu məmnunluqla vurğulanıb.

Bu imkanların reallaşdırılması baxımından Baş nazirlərin həmsədrləri olduqları Birgə hökumətlərarası komissiya mühüm platforma kimi dəyərləndirilib.

Əli Əsədov Azərbaycan-Gürcüstan əlaqələrinin inkişaf dinamikasını və əməkdaşlığın geniş gündəliyini nəzərə alaraq, komissiyanın 10-cu yubiley iclasının yaxın aylarda Bakıda keçirilməsini təklif edib, bununla əlaqədar İ.Kobaxidzeni Azərbaycana səfərə dəvət edib.

Gürcüstanın Baş naziri dəvəti məmnunluqla qəbul edib.

Görüşdə iki ölkə arasında əlaqələrin ticarət-iqtisadi, investisiya, nəqliyyat-tranzit, energetika, informasiya texnologiyaları, kənd təsərrüfatı, humanitar və qarşılıqlı maraq doğuran bir çox digər istiqamətlərdə inkişaf perspektivləri müzakirə olunub.

## Gürcüstanın Baş nazirinin Azərbaycana rəsmi səfəri başa çatıb

**Gürcüstanın Baş naziri İrakli Kobaxidzenin Azərbaycan Respublikasına rəsmi səfəri martın 16-da başa çatıb.**

AZƏRTAC xəbər verir ki, hər iki ölkənin Dövlət bayraqlarının dalğalandığı Heydər Əliyev Beynəlxalq Aeroportunda qonağın şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü. Baş nazir İrakli Kobaxidzeni Azərbaycan Respublikası Baş nazirinin müavini Əli Əhmədov, xarici işlər nazirinin müavini Samir Şərifov, ölkəmizin Gürcüstandakı səfiri Faiq Quliyev, Gürcüstanın Azərbaycandakı səfiri Zurab Pataradze və digər rəsmi şəxslər yola saldılar.



## Prezident İlham Əliyevin Gürcüstanın Baş naziri ilə mətbuata bəyanatda səsləndirdiyi fikirlər bu ölkənin mediasında geniş işıqlandırılıb

**Azərbaycan Prezidenti İlham Əliyevin Gürcüstanın Baş naziri İrakli Kobaxidze ilə görüşdə söylədiyi fikirlər bu ölkənin mətbuatı tərəfindən geniş işıqlandırılıb.**

AZƏRTAC xəbər verir ki, "interpressnews.ge", "apsny.ge", "ambebi.ge", "palitranews.ge", "accentnews.ge", "24news.ge", "actual.ge", "1 tv.ge", "palitranews.ge", "apsny.ge", "24news.ge", "actual.ge", "realnews.ge", "interpress.ge" informasiya portalları Azərbaycan, rus və gürcü dillərində silsilə materiallar dərc ediblər.

"İnterpressnews.ge" portalı Azərbaycan Prezidentinin çıxışına istinadla yazır: "Bu gün biz ölkələrimizin ərazi bütövlüyü, suverenliyi ilə bağlı bir daha qarşılıqlı dəstək ifadə etdik və bu gün mətbuat qarşısında mən bunu bir daha demək istəyirəm. Biz bütün dövrlərdə bir-birimizin suverenliyini, ərazi bütövlüyünü, sərhədlərin toxunulmazlığını dəstəkləyən açıqlamalar vermişik, müvafiq beynəlxalq təşkilatlarda səsvermə zamanı bir-birimizi dəstəkləmişik, bundan sonra da bu dəstək davam edəcək".

Eyni zamanda Gürcüstanın Baş nazirinin Azərbaycana səfərinin böyük əhəmiyyət daşıdığı xüsusi qeyd olunub.

"Ambebi.ge" portalında da Azərbaycan Prezidentinin Gürcüstanla bağlı fikirlərinə xüsusi diqqət yetirilir.

Prezident İlham Əliyevin çıxışına istinadla yayılan xəbərdə deyilir: "Aparılan düşünülmüş islahatlar nəticəsində Gürcüstanda sabitlik, əmin-amanlıq, təhlükəsizlik hökm sürür. Bu, xüsusilə indiki geosiyasi vəziyyəti nəzərə alsaq, böyük nailiyyətdir və biz bütün bu uğurlar münasibətilə gürcü qardaşlarımızı təbrik edirik".

"Palitranews.ge" portalı Azərbaycan Prezidentinin iki ölkə arasında ticarət dövriyyəsi və investisiyalar ilə bağlı fikirlərinə geniş yer verib.

"Bizim ticarət dövriyyəmiz də artmaqdadır. Artıq 900 milyon dollara yaxındır və keçən il təxminən 15 faiz artıb. Gürcüstan hökumətinin düşünülmüş islahat siyasəti nəticəsində ölkədə çox gözəl sərmayə iqlimi yaradılmışdır. Azərbaycan investorları Gürcüstan iqtisadiyyatına 3,4 milyard dollar sərmayə qoymuşlar. Təbii ki, bunun əsas səbəbi gözəl investisiya iqliminin mövcudluğudur", - deyə yazıda bildirilib.

"İnterpressnews.ge" portalının İrakli Kobaxidzenin çıxışına istinadla yaydığı material da diqqətçəkən olub. Portal İ.Kobaxidzenin bu fikirlərini oxucuların diqqətinə çatdırıb: "Azərbaycana və Prezidentinə təşəkkür edirəm ki, hər zaman ölkəniz bizim ölkəmizin suverenliyini və ərazi bütövlüyünü dəstəkləyib. Bildiyiniz kimi, Gürcüstan da hər zaman Azərbaycanın ərazi bütövlüyünü dəstəkləyib.

Ölkələrimiz arasında tərəfdaşlıq və dostluq həmin qlobal kontekstdə də olduqca vacibdir. Sülh məsələlərinə xüsusi diqqət yetirilməlidir və bizim mövqeyimiz ondan ibarət olmuşdur. Biz sabitliyə maksimum dərəcədə töhfə verməyə çalışmışıq. Biz gələcəkdə də regionumuzda bunu davam etdirəcəyik".

"Ambebi.ge" portalının yaydığı digər materialda isə deyilir: "Bu gün hər iki ölkə birgə səylərlə nəinki öz iqtisadi inkişafını təmin edir, eyni zamanda bölgə üçün və böyük mənada Avrasiya üçün də önəmli ölkələrə çevrilib. Birgə həyata keçirdiyimiz infrastruktur layihələri - nəqliyyat, enerji layihələri bir çox ölkələr üçün böyük əhəmiyyət kəsb edir və bundan sonra da bu istiqamətdə əlavə addımlar atılacaq. Xüsusilə nəqliyyat sahəsində yaradılan və yaradılacaq yeni infrastruktur bir çox ölkələr üçün əvəzolunmaz imkanlar açacaq. Xüsusilə Bakı-Tbilisi-Qars dəmir yolunun bir-iki aydan sonra artıq genişləndirilmiş formada fəaliyyətə başlaması hesab edirəm ki, böyük nailiyyətlərdən biridir. Dediyim kimi, bir-iki aya bu dəmir yolunun ötürmə qabiliyyəti 1 milyon tondan 5 milyon tona çatdırılacaq və eyni zamanda bu dəmir yolunun fəaliyyəti bir çox ölkələr üçün də cəlbedici olacaq".

"Accentnews.ge" portalının yaydığı xəbərdə isə deyilir ki, Baş nazir Gürcüstanın ərazi bütövlüyünü və suverenliyini dəstəklədiyinə görə Azərbaycan Prezidentinə minnətdarlığını bildirib, regionda sülh və sabitliyin vacibliyini vurğulayıb. Hökumət başçısı Gürcüstanın gələcəkdə də bu prosesə öz töhfəsini verməyə hazır olduğunu təsdiqləyib.

Qeyd edək ki, Gürcüstan mətbuatında bu qəbildən olan 30-dan çox material dərc olunub.

Prezident İlham Əliyevin və Baş nazir İrakli Kobaxidzenin çıxışlarına istinadla yayılan xəbərlərdə həmçinin Gürcüstan və Azərbaycanın infrastruktur, nəqliyyat, energetika sahəsində layihələr həyata keçirdikləri, bu layihələrin bir çox ölkələr üçün mühüm əhəmiyyət daşıdığı, Gürcüstan və Azərbaycanın birgə səyləri ilə iqtisadi müstəqilliyi təmin etməklə yanaşı, həm də bölgə və bütövlükdə Avrasiya qitəsi üçün çox mühüm dövlətə çevrildikləri, Gürcüstan və Azərbaycanın iki müstəqil dövlət kimi daim bir-birinin yanında olduqları xüsusi qeyd olunur.



ილჰამ ალიევი - საქართველოში არსებული სტაბილურობა და რეფორმები არის დიდი აქტივი, განსაკუთრებით გეოპოლიტიკური ვითარების გათვალისწინებით, ვულოცავ ჩვენს ქართველ ძმებს ყველა მიღწევას



İlham Əliyev: Həm Gürcüstanın, həm də Azərbaycanın çox böyük bərpaolunan enerji potensialı var



ილჰამ ალიევი – ირაკლი კობახიძეს: მუდამ ვიქნებით საქართველოს სუვერენიტეტისა და ტერიტორიული მთლიანობის, საზღვრების დაცულობის მხარდამჭერები

# Əhalinin sağlamlığı Prezidentin diqqət mərkəzindədir

## Prezident İlham Əliyev yeni alınmış müasir təcili tibbi yardım avtomobilləri ilə tanış olub





*Əvvəli 1-ci səh.*

Bütün avtomobillər qatlanıb açılan xərək, onurğa taxtası, boyun şinası və ilkin tibbi yardımın göstərilməsi üçün zəruri cihaz və avadanlıqlarla təchiz olunub. Ambulansların təchizat səviyyəsi xəstələrə bütün lazımi ilkin, təcili və təxirəsalınmaz tibbi yardımın göstərilməsinə və reanimasiya tədbirlərinin icrasına imkan verir. Nəqliyyat vasitələri dağlıq relyefdə və yolsuzluq şəraitində təcili tibbi yardım briqadasının rahat və təhlükəsiz hərəkətini təmin edir.

Zaur Əliyev bildirib ki, icbari tibbi sığortanın tətbiqindən sonra ümumilikdə 349 ambulans alınıb. Qeyd olunub ki, təcili və təxirəsalınmaz tibbi yardım xidmətinin keyfiyyətinin yüksəldilməsi istiqamətində mühüm





tədbirlər bundan sonra da davam etdiriləcək.

Qeyd edək ki, avtomobillərin bölgüsü Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi (TƏBİB) tərəfindən "Dövlət Şəhərsalma Norma və Qaydaları. Şəhər, qəsəbə və kənd yaşayış məskənlərinin planlaşdırılması və tikilib abadlaşdırılması" normalarına əsasən aparılacaq.

# Baş nazir Əli Əsədov Nobel sülh mükafatı laureatı Məhəmməd Yunus ilə görüşüb



**Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov martın 16-da Nobel sülh mükafatı laureatı Məhəmməd Yunus ilə görüşüb.**

Nazirlər Kabinetinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, görüşdə XI Qlobal Bakı Forumunun önəmi vurğulanıb, çoxlu sayda ölkədən dövlət və hökumət başçılarının, tanınmış siyasi və ictimai xadimlərin bu tədbirdə iştirakı onun nüfuzunun göstəricisi kimi dəyərləndirilib.

Söhbət zamanı Azərbaycanın müstəqillik dövründə qazandığı nailiyyətlər və dinamik inkişaf yolu barədə məlumat verilib. Ölkəmizdə bütün istiqamətlərdə, xüsusilə iqtisadi sahədə aparılan genişmiqyaslı islahatların müsbət nəticələr verdiyi vurğulanıb. Görüşdə Nobel sülh mükafatı laureatı Məhəmməd Yunusun dünya miqyasında yoxsulluğa qarşı mübarizədə uzunmüddətli səmərəli fəaliyyəti yüksək qiymətləndirilib.

# *Axim ŞTAYNER:* "Azərbaycan tərəfindən COP29-un sədri qismində nümayiş olunan mövqe təqdirəlayiqdir"

**Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov XI Qlobal Bakı Forumunda iştirak məqsədilə ölkəmizdə səfərdə olan BMT İnkişaf Proqramının administratoru Axim Ştayner ilə görüşüb.**




Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildirilib ki, görüşdə BMT-nin İnkişaf Proqramı çərçivəsində əməkdaşlıq gündəliyi, mövcud perspektivlər, BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasından (COP29) irəli gələn məsələlər, habelə postmünaqişə dövründə regional vəziyyət müzakirə olunub.

Ceyhun Bayramov BMT-nin İnkişaf Proqramı ilə Azərbaycan arasında uzunmüddətli əməkdaşlığın müsbət nəticələrindən bəhs edərək, mövcud tərəfdaşlığın davam etdirilməsinin əhəmiyyətini vurğulayıb.

COP29 ilə bağlı hazırlıq işlərindən danışan nazir ölkəmizin COP29-a sədrliyinin müvəffəqiyyətlə həyata keçirilməsi istiqamətində müxtəlif tərəflərlə substantiv danışıqlar prosesini apardığı, eyni zamanda zəruri təşkilati tədbirlərin görüldüyünü diqqətə çatdırıb.

Postmünaqişə dövründə ölkəmiz tərəfindən görülən bərpa-quruculuq, habelə sülh səylərindən bəhs edən Ceyhun Bayramov Ermənistan tərəfindən ərazilərimizin kütləvi şəkildə minalanmasının, həmçinin bu ölkənin minalanmış ərazilər barədə məlumatları təqdim etməkdən imtinasının vətəndaşlarımızın həyat və sağlamlığına, habelə aparılan bərpa işlərinə təhdid törətdiyini deyib. Minaların təmizlənməsi işində beynəlxalq səylərin səfərbər olunmasının zəruriliyi vurğulanıb.

Axim Ştayner Azərbaycanın inkişaf sahəsində əldə etdiyi nailiyyətlərin nümunəvi olduğunu qeyd edib. BMT-nin İnkişaf Proqramı tərəfindən mina təhlükəsinə qarşı mübarizəyə, o cümlədən bu istiqamətdə təşəbbüslərin müzakirəsinə əhəmiyyət verildiyi bildirilib.

Daha çox karbohidrogen resursları ilə zəngin ölkə kimi tanınan Azərbaycan tərəfindən COP29-un sədri qismində nümayiş olunan mövqe və yanaşmanın təqdirəlayiq olduğu bildirilib, bu istiqamətdə ölkəmizə uğurlu sədrlik fəaliyyəti arzu edilib.

Görüş zamanı həmçinin qarşılıqlı maraq doğuran digər məsələlər müzakirə olunub.

# Milli Məclisin Sədri BMT Baş Assambleyasının 78-ci sessiyasının prezidenti ilə görüşüb



**Martın 16-da Milli Məclisin Sədri Sahibə Qafarova Birləşmiş Millətlər Təşkilatının (BMT) Baş Assambleyasının 78-ci sessiyasının prezidenti Dennis Fransislə görüşüb.**

Parlamentin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən bildirilib ki, görüş zamanı ölkəmizin BMT və onun ixtisaslaşmış qurumları ilə uğurlu əməkdaşlığı, Azərbaycanın beynəlxalq sülhün, təhlükəsizliyin və inkişafın təmin olunması istiqamətində BMT Nizamnaməsinin məqsədlərinə nail olunması sahəsində verdiyi töhfələr haqda danışılıb.

Sahibə Qafarova Baş Assambleyanın prezidentinin elan etdiyi 4 prioritet istiqamət - sülh, tərəqqi, firavanlıq və davamlılıq üzrə birgə fəaliyyətin əhəmiyyətini vurğulayıb. Beynəlxalq hüququn universal norma və prinsiplərinə, xüsusən ölkələrin ərazi bütövlüyü və suverenliyinə hörmətin bu istiqamətlərin reallaşdırılması baxımından zəruriliyi vurğulanıb.

Milli Məclisin Sədri qonağı regionda mövcud olan vəziyyət, o cümlədən Azərbaycanın işğaldan azad edilmiş ərazilərində apardığı genişmiqyaslı yenidənqurma və bərpa işləri, Ermənistanın basdırdığı minaların törətdiyi təhlükə barədə məlumatlandırıb, bu istiqamətlər üzrə beynəlxalq əməkdaşlığın və dəstəyin əhəmiyyətinə toxunub. Parlamentin Sədri məhz Azərbaycanın sülhün bərqərar olunması istiqamətində təşəbbüslə çıxış etdiyini və sülh gündəliyinə sadiq qaldığını bildirib.

Bu il Azərbaycanda keçiriləcək COP29 çərçivəsində görüləcək işlərdən söz açan Sahibə Qafarova Milli Məclisin iqlim dəyişmələri kimi qlobal çağırışların həlli üzrə aparılan müzakirələrə parlament töhfəsinin təmin olunması istiqamətində səyləri haqda danışıb.

O, həmçinin ölkəmizin parlament diplomatiyasının gücləndirilməsi istiqamətində atdığı addımlar, o cümlədən Azərbaycan Prezidentinin təşəbbüsü ilə yaradılmış Qoşulmama Hərəkatı Parlament Şəbəkəsinin fəaliyyəti haqqında məlumat verib.

XI Qlobal Bakı Forumunda iştirak üçün ölkəmizə gələn Dennis Fransis Azərbaycanın BMT və onun ixtisaslaşmış qurumlarındakı fəaliyyətini, göstərdiyi səyləri yüksək qiymətləndirdiyini deyib. Azərbaycanın BMT-nin əsas dəyər və prinsiplərinə daim sadiqliyini nümayiş etdirdiyini diqqətə çatdıran qonaq ölkəmizin çoxtərəfliliyin təşviqində rolunu xüsusi qeyd edib.

BMT-nin nümayəndəsi Azərbaycan xalqı və hökuməti ilə əməkdaşlığı davam etdirməyə hazır olduqlarını deyərək, BMT-nin məqsədlərinin dəstəklənməsində parlamentlərin rolunun əhəmiyyətini vurğulayıb.

Dennis Fransis COP29-un Azərbaycanda keçirilməsi ilə bağlı təbriklərini çatdırıb, ölkəmizin bu tədbiri ən yüksək səviyyədə keçirəcəyinə əmin olduğunu bildirib.

Azərbaycanın regionda sülhün və əmin-amanlığın təmin olunması istiqamətində göstərdiyi səyləri təqdir edən Dennis Fransis bölgədə dayanıqlı sülhün bərqərar edilməsinin davamlı inkişafın və firavanlığın əsas şərti olduğunu, bu təşəbbüslərin BMT tərəfindən dəstəkləndiyini bildirib.

Qonaq Azərbaycanın Qoşulmama Hərəkatına sədrliyi dövründə irəli sürdüyü uğurlu təşəbbüsləri xüsusi qeyd edərək, hərəkatın Gənclər Təşkilatının və Parlament Şəbəkəsinin yaradılmasını, Qadınlar Platformasının formalaşdırılması istiqamətində görülən işləri dünyada çoxtərəfliliyin təşviqi və inkişafı baxımından mühüm addımlar kimi qiymətləndirib.

Söhbət zamanı qonağa Milli Məclisin strukturu və fəaliyyəti haqqında da məlumat verilib, qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

***"Azərbaycan"***

# XI Qlobal Bakı Forumu



# Bakıdan dünyaya birlik mesajı

## Forum yeni çağırışların həllinə mühüm töhfə verəcək

**14-16 mart tarixlərində Bakı daha bir qlobal foruma evsahibliyi etdi. Prezident İlham Əliyevin himayəsi altında və Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin təşkilatçılığı ilə "Parçalanmış dünyanın bərpası" mövzusunda XI Qlobal Bakı Forumu dünyanı narahat edən problemlərin, qlobal çağırışların geniş və hərtərəfli müzakirə edildiyi mühüm platforma oldu.**

Forumun açılış mərasimindəki çıxışında Prezident İlham Əliyev də söylədi ki, Bakı Qlobal Forumu Davos Dünya İqtisadi Forumu, Münxen Təhlükəsizlik Konfransı kimi aparıcı beynəlxalq forumlarla bir cərgədədir. Sürətlə dəyişən dünyanın, yeni qeyri-sabitlik və qarşıdurma ocaqlarının meydana çıxmasının, baş verən geosiyasi dəyişikliklərin fonunda yaranan problemlərin həlli üçün bu forumun əhəmiyyətinin böyük olduğunu xüsusi vurğulayan dövlətimizin başçısı bildirdi ki, ona görə də qlobal əhəmiyyət kəsb edən məsələlərin həlli üçün bu gün dünyanın həqiqətən də Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin üzvlərinin və iştirakçılarının biliyinə, onların dövlət, hökumət başçıları və xarici işlər nazirləri kimi təcrübəsinə ehtiyacı var.

Nizami Gəncəvi Beynəlxalq Mərkəzi qlobal problemlərin həlli yollarını araşdıran və bu barədə dünya ictimaiyyətini məlumatlandıran mühüm beynəlxalq platformaya çevrilib və məhz bunun nəticəsidir ki, mərkəzin təşkil etdiyi tədbirlərə beynəlxalq maraq ildən-ilə artmaqdadır.

"Parçalanmış dünyanın bərpası" mövzusuna həsr olunan XI Qlobal Bakı Forumuna bir çox ölkənin, eləcə də nüfuzlu beynəlxalq təşkilatın nümayəndələri qatılıblar. Forumda 68 ölkədən 400-dən çox qonaq iştirak edib. Həmin qonaqlar arasında 40-dan çox hazırkı və sabiq dövlət və hökumət başçısı da olub.

### Sivilizasiyalararası dialoqların baş tutduğu unikal məkan

Dünyada nüfuzu sürətlə artan Azərbaycan bu gün beynəlxalq problemlərin həlli platformasına çevrilib və mədəniyyətlər və sivilizasiyalararası dialoqların baş tutduğu unikal məkan kimi tanınır. Azərbaycan hər zaman dialoq formasında dünyamiqyaslı məsələlərin həllinin mümkünlüyünü təbliğ edir, bəşəri qərarların qəbuluna və icrasına birbaşa töhfələr verir. Dünyanın 120 ölkəsi arasında səmərəli əməkdaşlıq əlaqələrinin qurulmasında və inkişafında mühüm siyasi platforma olan Qoşulmama Hərəkatının məhz Azərbaycanın sədrliyi dövründə özünün ən uğurlu dövrünü yaşaması buna bariz nümunələrdəndir.

Eyni zamanda Qlobal Forumun Bakı şəhərində keçirilməsi Azərbaycana olan yüksək beynəlxalq etimadın göstəricisidir.

XI Qlobal Bakı Forumunun açılış mərasimində çıxış edən Türk Dövlətləri Təşkilatının Ağsaqqallar Şurasının sədri Binəli Yıldırım da qeyd etdi ki, bu forum artıq ənənəyə çevrilib.

Tədbirdə Bosniya və Herseqovinanın Rəyasət Heyətinin serb üzvü Jelka Tsviyanoviç söyləyib ki, bu cür forum, əslində, bütün məsələlərin müzakirəsi üçün müvafiq məkandır, multilateralizm böhranının aradan qaldırılmasına xidmət edə bilər və biz onun aradan qaldırılmasına müvəffəq ola bilərik: "Ən vacibi ondan ibarətdir ki, belə tədbirlər bizim aramızda körpü sala, ünsiyyət yarada, müxtəlif ölkələr və beynəlxalq iştirakçılar arasında tərəfdaşlığı təşviq edə bilər".

Böyük Britaniyanın Baş naziri Rişi Sunak XI Qlobal Bakı Forumu münasibətilə Prezident İlham Əliyevə təbrik məktubunda qeyd edib ki, bu forum əhəmiyyətli bir dönəmdə keçirilir. Bakı noyabrda COP29-a evsahibliyi edəcək və bütün dünyanın diqqəti heç vaxt olmadığı qədər Azərbaycana yönələcək: "Bilirəm ki, ölkəniz bu çağırışın öhdəsindən layiqincə gələcək və ənənəvi qonaqpərvərliklə mükəmməl tədbir təşkil edəcəksiniz".

### Azərbaycanın "yaşıl keçid"i

XI Qlobal Bakı Forumundakı çıxışında Prezident İlham Əliyev bildirdi ki, COP29-un Azərbaycanda keçirilməsi ölkəmizin "yaşıl keçid"lə bağlı səylərinin qəbul edilməsidir.

Azərbaycanda keçiriləcək bu irimiqyaslı beynəlxalq tədbirin əhəmiyyətindən danışan dövlət başçımız onu da söylədi ki, birincisi, COP29 bizə onu nümayiş etdirməyə imkan verəcəkdir ki, müstəqil yaşayan və heç kəsdən asılı olmayan bir ölkə uğurla inkişaf edə bilər: "Bu həm də Azərbaycanın son 30 ildə apardığı düzgün siyasəti nümayiş etdirir. Praktiki nöqteyi-nəzərdən isə bu, bizim üçün həmrəyliyə töhfə vermək fürsəti olacaq".

Azərbaycanın dövlət siyasəti hər zaman sülhə, əmin-amanlığa, tərəqqiyə xidmət edib. O da vurğulanası nüansdır ki, torpaqlarının 30 illik işğalı dövründə də Azərbaycan daim sülh tərəfdarı olub, münaqişənin danışıqlar yolu ilə həllinə çalışıb.

Lakin danışıqlar missiyasını üzərinə götürən həmsədir ölkələrin bu istiqamətdə heç bir əməli fəaliyyət göstərməməsi münaqişənin hərb yolu ilə həllindən başqa varianta yol qoymadı. Azərbaycanın BMT TŞ-nin qətnamələrini özünün güc yolu ilə həll etməsi sayəsində bu gün Cənubi Qafqazda real sülhə şərait yaranıb.

Forumda bu vacib məsələyə diqqəti yönəldən Prezident İlham Əliyev də dünyaya bəyan etdi ki, biz tarixi ədaləti və beynəlxalq hüququ bərpa etdik və indi regionda düşmənçiliyə son qoymaq vaxtı yetişib.

### "Parçalanmış dünyanın bərpası"

Forumda COP28-in nəticələri və COP29-a hazırlıq məqsədilə qlobal müzakirələr aparıldı, yeni dünya nizamına təhdid yaradan amillərə, o cümlədən təhlükəsizlik məsələsinə və sülhün təmin olunması üçün perspektivlərə, bölünmüş dünyada dayanıqlılığın qurulmasına, onun qlobal sülhə təsirinə nəzər salındı, qarşıda duran çağırışların həlli yolları müzakirə olundu, dünyanı sarsıdan münaqişələrə, meqatəhdidlərə, o cümlədən iqlim, qida və nüvə təhlükəsizliyi problemlərinə toxunuldu.

Bir sözlə, üç gün ərzində davam edən XI Qlobal Bakı Forumunda dünya gündəmində yer alan mühüm problemlər araşdırıldı, onların həlli yönündə müzakirə və fikir mübadilələri aparıldı. Bütün bunların timsalında Bakıda keçirilən növbəti forumun dünyanın yeni çağırışlarına töhfə verəcəyi şübhəsizdir.

*Yasəmən MUSAYEVA,*
*"Azərbaycan"*

# Azərbaycanı dünyaya tanıdan qlobal platforma

**"Vətən müharibəsindəki qələbədən sonra dünyada nüfuzu daha da artan Azərbaycan həm də mühüm beynəlxalq tədbirlərin əsas ünvanı kimi tanınır. Bu günlərdə isə Azərbaycan müzakirə olunan məsələlərin əhəmiyyəti və qlobal statusu baxımından ciddi əhəmiyyət kəsb edən XI Qlobal Bakı Forumu ilə dünyanı bir araya gətirdi. Forumda müasir qlobal çağırışlar və problemlər müzakirə olundu".**



Bu fikirləri qəzetimizə açıqlamasında Milli Məclisin deputatı Cavanşir Paşazadə deyib. Deputat bildirib ki, "Parçalanmış dünyanın bərpası" mövzusunda keçirilən XI Qlobal Bakı Forumu beynəlxalq mahiyyət kəsb edir: "Sözügedən forumda 68 ölkədən 400-dən çox qonağın iştirak etməsi də bu faktı təsdiqləyir. Görünən odur ki, Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin təşkil etdiyi tədbirlərə maraq getdikcə artmaqdadır. Ona görə də hər il forumda dünyada tanınan yüzlərlə nüfuzlu insan iştirak edir. Nəzərə almaq lazımdır ki, qonaqlar arasında hazırkı və sabiq dövlət və hökumət başçıları da yer alır".

Cavanşir Paşazadə Prezident İlham Əliyevin XI Qlobal Forumun açılış mərasimindəki dərinməzmunlu çıxışına da diqqət çəkib. Bildirib ki, dövlət başçısı forumdakı nitqində sülhə çox yaxın olduğumuzu bir daha bəyan edərək ölkəmizin bu prosesi davam etdirməyə hazır olduğunu vurğuladı, həmçinin güclü hərbi potensialımıza və xalqın birliyinə xüsusi toxundu. Ölkə rəhbəri dünyada və regionumuzda gedən proseslər, Qoşulmama Hərəkatı müstəvisində fəaliyyətimiz və digər vacib mövzularla bağlı fikirlərini də ifadə etdi.

Deputatın sözlərinə görə, forumun mühüm qlobal əhəmiyyətə malik olduğu bu tədbirə qatılan qonaqların fikirlərində də aydın ifadəsini tapıb: "Təsadüfi deyil ki, Azərbaycanın iqtisadi cəhətdən inkişafı, düzgün siyasi gedişləri yüksək qiymətləndirilir və bölgənin ən güclü ölkəsi hesab edilir. Həmçinin regional diplomatiyanın və bir sıra layihələrin qovşağına çevrilməsi baxımından da ölkəmizin nailiyyətləri dəyər görür. Türkiyənin xarici işlər naziri Hakan Fidanın XI Qlobal Bakı Forumundakı çıxışında səsləndirdiyi "Azərbaycan artıq Cənubi Qafqazın yeni parlayan ulduzudur" fikri də ölkəmizin yüksək tərəqqiyə çatdığını bir daha ifadə edir".

Cavanşir Paşazadə həmçinin ölkəmizin COP29-a evsahibliyinin də daim gündəmdə olduğunu deyib. Müsahibimiz vurğulayıb ki, forum iştirakçıları COP29 kimi mötəbər beynəlxalq tədbirin Azərbaycanda keçirilməsi ilə bağlı qərarı yekdilliklə dəstəkləyiblər. Bu, ölkəmizə beynəlxalq aləmdə olan inam və etimadın bariz nümunəsidir. Həmçinin Prezident İlham Əliyevin çıxışında vurğuladığı ki, COP29-un Azərbaycanda keçirilməsi ölkəmizin "yaşıl keçid"lə bağlı səylərinin qəbul edilməsidir.

Deputat yekunda vurğulayıb ki, Qlobal Bakı Forumu bir sıra məsələlərə cavab tapmaq və bəzi problemlərin həlli baxımından mühüm tədbirdir. Bu qlobal platforma Azərbaycanı dünyaya uğurla tanıdır.

*Nəzrin QAFARZADƏ,*
*"Azərbaycan"*

## *Monteneqronun sabiq prezidenti:*

# "Avropa İttifaqının gələcəyinə inanmıram"

**"Avropa İttifaqı dəyişikliklər dövrünə qədəm qoyub. Bu gün biz siyasi dəyişikliklərlə qarşılaşırıq. Rusiya Qərbə qarşı müharibə başladıb. İlkin hədəf kimi də Avropa qitəsini götürüb. Avropa İttifaqı hələ ki, Atlantik okeanında mövcudluğunu isbat etməlidir".**



AZƏRTAC xəbər verir ki, bunu Monteneqronun sabiq prezidenti Milo Dukanoviç XI Qlobal Bakı Forumunun sonuncu günündə "Regional perspektivlər: Avropa İttifaqı və onun qonşuları" panel müzakirəsində çıxış edərkən deyib.

Sabiq prezident əsas məsələnin Avropa İttifaqının təsisat olaraq üzv ölkələrin təhlükəsizliyini qoruyub-qorumaması ilə bağlı olduğunu vurğulayıb.

"Avropa İttifaqının bununla bağlı uğurlu siyasəti iflic vəziyyətinə düşdü. Bu təşkilatda siyasi müstəvidə problemlər müşahidə olunmaqdadır. Hesab edirəm ki, Avropa İttifaqı üçün ilkin prioritet Qərbi Balkanlardır. Bu regionda son 10 il ərzində vəziyyət daha da gərginləşib. Biz etnik cəmiyyətlərin hökm sürdüyü bir zamanda yaşayırıq. Əgər Avropa İttifaqı dağılsa, bu, Qərbi Balkanlarda böyük güclərin cəmləşməsinə səbəb ola bilər. Mən özüm Avropa İttifaqının gələcəyinə inanmıram", - deyə M.Dukanoviç qeyd edib.

# Azərbaycan dünyanın xilasına çalışır

**Gündən-günə güclənən və beynəlxalq aləmdə nüfuzunu daha da artıran Azərbaycan mötəbər tədbirlərin keçirilməsi üçün ən etibarlı məkana çevrilib. Neçə illərdir ki, ölkəmiz idman, mədəniyyət, qlobal siyasətlə bağlı beynəlxalq tədbirlərin keçirilməsinə layiqli evsahibliyi edir.**

Azərbaycanla müxtəlif sahələrdə, o cümlədən dünyada baş verən siyasi, iqtisadi proseslərlə bağlı əməkdaşlıq etmək istəyən dövlətlərin, beynəlxalq təşkilatların sayı gündən-günə artır.

Martın 14-də ölkəmizin paytaxtında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin himayəsi altında və Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin təşkilatçılığı ilə "Parçalanmış dünyanın bərpası" mövzusunda XI Qlobal Bakı Forumu keçirilib. Artıq Nizami Gəncəvi Beynəlxalq Mərkəzi qlobal problemlərin həlli yollarını araşdıran və bu barədə dünya ictimaiyyətini məlumatlandıran mühüm platformaya çevrilib. Məhz bunun nəticəsidir ki, mərkəzin təşkil etdiyi tədbirlərə dünyanın marağı ildən-ilə artır.

XI Qlobal Bakı Forumunun "Parçalanmış dünyanın bərpası" adı ilə keçirilməsi və burada dövlətimizin başçısı İlham Əliyevin çıxış etməsi, eləcə də bir sıra dövlətlərdən rəhbər və səlahiyyətli şəxslərin iştirak etməsi tədbirin önəmini daha da artırdı. XI Qlobal Bakı Forumu dünyada müxtəlif analoji tədbirlər, o cümlədən Münxen Təhlükəsizlik Konfransı, Davos İqtisadi Forumu və bir sıra digər mötəbər tədbirlər qədər əhəmiyyətlidir.

Adından da göründüyü kimi, XI Qlobal Bakı Forumu çox mühüm bir mövzuya - parçalanmış, müharibələrdən yorulmuş dünyamızın problemlərinin müzakirəsinə həsr olunub. XI Qlobal Bakı Forumuna bir çox ölkənin, eləcə də nüfuzlu beynəlxalq təşkilatın nümayəndələri qatıldılar. Forumda 68 ölkədən 400-dən çox qonaq iştirak etdi.

Azərbaycan Prezidenti İlham Əliyev çıxışı zamanı dünyamızı narahat edən bir çox vacib məsələdən söz açaraq deyib: "Dünya özünün qəbul etdiyi dayanıqlı inkişaf yolunda uğursuz olmaqla yanaşı, təhdidlər də artır. İqlim dəyişmələri, biomüxtəlifliyin pozulmasından tutmuş qiymətli su ehtiyatlarının qeyri-düzgün idarə olunmasına qədər qlobal çağırışlar bütün bəşəriyyəti əhatə edir. Dünyanı bürümüş pandemiyadan yenicə çıxdığımız dövrdə növbəti belə hadisəyə hazır olmaq üçün heç bir dərs götürmədik. Qlobal çağırışlar qlobal cavab tədbirləri tələb edir. Lakin biz eyni zamanda elm, texnologiya və innovasiya sahələrində inanılmaz inqilabın astanasındayıq. Süni zəka hazırda hər şeyə təsir göstərir. O, bütün sahələrdə innovasiya tempini sürətləndirir və bütün növ mürəkkəb problemlərin həllinə yardım edir. İKT inqilabı yeni biologiya sahəsində yeni inqilabla müşayiət olunur. Elmə, texnologiyaya, innovasiyaya yönələn yeniləşmə prosesi elmin perspektivlərini qavramağa, konkret olaraq xəstəliklərin müalicəsi, aclığa qarşı mübarizə, təbiətə ahəngdar olacaq inkişafımızın yenidən müəyyən edilməsi, layiqli iş yerləri, özünüifadə üçün miqyasın yaradılması kimi məsələləri anlamağa yardım edir. Biz həmin eyni texnologiyaların təkcə dağıdıcı və məhvedici tərəflərinə diqqət yetirməli deyilik".



Azərbaycan Prezidenti İlham Əliyevin XI Bakı Forumundakı çıxışı dünya mətbuatının diqqət mərkəzindədir. Turkiyə, Rusiya, Ukrayna, İran, Gürcüstan, İraq və dünyanın başqa ölkələrinin aparıcı mətbuatında dövlətimizin başçısının çıxışı geniş işıqlandırılıb. Bütün bunlar forumun dünya üçün böyük əhəmiyyət daşıdığını aydın göstərir. Ölkəmizdə belə nüfuzlu beynəlxalq tədbirlərin həyata keçirilməsi, əslində, bir daha ondan xəbər verir ki, Azərbaycan beynəlxalq ictimaiyyətin əhəmiyyətli tərkib hissələrindən biridir. Dünyada gedən proseslərlə bağlı Azərbaycanın mövqeyi, irəli sürdüyü təşəbbüslər digər dövlətlər tərəfindən qəbul edilir və həmin istiqamətdə qarşıya qoyulan məqsədlərə doğru uğurlu addımlar atılır.

XI Qlobal Bakı Forumu panel iclaslarla davam etdirilib. Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev "Parçalanmış dünyanın bərpası" mövzusunda çıxış edərkən qeyd edib ki, Azərbaycan Cənubi Qafqaz regionuna sabitlik gətirdi. Azərbaycan-Ermənistan əlaqələrindəki istiləşməyə hamı şahiddir. Prezidentin köməkçisi onu da bildirib ki, Azərbaycan Ermənistanla sülhün bərqərar edilməsində səylərini əsirgəmir. Azərbaycan heç bir parçalanmanın olmaması mühitində daha çox əməkdaşlığı təşviq edir və öz öhdəliklərini layiqincə yerinə yetirir. Cənubi Qafqazdakı təcrübənin dünyanın digər bölgələrinə yayılmasına çalışır.

Martın 16-dək davam edən forumda COP28-in nəticələri və COP29-a hazırlıq məqsədilə qlobal müzakirələr aparıldı, yeni dünya nizamına təhdid yaradan amillərə, o cümlədən təhlükəsizlik məsələsinə və sülhün təmin olunması üçün perspektivlərə, bölünmüş dünyada dayanıqlılığın qurulmasına, onun qlobal sülhə təsirinə nəzər salındı, qarşıda duran çağırışların həlli yolları müzakirə olundu, dünyanı sarsıdan münaqişələrə, meqatəhdidlərə, o cümlədən iqlim, qida və nüvə təhlükəsizliyi problemlərinə toxunuldu. Eyni zamanda qlobal idarəetmədə hərbi və iqtisadi ittifaqların rolu, regional perspektivlər, Avropa İttifaqı və onun qonşuları ilə münasibətləri, gənclər siyasəti, qlobal çağırışlara qarşı davamlılığı artırmağın yolları, qeyri-bərabərlik, təbii ehtiyatların azlığı və miqrasiya məsələləri nəzərdən keçirildi, süni intellekt, dronlar və kibersilahlar dövründə yeni təhlükəsizlik nümunələri barədə müzakirələr aparıldı. Müzakirə olunan mövzulardan aydın hiss olunur ki, Azərbaycan dünyanı parçalanmaqdan xilas etməyə çalışır. XI Qlobal Bakı Forumunun əsas məqsəd və məramı da məhz bundan ibarətdir.

*Vahid MƏHƏRRƏMOV,*
*"Azərbaycan"*

# XI Qlobal Bakı Forumu

## Forum çərçivəsində "Regional perspektivlər: Avropa İttifaqı və onun qonşuları" mövzusunda panel iclası keçirilib

**Azərbaycan Respublikası Prezidentinin himayəsi altında və Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin təşkilatçılığı ilə keçirilən XI Qlobal Bakı Forumu martın 16-da öz işini panel iclaslarla davam etdirir.**

AZƏRTAC xəbər verir ki, Sloveniyanın sabiq Prezidenti Borut Pahorun moderatorluğu ilə keçirilən günün ilk, ümumilikdə isə səkkizinci panel iclasında "Regional perspektivlər: Avropa İttifaqı və onun qonşuları" mövzusunda geniş müzakirələr aparılıb.

Avropa İttifaqına üzvlük məsələsinə münasibət bildirən Münxen Təhlükəsizlik Konfransı Fondu Şurasının prezidenti Volfqanq İşinger vurğulayıb ki, Aİ-nin sıralarının genişlənməsi özü ilə sülh gətirməlidir. Müharibələr, münaqişələr artdıqca istər-istəməz bütün qitələrə təsir edir. O, burada söhbətin Qərbi Avropada, Balkan regionunda baş verənlərdən getdiyini də qeyd edib. Vurğulayıb ki, müharibə amili qarşıya yeni çağırışlar qoyur.

Zamanın məhdud olduğunu diqqətə çatdıran V.İşinger deyib: "Bizə möhlət verilməyib və hər dəqiqə qiymətlidir. Müharibələr, münaqişələr nəticəsində on minlərlə insan həyatını itirib. Düşünürəm ki, sülhün təmin olunması istiqamətində danışıqlar düzgün formada aparılmır".

Onun sözlərinə görə, Avropanın ilkin ideyası inteqrasiya ilə bağlıdır və Lissabon Sammiti Avropa İttifaqına yeni üzvlərin qəbul edilməsinə qadağa qoymur.

Bosniya və Herseqovinanın Rəyasət Heyətinin sabiq üzvü Mladen İvaniçin fikrincə, Avropa İttifaqının üzvlərinin sayının artması sabitlik şəraitində mümkündür.

İnteqrasiya məsələsinə toxunan M.İvaniç ölkəsinin yaxın zamanlarda Aİ-yə üzv olmasını imkansız hesab edib. Bildirib ki, müəyyən problemlər həll olunarsa, üzvlük prosesi sürətlənə bilər. Bu, olmasa, region liderləri avtokrat olacaq. Aİ çox fəal olmalıdır və qonşularla əlaqələri genişləndirməyə cəhd etməlidir.

Avropa İttifaqının dəyişikliklər dövrünə qədəm qoyduğunu diqqətə çatdıran Monteneqronun sabiq prezidenti Milo Cukanoviç hazırda siyasi dəyişikliklərin baş verdiyini deyib.

Avropa İttifaqının Atlantik okeanda mövcudluğunu isbat etməli olduğunu vurğulayan sabiq prezident deyib ki, əsas məsələ Aİ-nin təsisat olaraq üzv ölkələrin təhlükəsizliyini qoruyub-qorumaması ilə bağlıdır.

Avropa İttifaqı üçün ilkin prioritetin Qərbi Balkan regionunun olduğunu vurğulayan forum iştirakçısı bu bölgədə son 10 il ərzində vəziyyətin daha da gərginləşdiyini xatırladaraq bildirib: "Biz etnik cəmiyyətlərin hökm sürdüyü bir zamanda yaşayırıq. Əgər Avropa İttifaqı dağılsa, bu, Qərbi Balkan regionunda böyük güclərin cəmləşməsinə gətirib çıxara bilər. Mən özüm Avropa İttifaqının gələcəyinə inanmıram".




"Dünyanın son 20 ildə necə dəyişdiyinin şahidiyik", - deyən Bolqarıstanın sabiq Prezidenti Petar Stoyanov diqqətə çatdırıb ki, Avropa İttifaqı Qərbi Avropa ölkələrinin inkişafına xidmət etmək üçün yaradılıb. O bildirib ki, Avropa İttifaqı böyük səhvlərə yol verməklə qitədə dağıdıcı müharibələrə səbəb olub. Sabiq Prezident Brüsselin bürokratik səhvlərini indi ölkələrin hiss etdiyini vurğulayıb. Deyib ki, Avropa İttifaqı qonşularının da maraqlarını müdafiə etməlidir.

Xorvatiyanın sabiq Prezidenti İvo Yosipoviç isə qeyd edib ki, Qərbi Balkan ölkələri Avropa İttifaqına ən yaxın ölkələrdir. Ancaq Avropa İttifaqı (Aİ) Qərbi Balkan regionu ilə natamam qalacaq. Aİ-nin strateji və təhlükəsizlik problemləri var. Bu ittifaqın ölkələrlə bağlı mövqeyi aydın deyil.

İttifaqa üzv olmaq istəyən ölkələrin heç də hamısının bütün meyarlara cavab verə bilməyəcəyini bildirən forum iştirakçısı hazırda Avropa İttifaqının vahid xarici təhlükəsizlik konsepsiyasının olmadığını qeyd edib. Onun sözlərinə görə, Aİ siyasi oyunçu kimi mühüm rol oynamaq istəyirsə, sıralarını daha da genişləndirməlidir.

"Bosniya və Herseqovina ilə danışıqların tezliklə başlanması vacibdir. Bəzi ölkələrdə islahatlar yetərincə deyil. Biz artıq islahatlar aparmalıyıq. Türkiyəni Avropa İttifaqına qəbul etmirlər. Mən buna təəssüflənirəm. Türkiyənin Avropa İttifaqında olmasından daha çox fayda götürə bilərik", - deyə İvo Yosipoviç vurğulayıb.

Maltanın sabiq Baş naziri Cozef Muskat diqqətə çatdırıb ki, qlobal problemlərin hökm sürdüyü dünyamızda əsas problemlərdən biri də ortaq məxrəcə və ya kompromisə gəlməməkdir.

"Biz böyük ailənin üzvləriyik" deyən sabiq Baş nazir vurğulayıb ki, birləşdirilmiş səylər, inteqrasiya və uzlaşma ilə bir araya gəlmək mümkündür. C.Muskat Avropa İttifaqına üzvlüklə bağlı təhlükəsizlik məsələsinin qaldırılmasını düzgün hesab etmədiyini də əlavə edib.

Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının (QDİƏT) Baş katibi Lazar Komanesku söyləyib ki, Avropa İttifaqına üzvlük, qonşuların sayının artırılması strateji hədəflərə əsaslanmalıdır. Hamımız üzvlüklə bağlı Türkiyəyə qarşı edilənləri yaxşı bilirik.

Onun sözlərinə görə, Avropa İttifaqı qonşularla münasibətdə üzvlüklə bağlı müəyyən konsepsiya hazırlamalıdır və bu konsepsiya hər iki tərəfin marağına uyğun olmalıdır.

"Gəlin düşünək ki, Aİ bizə lazımdırmı? Məsələn, mənim ölkəmin Aİ-yə üzvlüyünün ona nə verəcəyi bizi düşündürür. Şəxsən mənim bununla bağlı tərəddüdlərim var", - deyə Lazar Komanesku vurğulayıb.

Qərbi Avropada və Balkan regionunda baş verən hadisələrdən təəssüfləndiyini dilə gətirən Albaniyanın sabiq Prezidenti İlir Meta regionda sabitliyin pozulmasının yaxşı hal olmadığını və istər-istəməz qonşularda da təşviş yaratdığını diqqətə çatdırıb.

Aİ-yə üzvlük məsələsi ilə bağlı fikirlərini bölüşən forum iştirakçısı ortaq prinsiplərə riayət edilməsinin vacibliyini vurğulayıb.

"Münaqişə ocaqlarında terrorçu qrupların fəaliyyəti narahatlıq doğurur. Bunun qarşısı alınmalıdır", - deyə Albaniyanın sabiq Prezidenti qeyd edib.

İnkişaf üzrə sabiq Avropa komissarı, enerji üzrə sabiq Avropa komissarı Andris Piebalgs bildirib ki, Avropa İttifaqına üzvlüklə bağlı vaxt qoyulmalıdır. "Düşünürəm ki, qonşular üzv olduğu təqdirdə, Aİ tərəfindən onlara dəstək göstəriləcək. Aİ-yə üzvlük yeni pəncərədən yeni imkanlar deməkdir", - deyə o qeyd edib.

Panel iclası müzakirələrlə davam edib və iştirakçıların sualları cavablandırılıb.

## "Süni intellekt, dronlar və kibersilahlar dövründə yeni təhlükəsizlik nümunələri" mövzusunda fikir mübadiləsi aparılıb

**Martın 16-da XI Qlobal Bakı Forumu çərçivəsində keçirilən növbəti - 10-cu panel iclası "Süni intellekt, dronlar və kibersilahlar dövründə yeni təhlükəsizlik nümunələri" mövzusuna həsr olunub.**

AZƏRTAC xəbər verir ki, panel iclasına moderatorluq edən Federal Rabitə Komissiyasının sabiq komissarı Susan Ness rəqəmsal parçalanmanın baş verdiyini, rəqəmsallaşmaya insani etik normaların daxil edilməsinin vacibliyini diqqətə çatdırıb. O deyib: "Texnologiya həyatımızı yaxşılaşdırmaqla yanaşı, ziyanları da var. Beynəlxalq əməkdaşlıq vasitəsilə həmin riskləri müəyyənləşdirməliyik. Vətəndaş cəmiyyətləri, akademik dairələr, texnologiyaları istehsal edənlər bir araya gəlməlidirlər. Biz innovasiyaların təşviqi ilə yanaşı, zərərverici amilləri də ayırd etməliyik".




BMT Baş Qərargahının informasiya və kommunikasiya texnologiyaları ofisində baş katibin köməkçisi Bernardo Mariano texnologiyadan maksimum şəkildə faydalanmağın və lazımi istifadənin vacibliyini qeyd edib. "İnsan və maşın arasında nə isə düzgün getmir. Bu isə idarəetmədən asılıdır. Hökumət inqilablara uyğunlaşmalı və bunu tənzimləməlidir", - deyən B.Mariano insan zəkasının süni zəkadan daha mürəkkəb olduğunu, süni intellektin sürətli olmasına baxmayaraq, insan beyni ilə ayaqlaşa bilmədiyini vurğulayıb.

Azərbaycanın rəqəmsal inkişaf və nəqliyyat nazirinin müavini Samir Məmmədov regionda baş verən münaqişələrin kiberhücumlarla müşayiət olunduğunu diqqətə çatdırıb. Onun sözlərinə görə, Azərbaycan qonşu ölkə tərəfindən çoxsaylı kiberhücumların hədəfinə çevrilib.

O bildirib ki, kiberhücumlar artmaqdadır. Dünyada hər 29-30 saniyədə kiberhücumlar baş verir. Kibertəhlükəsizlik sahəsində ekspertlərə ehtiyac duyulur. Azərbaycana qarşı 30 min kiberhücumun qeydə alındığını diqqətə çatdıran nazir müavini bildirib: "Son illər kibertəhlükəsizliklə əlaqədar Azərbaycan Prezidenti tərəfindən imzalanan sərəncamlar özlüyündə təməl rolunu oynayır. Kiberhücumlarla mübarizədə siyasi, iqtisadi inkişaf müstəvisində həllər tapılmalıdır. Ölkəmizdə Dövlət Kibertəhlükəsizlik Mərkəzi təsis edilib. Mərkəzin məzunlarının 80 faizi işlə təmin olunub".

Dünyamızın daha çox rəqəmsallaşacağını bildirən Monteneqronun sabiq müdafiə naziri Miliça Peyanoviç-Durisiç əlavə edib: "Hazırda istədiyimiz yerdən məlumatları digər yerə ötürə bilirik. Bu, bəzən kənardan lazımsız müdaxilələrə də səbəb ola bilər. Artıq bilirik ki, süni intellekti düzgün formada istifadə etməsək, hər bir problem kəskin şəkildə dərinləşəcək. Bununla bağlı müzakirələr apardıqca risklərin yumşaldılması yollarını kəşf edirik. Hərbi sahədə daha çox süni zəkaya əsaslanan həll yolları üstün tutulur. Bununla bağlı avadanlıqlar da yenilənir. Amma digər tərəfdən, süni intellektin yaratdığı münaqişələrin qarşısını almalı, narahatlığımızı sərgiləməliyik".

Özbəkistanın sabiq xarici işlər naziri Vladimir Norov süni zəkanın son dövrlər dünyada çox populyarlaşdığını deyib. Qeyd edib ki, süni intellekt insanlara qarşı potensial risklər törədir. Buna baxmayaraq, süni intellekt beynəlxalq təhlükəsizliyi artıra, müstəqil silah sistemlərinin ifşasına kömək edə bilər. Yanlış süni intellektin qarşısı alınmalıdır.

"Müəyyən sənədlər hazırlanmalıdır ki, onlar gələcəkdə təhdid rolunu oynamasın. Burada vətəndaş cəmiyyətinin, dövlətlərin mühüm rolu var. Kibercinayətlərə qarşı mübarizədə birgə səylərimizi əsirgəməməliyik. Bu sahədə ekspert qıtlığı yaşanır", - deyə sabiq nazir diqqətə çatdırıb.

İnsanın süni intellektə çox həssas olduğunu vurğulayan Vladimir Norov onun istifadəsinin norma və prinsiplərə əsaslanmalı olduğunu qeyd edib.

Qlobal Tərəfdaşlıq Forumunun prezidenti və baş icraçı direktoru Amir Dossal süni intellektin hökumət tərəfindən deyil, özəl sektor tərəfindən idarə olunduğunu diqqətə çatdıraraq bildirib: "Əslində, süni intellektin sosial məqsədlər üçün istifadəsi arzuolunandır. Hər bir texnologiya yaxşı məqsədlərlə yanaşı, mənfi niyyətlər üçün də istifadə oluna bilər. Təəssüf ki, hazırda süni intellekt silah kimi istifadə olunur".

Rumıniya Baş nazirinin sabiq müavini Ana Birçal Prezident İlham Əliyevin regionda enerji təhlükəsizliyini faktiki olaraq təmin etdiyini vurğulayıb. Deyib ki, bununla da bu sahədən bizə qarşı silah kimi istifadə edənlərin təhdidi aradan qaldırılıb.

Türkiyənin Çexiyadakı səfiri, qardaş ölkənin Avropa İttifaqı məsələləri üzrə sabiq naziri Egemen Bağış isə çıxışında qeyd edib: "Prezident İlham Əliyevi seçkilərdə inamlı qələbəsi ilə yanaşı, Azərbaycan xalqının arzularını reallaşdırması, doğma Qarabağın azad olunması münasibətilə də təbrik edirəm. Süni intellektin müdafiə məqsədilə istifadə edilməsi Zəfərin qazanılmasında müstəsna rola malik oldu".

Azərbaycanın müharibə zamanı çoxsaylı kiberhücumlara məruz qaldığını söyləyən E.Bağış bildirib ki, Zəfər qazanılana qədər ABŞ-dəki erməni diasporu çox geniş fəaliyyətlə məşğul idi.

"Süni zəka getdikcə daha da inkişaf etməkdədir. Türkiyə süni intellektin sosial məsuliyyəti anlayaraq onun tətbiqinin tərəfdarıdır. Süni intellektin heç bir duyğusu, vicdani dəyərləri yoxdur. Odur ki, insani dəyərlər düşünülməli və buna görə beynəlxalq əməkdaşlığı daha da gücləndirməliyik", - deyə səfir əlavə edib.

E.Bağış Türkiyənin dron texnologiyalarında qabaqcıl ölkə kimi fərqləndiyini və onların müxtəlif ölkələrin həyata keçirdiyi hərbi əməliyyatlar zamanı öz qabiliyyətini təsdiqlədiyini diqqətə çatdırıb. "Süni intellekt və kibertəhlükəsizlik qlobal gündəmə daha çox salınmalıdır. NATO 2016-cı ildə kibertəhlükəsizliyi yeni döyüş meydanı hesab etməyə başladı. Təsadüfi deyil ki, genişmiqyaslı kiberhücumlarla rastlaşırıq", - deyə sabiq nazir bildirib.

## Bakı Forumunda qlobal çağırışlara qarşı davamlılığı artırmaq məsələləri müzakirə edilib

**XI Qlobal Bakı Forumu çərçivəsində martın 16-da "Qlobal çağırışlara qarşı davamlılığı artırmaq: Qeyri-bərabərlik, təbii ehtiyatların azlığı və miqrasiya məsələlərinə baxış" mövzusunda panel iclası keçirilib.**

AZƏRTAC xəbər verir ki, İrqçiliyə qarşı Avropa Şəhərlər Koalisiyasının prezidenti Benedetto Zakkirolinin moderatorluğu ilə keçirilən iclasda çıxış edən Beynəlxalq Telekommunikasiya İttifaqının Baş katibinin müavini Tomas Lamanauskas səhiyyə və sənaye sektorlarının vacibliyini qeyd edib. Bildirib ki, müharibə dağıntılarının fəsadlarının qarşısını almaq üçün çalışmaq lazımdır.

Problemlərlə mübarizədə müqavimətin dayanıqlı olmasının əhəmiyyətindən bəhs edən Tomas Lamanauskas deyib: "COVID zamanı keçirdiyimiz şoklardan nəticələr çıxarmalıyıq. Bunların yenidən təkrarlanmaması üçün tədbirlərimizi əsirgəməməliyik".

Çex Respublikasının sabiq Baş naziri Yan Fişer Qlobal Bakı Forumunda iştirakına görə məmnunluğunu ifadə edib. Dünyanın üzləşdiyi yeni çağırışların günbəgün artdığını söyləyən Yan Fişer diqqətə çatdırıb: "Yaşadığımız dünya bir çox mürəkkəblikləri özündə ehtiva edir. Bu baxımdan biz çox əziyyət çəkirik. Dünya özü paradoksdan ibarətdir".

İqlim dəyişikliklərinin tektonik şəkildə cərəyan etdiyini deyən Yan Fişer bildirib: "Biz postqloballaşan dünyada yaşamaq məcburiyyətindəyik. Özümüzü sanki pandemiyadan çıxmamışıq kimi hiss edirik. Parçalanmaya məruz qalan dünyada problemlərin həllini tapmaq üçün buna uyğun davranmalıyıq. Avropa ölkələri artıq ən yaxşı təcrübələrini sərgiləmirlər. Avropada qarşılaşdığımız təhdidlər çox nəhəngdir".




Birləşmiş Millətlər Təşkilatının Somali üzrə sabiq xüsusi elçisi, Mavritaniyanın keçmiş xarici işlər və beynəlxalq əməkdaşlıq naziri Ahmedou Ould-Abdallah miqrasiyanın narahatlıq doğuran əsas məsələlərdən biri olduğunu deyib. Bildirib ki, Cənubda əhali Şimalla müqayisədə daha acizdir. Burada dərin miqrasiyaya səbəb olan amillər var. Həmin amillərin ən başlıcası silahlı münaqişələr, müharibələrdir.

"Kənar müdaxilələr problemi daha da alovlandırır ki, bu da miqrasiyaya səbəb olur. İnsanlar daha yaxşı məkanlara köçmək məcburiyyətində qalırlar. Hazırda 100 milyon miqrant və köçkün var. Bu da yerli hökumətlər tərəfindən idarə olunmalıdır ki, onların təhlükəsizliyi təmin edilsin. Onlar köçkün olaraq daha ağır həyata məruz qalırlar. Miqrantlar işsiz qaldıqlarına görə mütəşəkkil cinayətkarların hədəfi olurlar", - deyə o vurğulayıb.

Panel iclasda çıxış edən 2014-cü il üzrə Nobel Sülh Mükafatı laureatı Kaylaş Satyarti qeyd edib ki, biz çox füsunkar dünyada yaşayırıq. Lakin çox vaxt istədiklərimizi reallaşdıra bilmədiyimiz məlumdur. "Əlli milyona yaxın qadın, kişi, uşaq insan alverinin qurbanına çevrilib. Bunlar, sadəcə, rəqəmlər deyil. Hər birinin arxasında simalar, insan taleyi durur. Müharibələri dayandırmasaq insanların həyatı məhv olunmağa davam edəcək" , - deyə o vurğulayıb.

Beynəlxalq Kənd Təsərrüfatı Tədqiqatları üzrə Məşvərət Qrupunun icraçı direktoru, Birləşmiş Millətlər Təşkilatının Ərzaq və Kənd Təsərrüfatı Təşkilatının sabiq baş elmi işçisi İsmihan Elouafi müharibələrin ayrı-seçkilik gətirdiyini söyləyib. "Biz müharibələrlə bağlı etirazımızı bildirməsək tarix bizi bağışlamaz. Mən özümü ana olaraq xoşbəxt hiss etmirəm. Çünki analar var ki, uşaqlarına yemək tapa bilmir. Qida, su insan hüquqlarının başlanğıcıdır. Milyonlarla insan bu hüquqlardan məhrum olub. Buna səbəb olan müharibələr dayandırılmalıdır. İnsanlar sağ qalmaq üçün mübarizə aparırlar. Biz artıq onları heç bir müsbət əhvali-ruhiyyəyə kökləyə bilmirik", - deyə İsmihan Elouafi qeyd edib.

Beynəlxalq Elm Şurasının baş icraçı direktoru Salvatore Ariko pandemiyanın yaratdığı yeni mühitin süni intellektin genişlənməsinə yol açdığını vurğulayıb. Deyib ki, bu da iş yerlərinin dayanıqlılığına təsir göstərdi.

Bu vacib forumun təşkilinə görə təşəkkürünü ifadə edən Salvatore Ariko həmçinin bildirib: "Qlobal Bakı Forumunda müzakirələr zamanı biz siyasi müstəvidə fikir mübadiləsi apardıqda elmə də yer verməliyik. Mövcud problemlər hər bir ölkənin qarşısında dayanır. Biz həmin məsələlərin həlli baxımından elmə daha çox söykənməliyik. Bu da özlüyündə bir diplomatiyadır və lazımi dəyişikliklərə təkan verir".

İsveçrə İnkişaf və Əməkdaşlıq Agentliyinin sabiq baş direktoru Valter Fust bildirib ki, 2030 gündəliyində yer alan üç əsas məsələ iqtisadiyyatın, cəmiyyətin və ətraf mühitin inkişafıdır. Burada dördüncü məsələ isə iqlim dəyişikliyidir.

Bərabərsizliyin aradan qaldırılması üçün birgə yaşamağı təmin etməyin vacibliyini vurğulayan V.Fust inkişafsız təhlükəsizliyin olmadığını, inkişafın isə təhlükəsizliyin olmadığı yerdə mövcud olmadığını diqqətə çatdırıb.

Birləşmiş Millətlər Təşkilatının Ticarət və İnkişaf Konfransının Qloballaşma və İnkişaf Strategiyaları şöbəsinin direktoru Riçard Kozul-Rayt panel iclasında çıxış edərək bərabərsizliyin azaldılması ilə bağlı tədbirlərin görülməsinin vacibliyi məsələsindən bəhs edib. "Əsas məqsəd yoxsulluqdan xilas edilmə olmalıdır. Bizim qarşımızda bir sıra çətinliklər dayanır. Qərəzlilik son 30 ildə daha da dərinləşib. Əvvəlcə bərabərsizliyin səbəblərini araşdırmalıyıq. Bu problemi azaltmaq üçün texnologiya köməyimizə gələ bilər. Təəssüf ki, hər kəs qabaqcıl kommunikasiyalardan bəhrələnə bilmir. Mənəviyyata söykənən dünyadan kənarlaşdıqca bərabərsizlik daha da artacaq", - deyə o bildirib.

Panel iclası işini müzakirələrlə davam etdirib.

## "Parçalanmış dünyanın bərpası" mövzusunda XI Qlobal Bakı Forumu başa çatıb

**Martın 16-da XI Qlobal Bakı Forumu çərçivəsində sonuncu panel iclası keçirilib. AZƏRTAC xəbər verir ki, forumun son panel iclası "Gənclər danışır, biz dinləyirik" mövzusuna həsr olunub.**

Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin gənc lideri Assen Plevnelievin moderatorluğu ilə keçirilən tədbirdə gənclərin dünyadakı qlobal problemlərə və onların həllinə baxışları müzakirə edilib.

"McKinsey & Company" şirkətinin idarəçilik üzrə müşaviri Adelin Suvana ətraf mühitə həsr olunmuş layihəsi barədə forumun iştirakçılarına məlumat verib. Diqqətə çatdırıb ki, gənclərin səsi ucaldılmalıdır.

Çinin "Schwarzman Scholars" proqramının üzvü Çengkai Siye öz növbəsində bir milyard uşağın iqlim dəyişmələrinin təsirinə məruz qaldığını qeyd edib. Deyib ki, dünya bununla barışmamalıdır. Ümumi gərginliyin günbəgün artdığını bildirən Çengkai Siye bunun gənclərin də həyatına təsir göstərdiyini diqqətə çatdırıb.

"Qlobal Bakı Forumu çox gözəl tədbirdir və burada onlar öz səslərini eşitdirə bilərlər", - deyən gənc lider əlavə edib ki, enerji əsaslı həyat tərzinin bərpaolunan enerji əsaslı həyat tərzi ilə əvəz olunması bəşəriyyət qarşısında yeni səhifəsinin açılmasına xidmət göstərəcək.

"Capitakk solutions" şirkətinin meneceri Manthan Şah gənclərin Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin idarəçilərindən ruhlandıqlarını deyib. O bildirib: "Azərbaycanın evsahibliyi etdiyi bu forumda biz artıq əməli addımlar barədə düşünməliyik. Bu cür konfranslar problemlərin çox qısa müddətdə həllinə yönəldilməli, iddialı layihələr reallaşdırılmalıdır. Məqsədlərin yerinə yetirilməsi ilə bağlı son tarixlər müəyyənləşdirilməlidir". Nizami Gəncəvinin Azərbaycanın müdrik şəxsiyyətlərindən biri olduğunu vurğulayan Manthan Şah gənclərin onun sözlərindən ruhlanaraq gələcəyə inamla addımlamalı olduqlarını diqqətə çatdırıb.




Avstriya Xarici İşlər Nazirliyinin inteqrasiya üzrə səfiri Elnara Maria Abdalla enerji keçidi haqqında danışıb. O, bir çox ölkələrin təcrübəsindən faydalanmağının vacibliyini qeyd edib. "Yaşıl enerji"yə keçidin Afrika, Asiya, Latın Amerikası üçün problem yaratdığını bildirib. Elnara Maria Abdalla Azərbaycanda keçiriləcək COP29-un böyük fürsətlər yaradacağını söyləyib.

İtaliyanın Trieste Universitetinin Beynəlxalq və diplomatik elmlər fakültəsinin məzunu Mitya Husu insanların və təbii proseslərin düzgün idarə edilməsinin məqsədəuyğun olduğunu qeyd edib. Bildirib ki, qlobal problem olan iqlim dəyişikliyi ilə bağlı islahatlar aparılmalı, onun öz təsirini daha çox göstərdiyi su ehtiyatları düzgün idarə edilməlidir. BMT-nin müəyyən etdiyi Dayanıqlı İnkişaf Məqsədlərinə nail olunmalıdır.

Çıxışlarda həmçinin pandemiyadan və müxtəlif dövrlərdə yayılan epidemiyalardan çıxarılmalı dərslərin, səhiyyə sisteminin növbəti pandemiyaya qədər rəqəmsallaşdırılmasının önəmi vurğulanıb.

Müzakirələr zamanı gənclərin məşğulluğunun təmin olunması məsələsinə də toxunulub. Bildirilib ki, gənclərin işlə təmin olunma səviyyəsinin yetəri qədər olmadığına görə onlar pul qazanmaq üçün müxtəlif yollara əl atırlar. Bəzən isə belə gənclər radikal təşkilatların, terror qruplaşmalarının sıralarına cəlb olunurlar.

Bununla da "Parçalanmış dünyanın bərpası" mövzusunda XI Qlobal Bakı Forumu başa çatıb.

# Demokratiyanın iki üzü - ədalətin ikili standartı

## Natəvanın heykəlinə qarşı vandalizm Fransa tarixinin utancverici hadisəsidir



**Fransa əsrlərdir ki, müstəmləkəçilik siyasəti aparır. İşğal etdiyi ölkələrin sərvətlərini talayır, xalqları hüquq və azadlıqlarından məhrum edir, onlara zülmlər, işgəncələr verir. İnsanlıq əleyhinə cinayətlər törətməkdən əl çəkməyən Fransanın hökumət rəhbərləri əməllərindən utanmadan demokratiyadan, haqdan, hüquqdan danışırlar.**

XXI əsrdə də irqçi, ksenofob, islamofob, müstəmləkə siyasəti yürüdən Makron hökumətinə çirkin niyyətini rahatca həyata keçirə bilməsi üçün sülhün, sabitliyin, dostluğun, bərabərliyin bərqərar olduğu dünya lazım deyil. Odur ki, Cənubi Qafqazda da sülhün möhkəmlənməsini istəmir. Azərbaycanla Ermənistan arasında sülh sazişinin imzalanması üçün əlverişli şərait yetişdiyi bir vaxtda Makron hökuməti məkrli niyyətini verdiyi qərarlarla, atdığı addımlarla açıq şəkildə nümayiş etdirir.

Cənubi Qafqazda sülhün bərqərar olmasının real göründüyü bir zamanda Fransa Ermənistana dəstək vermək adı ilə, əslində, onu münaqişə girdabına sürükləyir. Azərbaycan əleyhinə böhtan, iftira, qərəz dolu qətnamələr qəbul etməklə, Ermənistana hərbi texnika, silah-sursat göndərməklə bu iki ölkə arasında sülh sazişinin bağlanmasına mane olmağa cəhd göstərən rəsmi Parisin etdikləri sonunda İrəvanı çıxılmaz vəziyyətə sala bilər.

Fransa başda olmaqla ermənipərəst Qərb ölkələri və bir sıra beynəlxalq təşkilatlar ikili standartlar, qərəz nümayiş etdirməkdə, iftiralar, böhtanlar atmağa çalışmaqda, Azərbaycan isə Cənubi Qafqazda, eləcə də bütün dünyada sülhün, sabitliyin tərəfdarı kimi çıxış etməkdə, multikulturalizm və tolerantlıq nümunəsi göstərməkdədir.

Ölkəmiz dünyanın diqqət mərkəzində olan bir sıra beynəlxalq tədbirlərə uğurla evsahibliyi edir. XI Qlobal Bakı Forumu həmin tədbirlərdən biri oldu. Prezident İlham Əliyevin himayəsi altında və Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin təşkilatçılığı ilə ölkəmizin paytaxtında keçirilən "Parçalanmış dünyanın bərpası" mövzusunda XI Qlobal Forumda mühüm məsələlərə toxunuldu. Yüksək, mötəbər tribunadan bir daha müstəmləkəçi Fransanın bəd əməlləri və məkrli niyyəti ifşa olundu.

Prezident İlham Əliyev martın 14-də forumun açılış mərasimindəki çıxışında "Bakı Qlobal Forumu Davos Dünya İqtisadi Forumu, Münxen Təhlükəsizlik Konfransı kimi aparıcı beynəlxalq forumlarla bir cərgədədir" deyə vurğuladı. Dövlətimizin başçısı Azərbaycanın hər zaman sülh mövqeyində dayandığını bir daha diqqətə çatdırdı: "Uzun illər ərzində biz münaqişənin sülh yolu ilə həllini tapmaq üçün fəaliyyət göstərdik".

Ermənistanın beynəlxalq hüquqa əməl etməməsi, intensiv olaraq təxribatlar törətməsi, beynəlxalq təşkilatların laqeyd yanaşması və ikili standartlar nümayiş etdirməsi nəticəsində müharibə qaçılmaz oldu. Dövlətimizin başçısının bildirdiyi kimi, biz ədalətin zəfər çalmasını istəyirdik, əfsuslar olsun ki, bu, sülh yolu ilə baş vermədi.

Azərbaycan otuz ilə yaxın işğal altında qalmış ərazilərini artıq azad edib və suverenliyinin tam bərpasına nail olub. Prezident İlham Əliyev diqqətə çatdırdı ki, indi biz Ermənistanla heç vaxt olmadığımız qədər sülhə yaxınıq: "Cənubi Qafqazın müstəqillik tarixində heç vaxt sülh bu qədər yaxın olmayıb. Bu, İkinci Qarabağ müharibəsinin nəticəsidir. Bu, bizim ötən ilin sentyabrında 24 saatdan da az vaxt ərzində həyata keçirdiyimiz antiterror əməliyyatının nəticəsidir ki, Azərbaycanda separatçılığa birdəfəlik son qoyduq və suverenliyimizi, ərazi bütövlüyümüzü bərpa etdik".

Fransa hökumətinin İkinci Qarabağ müharibəsinə və antiterror əməliyyatına münasibətinin tamamilə qeyri-adekvat olduğunu qeyd edən dövlətimizin başçısı vurğuladı ki, onlar tərəfindən bu məsələlərin BMT Təhlükəsizlik Şurasına çıxarılmasına və Azərbaycana qarşı sanksiyaların tətbiq edilməsinə beş dəfə cəhd edilib - yəni etmədiyimiz bir əmələ görə: "Biz beynəlxalq hüquqa zidd olan addım atmamışıq. Beş cəhdin hər biri uğursuz oldu, çünki Təhlükəsizlik Şurasının digər üzvləri bunu dəstəkləmədi. Daha sonra Avropa İttifaqı çərçivəsində Azərbaycana qarşı sanksiyaların tətbiqinə bir neçə cəhd edildi. Həmin cəhdlər də uğursuz oldu. Avropa İttifaqı ölkələrinin əksəriyyəti bunu dəstəkləmədi".

Azərbaycanı BMT Təhlükəsizlik Şurasında, Avropa İttifaqında cəzalandırmaq səyləri boşa çıxan Fransa bu uğursuzluğunun qisasını görkəmli Azərbaycan şairi Xurşidbanu Natəvanın heykəlinə yönəltməkdən də çəkinmədi. Azərbaycan şairi Natəvanın heykəli vandalizmə məruz qaldı. Dövlətimizin başçısının dediyi kimi, bu hadisə Fransada baş verdi və buna səbəb BMT Təhlükəsizlik Şurasında, Avropa İttifaqında Azərbaycanı cəzalandırmaq cəhdlərinin uğursuz olması idi.

Bir neçə ay əvvəl Natəvanın Fransanın Evian lö Bən şəhərindəki heykəlinin üzərinə qırmızı boya atılaraq vandallıq aktı törədildi. Fransa hakimiyyət orqanları üzərindəki boyanı təmizləmək və heykəli bərpa etmək əvəzinə onu bükdü, düz iki ay həmin vəziyyətdə saxladı. Azərbaycanın israrı ilə, bu il martın əvvəlində heykəl oradan təxliyə olundu. Lakin heykəlin Parisə gətirilməsi və Azərbaycan səfirliyinin nəzdindəki Mədəniyyət Mərkəzinin bağında ucaldılması zamanı müəyyən edildi ki, üzərinə qırmızı boya atılmaqla yanaşı, heykəlin gözləri, adının və Azərbaycan yazısının yazıldığı hissələrinə də qırmızı boya çəkilib, heykəlin burnu və barmaqları qırılaraq abidəyə zərər verilib.

Bu vandalizm aktına nə Fransa hökuməti, nə də şəhər meriyasının rəsmiləri tərəfindən heç bir reaksiya verilmədi. Makron hökuməti bununla bir daha azərbaycanofob siyasətini nümayiş etdirdi. Eyni zamanda Parisin mədəniyyət düşməni olduğunu göstərdi. Dünyaya yalnız gözəlliklər arzulayan bir şairin heykəlinə qarşı törədilmiş vandalizm aktı Fransanın tarixində həmişəlik utancverici səhifə kimi qalacaq.

XI Qlobal Bakı Forumundakı çıxışında dövlətimizin başçısı qeyd etdi ki, bir çox halda özünü mənəvi lider kimi qələmə verən Fransa kimi bir ölkədə belə hallar qəbuledilməzdir. Prezident İlham Əliyev onu da diqqətə çatdırdı ki, bu, suverenliyimizi bərpa etdikdən sonra üzləşdiklərimizin bir nümunəsidir və ikili standartların göstəricisidir: "Ukraynaya ərazi bütövlüyünü bərpa etməyə kömək üçün qoşun göndərəcəyini bəyan edən Fransa öz ərazi bütövlüyünü bərpa etmiş Azərbaycanı cəzalandırmağa çalışır".

***Zöhrə FƏRƏCOVA,***
***"Azərbaycan"***

## Avropa Parlamenti erməni lobbisinin təmsilçisinə çevrilib

**"Avropa Parlamentinin Azərbaycana qarşı qərəzi davam edir. Martın 13-də təşkilatın "Avropa İttifaqı və Ermənistan arasında daha yaxın əlaqələr və Azərbaycanla Ermənistan arasında sülh sazişinə ehtiyac" adlı qətnamə qəbul etməsi bu qurumun ənənəvi qərəzinin növbəti göstəricisidir".**



Bu fikirləri "Azərbaycan" qəzetinə açıqlamasında Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədr müavini Sevinc Fətəliyeva deyib. Deputat qeyd edib ki, əslində, Avroparlamentin bu cür qərəzli sənəd qəbul etməsi təəccüblü deyil: "Çünki qurumun "erməni sevgisi" o qədər güclüdür ki, indiyə kimi Azərbaycan əleyhinə bu tipli qətnaməni dəfələrlə qəbul edib. Təbii ki, onlar cavabsız qalmır, dövlətimiz təşkilatın bu qərəzinə qarşı öz mövqeyini ifadə edir. Avropa Parlamentinin ölkəmizə qarşı ikili standartları artıq düşmənçilik səviyyəsinə yüksəlib. Görünən odur ki, Azərbaycanın öz ərazi bütövlüyünü və suverenliyini bərpa etməsi islamofobiyanın, türkofobiyanın, irqçiliyin məkanına çevrilmiş Avropa Parlamentinə rahatlıq vermir. Təşkilat Azərbaycanın yaratdığı reallıqları dəyişmək gücündə olmasa da, guya özünün "mövqeyi"ni ortaya qoyur".

Deputatın sözlərinə görə, Avropa Parlamenti və onun timsalında bəzi Avropa strukturları Azərbaycana qarşı əsassız mübarizədə məğlub olublar. Diplomatik masalarda Azərbaycanın haqlı və ədalətli mövqeyi qələbə qazanıb. Ona görə də indiki halda Avropa Parlamenti öz oyununu məhz Ermənistan üzərindən qurmağa çalışır. Avropanın "demokratik strukturları" separatizmi yenidən təşviq "qərarı" aldıqlarını dolayısı ilə təsdiqləyirlər. Bu təşkilatların timsalında Avropa dəyərləri iflasa uğrayır.

"Başda Avropa Parlamenti olmaqla bəzi Avropa təsisatları 30 il ərzində Azərbaycanın ərazi bütövlüyünün tanınması ilə bağlı qərarlarında, qətnamələrində səmimi olmadıqlarını sübut ediblər. Bu fakt bütövlükdə Avroparlamentin üzvlərinin əsl mahiyyətindən xəbər verir. Qurumun "deputatları"nın hansı maraqdan irəli gələrək bu kimi "qətnamələr" qəbul etməsi sirr deyil. Nəzərə almaq lazımdır ki, onlar siyasi korrupsiyaya uğramış siyasətçilərdir", - deyə müsahibimiz söyləyib.

Sevinc Fətəliyeva əlavə edib ki, bu təşkilatın bir sıra nümayəndələrinə korrupsiya ittihamı irəli sürülməsi hər kəsə məlumdur: "30 il işğalçı siyasət yürütmüş, yüz minlərlə insanın doğma torpağında yaşamaq kimi fundamental hüququnu pozmuş Ermənistanın Avropa İttifaqının üzvlüyünə təşviq edilməsi də riyakarlıqdır. Bunu təşviq edən məhz elə Avropa Parlamentidir".

Deputat onu da deyib ki, Azərbaycanın müvafiq dövlət qurumları təşkilatın qəbul etdiyi əsassız qətnamə ilə bağlı öz mövqeyini bildirib: "Milli Məclisin bəyan etdiyi kimi, sözügedən parlament Avropa xalqlarının problemləri, qarşılaşdıqları çağırışlar ilə məşğul olmaq əvəzinə artıq tam şəkildə erməni lobbisinin, azərbaycanofob, islamofob, şovinist və irqçi qüvvələrin təmsilçisinə çevrilib. Avropa Parlamentinin ötən illər ərzində Azərbaycanın ərazi bütövlüyünü və suverenliyini sözdə belə olsa tanımaqdan, dəstəkləməkdən inadla imtina etməsinin dəfələrlə şahidi olmuşuq. Lakin ölkəmizin ərazi bütövlüyü və suverenliyinə qarşı aparılan indiki kampaniya Avropa Parlamentinin Azərbaycana qarşı birmənalı şəkildə hücuma keçdiyini göstərir. Lakin onlar unutmamalıdırlar ki, Azərbaycan güclü dövlətdir və bu cür qətnamələrlə ölkəmizə hansısa təzyiq etmək mümkün deyil. Əslində, Avroparlamentin son qətnaməsi əvvəllər qəbul olunmuş sənədlər kimi kağız parçasından başqa bir şey deyil".

***Nəzrin QAFARZADƏ,***
***"Azərbaycan"***

## Fransa göründüyü kimi yox, olduğu kimi...

**Unikal ədəbiyyatı, bənzərsiz filmləri, möhtəşəm memarlıq abidələri ilə Fransa həmişə bütün dünyanı özünə heyran edə bilib. Amma sən demə, medalın o biri üzü - bu dövlətin törətdiyi vəhşiliklərdən toxunan bir surəti də varmış. Cəmi 38 günə - bir gün belə döyüşmədən alman faşistlərinə böyük "məhəbbət"lə təslim olan fransızların iliyində vətən sevgisi sanki heç binədən yoxmuş.**




Amma tarixin tozunu çırpıb keçmişə qayıdanda Fransanın törətdiyi qəddarlıqlara mat qalırsan. Afrika coğrafiyasını istismar edən Avropa ölkələri sırasında ən qəddar vəhşiliklərin müəllifi Fransadır. Afrika ölkələrinin əksəriyyəti hələ ötən əsrin 60-cı illərində müstəmləkə zəncirindən xilas olsa da, Paris keçmiş koloniyalarının heç birini əlindən buraxmaq istəmirdi və hamının üzərində qeyri-rəsmi qaydada ağalığını saxlayırdı. "Fransafrik" strategiyası adlanan idarə üsulu ilə bir sıra Afrika ölkələri asanlıqla kölə vəziyyətinə salınmışdı. Həmin ölkələrdə Fransanın 4 hərbi bazası vardı. Bu qüvvə ilə Paris keçmiş koloniyalarının üzərində asanlıqla siyasi və iqtisadi proseslərə nəzarət edirdi. Fransızlar onların daxili işlərinə qarışır, lazım olanda hətta çevrilişlər həyata keçirirdi.

1960-ci ildə "məcburi həmrəylik" sayəsində Afrikanın 14 dövləti valyuta ehtiyatlarının 65 faizini Fransa xəzinəsinə ötürdü. Həmin ölkələr öz pullarının yalnız 15 faizini idarə edə bilirdilər. Bu dövlətlərə əlavə vəsait lazım olanda onlar fransızlardan öz pullarını yalnız faizlə borca alırdılar. Fransa üstəlik adi müqavilələr hesabına bu ölkələrin bütün təbii ehtiyatlarını birinci almaq hüququna malik idi. Əgər Fransa icazə verməsə, onlar bu resursları heç kimə sata bilməzdilər. Bu azmış kimi, Fransa kolonial paktla fransızdilli ölkələrin hamısı üçün vahid valyuta yaratmaqla onları özündən asılı vəziyyətə salmışdı. Bu, Afrikada Fransa müstəmləkəçiliyinin yeni erası idi.

Həmin era zamanı koloniyalarda dözülməz vəziyyət yaranmışdı. Məsələn, Nigeriyada əhalinin 41,8 faizinin təhlükəsiz içməli su mənbələrinə əli çatmırdı. Onu da qeyd edək ki, Fransa bu ölkənin torpaqlarından 40 il idi ki, uran çıxarırdı. Bu hesaba Fransada hər 3 lampadan 2-si Nigeriya uranı ilə yansa da, nigeriyalıların özləri elektrik enerjisinin çatışmazlığından əziyyət çəkirdilər. Verdiklərinin əvəzində isə qədərsiz dərəcədə radiaktiv tullantılar alırdılar. Amma əsl faciə ondan ibarətdir ki, indi bu tullantıların basdırıldığı ərazilərdə evlər tikilib və yollar çəkilib. O ərazilərdə ki, orada uranın konsentrasiyası normadan 4 dəfə artıqdır.

Fransa öz müstəmləkələrini elə sərt idarə edirdi ki, müstəqilliyə can atan istənilən Afrika dövləti cəzasız qalmırdı. Məsələn, 1966-cı ildə Kamerunun müqavimət hərəkatının lideri Osende Afana Fransanın üzünə "ağ" olduğu üçün edam edildi. O, sadəcə Afrika ölkələrinin fransız valyutası üzündən müstəqilliklərini itirməsini tənqid etmişdi. 1984-cü ildə onun həmyerlisi iqtisadçı Cozef Çuncaqı da "Pullar, quldarlıq, azadlıq: Afrkada pul repressiyaları" yazısına görə zəhərlədilər. 1962-ci ildə Malinin ilk prezidenti Modibo Mali frankı yaratmaq istədiyinə görə 1968-ci ildə dövlət çevrilişinə məruz qaldı. 1987-ci ildə isə Burkino-Fasonun prezidenti Tomas Fankara Fransanın tətbiq etdiyi maliyyə sistemini tənqid etdiyi üçün öldürüldü.

Belə faktların sayı-hesabı yoxdur. Bircə onu xatırladaq ki, son 50 il ərzində 26 Afrika ölkəsində 67-dən çox dövlət çevrilişi baş vermişdir və həmin 26 ölkənin 16-sı fransız müstəmləkəsi idi. Qəribədir ki, Afrika dövlətləri içində fransızlara sadiq, amma xalqlarına qarşı qəddar olan liderlər bu çevrilişlərdən kənarda qalırdılar. Bu fakt həmin çevrilişlərin əsl "müəllif"ini göstərir.

Afrika dövlətləri indi də yalnız Fransa şirkətləri ilə işləmək məcbiriyyətindədirlər. Bu da səbəbsiz deyil. 2011-ci ildə Qbaqbo Loran frankla vidalaşmaq istəyəndə Nikolay Sarkozi bu ölkəni düz 10 gün bombardman etdi. Avropa Şurası isə bu neokolonial sistemin ifşa edilməsi üçün əlini ağdan qaraya vurmaq niyyətində deyil. Əksinə, Fransanın Afrikanı talaması sanki onun ürəyincədir.

Biz fransızları həmişə Lüi de Fünes, Pyer Rişar, Belmando kimi aktyorların, sehrli müğənnilərin və yazıçıların simasında tanımışıq. Fransanın öz müstəmləkələrində törətdiyi vəhşiliklər isə heç vaxt müzakirə mövzusu olmayıb. Halbuki fransızlar öz koloniyalarında bütün məktəbləri, xəstəxanaları dağıtmış, hətta, məsələn, Qvineyada bütün heyvanları qırıb öldürmüşlər. Nə var-nə var, o zaman Qvineya müstəqilliyini elan etmək istəyirdi. Odur ki, hamı üçün "mərhəmətli və mehriban" olan general De Qol əmr vermişdi ki, Qvineyadan bütün mülkiyyət çıxarılsın, çıxarılması mümkün olmayanlar isə məhv edilsin. Fransanın belə sərt hərəkətləri onunla nəticələndi ki, bu gün Afrikada heç bir xalqın Fransanı görməyə gözü yoxdur.

***Bahadur İMANQULİYEV,***
***"Azərbaycan"***

# Azərbaycan Respublikasının Nazirlər Kabineti

№ 150 **QƏRAR** Bakı şəhəri, 13 mart 2024-cü il

## "Azərbaycan Respublikası Prezidentinin "Əhalinin sağlamlığının qorunması haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının 2013-cü il 29 oktyabr tarixli 790-IVQD nömrəli Qanununun tətbiqi haqqında" 2013-cü il 25 noyabr tarixli 38 nömrəli, "Azərbaycan Respublikasının Əmək Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2014-cü il 28 noyabr tarixli 1117-IVQD nömrəli Qanununun tətbiqi və "Azərbaycan Respublikası Əmək Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 1999-cu il 15 aprel tarixli 122 nömrəli Fərmanında dəyişikliklər edilməsi haqqında" 2014-cü il 22 dekabr tarixli 416 nömrəli, "Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 7 mart tarixli 1871 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Gənclər Fondunun Nizamnaməsi"ndə dəyişikliklər edilməsi haqqında" 2018-ci il 29 avqust tarixli 252 nömrəli və "Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin fəaliyyətinin təmin edilməsi və "Azərbaycan Respublikası İqtisadi İnkişaf Nazirliyinin fəaliyyətinin təkmilləşdirilməsi ilə bağlı tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 28 dekabr tarixli 504 nömrəli Fərmanında dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 20 fevral tarixli 111 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında" 2018-ci il 18 oktyabr tarixli 310 nömrəli fərmanlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 16 dekabr tarixli 2411 nömrəli Fərmanının icrası ilə əlaqədar Azərbaycan Respublikası Nazirlər Kabinetinin bəzi qərarlarında dəyişiklik edilməsi haqqında

"Azərbaycan Respublikası Prezidentinin "Əhalinin sağlamlığının qorunması haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının 2013-cü il 29 oktyabr tarixli 790-IVQD nömrəli Qanununun tətbiqi haqqında" 2013-cü il 25 noyabr tarixli 38 nömrəli, "Azərbaycan Respublikasının Əmək Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2014-cü il 28 noyabr tarixli 1117-IVQD nömrəli Qanununun tətbiqi və "Azərbaycan Respublikası Əmək Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 1999-cu il 15 aprel tarixli 122 nömrəli Fərmanında dəyişikliklər edilməsi haqqında" 2014-cü il 22 dekabr tarixli 416 nömrəli, "Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 7 mart tarixli 1871 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Gənclər Fondunun Nizamnaməsi"ndə dəyişikliklər edilməsi haqqında" 2018-ci il 29 avqust tarixli 252 nömrəli və "Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin fəaliyyətinin təmin edilməsi və "Azərbaycan Respublikası İqtisadi İnkişaf Nazirliyinin fəaliyyətinin təkmilləşdirilməsi ilə bağlı tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 28 dekabr tarixli 504 nömrəli Fərmanında dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 20 fevral tarixli 111 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında" 2018-ci il 18 oktyabr tarixli 310 nömrəli fərmanlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 16 dekabr tarixli 2411 nömrəli Fərmanının icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2015-ci il 12 iyun tarixli 224 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015, № 6, maddə 796 (Cild I) ilə təsdiq edilmiş "Əmək qanunvericiliyinin və "Məşğulluq haqqında" Azərbaycan Respublikası Qanununun pozulmasına görə Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinə əsasən Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən tətbiq edilən cərimələrdən toplanan və həmin orqanın hesabına köçürülən vəsaitdən istifadə Qaydası"nın "Qeyd" hissəsi ləğv edilsin.

2. "Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinə əsasən Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi tərəfindən tətbiq edilən cərimələrdən toplanan və həmin orqanın hesabına köçürülən vəsaitdən istifadə Qaydası"nın və "Vəzifə (tarif) maaşlarına əlavə verilən işçilərin Siyahısı"nın təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2015-ci il 12 iyun tarixli 225 nömrəli Qərarının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015, № 6, maddə 797 (Cild I) 2-1-ci hissəsi ləğv edilsin.

3. "Hüquqi nəticə yaradan hərəkətləri dövlətin adından həyata keçirən, Azərbaycan Respublikası Prezidentinin yaratdığı publik hüquqi şəxsin (statusu Azərbaycan Respublikasının qanunu ilə müəyyən edilən, habelə dövlət orqanlarının strukturuna daxil olmayan tabeliyindəki publik hüquqi şəxslər istisna olmaqla) işlər görülməsindən və xidmət göstərilməsindən əldə etdiyi vəsaitin (o cümlədən tutulan xidmət haqlarının) həmin publik hüquqi şəxsin sərəncamında qalan hissəsindən istifadə Qaydası"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 17 yanvar tarixli 15 nömrəli Qərarının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020, № 1, maddə 72 (Cild I) 2-ci hissəsi ləğv edilsin.

4. "Dövlət orqanlarının strukturuna daxil olmayan tabeliyindəki qurumlar tərəfindən işlərin görülməsindən və xidmətlərin göstərilməsindən əldə edilən vəsaitdən (o cümlədən tutulan xidmət haqlarından) istifadə Qaydası"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2021-ci il 10 sentyabr tarixli 257 nömrəli Qərarının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021, № 9, maddə 1057 (Cild I) 2-ci hissəsi ləğv edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikasının Nazirlər Kabineti

№ 151 **QƏRAR** Bakı şəhəri, 13 mart 2024-cü il

## "Azərbaycan Respublikası Prezidentinin "Yol hərəkəti haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" 1998-ci il 22 noyabr tarixli 24 nömrəli, "Avtomobil yolları haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 10 mart tarixli 299 nömrəli Fərmanına əlavə edilməsi haqqında" 2009-cu il 30 oktyabr tarixli 171 nömrəli, "Azərbaycan Respublikasının Ticarət Gəmiçiliyi Məcəlləsində dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikasının 2012-ci il 29 may tarixli 371-IVQD nömrəli Qanununun tətbiqi barədə" 2012-ci il 6 iyul tarixli 669 nömrəli, "Dəniz limanları haqqında" Azərbaycan Respublikasının 2014-cü il 18 aprel tarixli 945-IVQ nömrəli Qanununun tətbiqi və Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 20 aprel tarixli 395 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Dövlət Dəniz Administrasiyası haqqında Əsasnamə"də dəyişikliklər edilməsi barədə" 2014-cü il 14 may tarixli 161 nömrəli, "Azərbaycan Dəmir Yolları" Qapalı Səhmdar Cəmiyyətinin yaradılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 20 iyul tarixli 383 nömrəli Sərəncamında dəyişikliklər edilməsi və Səhmdar Cəmiyyətinin fəaliyyətinin təkmilləşdirilməsi ilə bağlı əlavə tədbirlər barədə" 2015-ci il 18 sentyabr tarixli 622 nömrəli, "Azərbaycan Respublikasının Ticarət Gəmiçiliyi Məcəlləsində dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikasının 2015-ci il 18 dekabr tarixli 40-VQD nömrəli Qanununun tətbiqi barədə" 2016-cı il 27 yanvar tarixli 751 nömrəli və "Yol hərəkəti haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının 2016-cı il 16 dekabr tarixli 467-VQD nömrəli Qanununun tətbiqi haqqında" 2017-ci il 23 fevral tarixli 1268 nömrəli fərmanlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 15 dekabr tarixli 2394 nömrəli Fərmanının icrası ilə əlaqədar Azərbaycan Respublikası Nazirlər Kabinetinin bəzi qərarlarında dəyişiklik edilməsi haqqında

"Azərbaycan Respublikası Prezidentinin "Yol hərəkəti haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə"1998-ci il 22 noyabr tarixli 24 nömrəli, "Avtomobil yolları haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 10 mart tarixli 299 nömrəli Fərmanına əlavə edilməsi haqqında" 2009-cu il 30 oktyabr tarixli 171 nömrəli, "Azərbaycan Respublikasının Ticarət Gəmiçiliyi Məcəlləsində dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikasının 2012-ci il 29 may tarixli 371-IVQD nömrəli Qanununun tətbiqi barədə" 2012-ci il 6 iyul tarixli 669 nömrəli, "Dəniz limanları haqqında" Azərbaycan Respublikasının 2014-cü il 18 aprel tarixli 945-IVQ nömrəli Qanununun tətbiqi və Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 20 aprel tarixli 395 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Dövlət Dəniz Administrasiyası haqqında Əsasnamə"də dəyişikliklər edilməsi barədə" 2014-cü il 14 may tarixli 161 nömrəli, "Azərbaycan Dəmir Yolları" Qapalı Səhmdar Cəmiyyətinin yaradılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 20 iyul tarixli 383 nömrəli Sərəncamında dəyişikliklər edilməsi və Səhmdar Cəmiyyətinin fəaliyyətinin təkmilləşdirilməsi ilə bağlı əlavə tədbirlər barədə" 2015-ci il 18 sentyabr tarixli 622 nömrəli, "Azərbaycan Respublikasının Ticarət Gəmiçiliyi Məcəlləsində dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikasının 2015-ci il 18 dekabr tarixli 40-VQD nömrəli Qanununun tətbiqi barədə" 2016-cı il 27 yanvar tarixli 751 nömrəli və "Yol hərəkəti haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının 2016-cı il 16 dekabr tarixli 467-VQD nömrəli Qanununun tətbiqi haqqında" 2017-ci il 23 fevral tarixli 1268 nömrəli fərmanlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 15 dekabr tarixli 2394 nömrəli Fərmanının icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1999-cu il 15 mart tarixli 41 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999, № 3, maddə 197 (Cild I); Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2024-cü il 25 yanvar tarixli 44 nömrəli Qərarı) ilə təsdiq edilmiş "Nəqliyyat vasitəsini idarə etmək hüququ verən sürücülük vəsiqəsi almaq istəyən şəxslərdən imtahanların qəbul edilməsi və onlara sürücülük vəsiqəsinin verilməsi qaydaları haqqında Əsasnamə"nin 3.1-ci bəndinin ikinci cümləsindən "Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırılmaqla," sözləri çıxarılsın.

2. "Dəniz limanı kapitanı haqqında Əsasnamə"nin, "Dənizdə gəmilərdə baş vermiş qəzaların araşdırılması Qaydaları"nın və "Gəmilərin nəzarət yoxlamasına dair Əsasnamə"nin təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2013-cü il 4 aprel tarixli 59 nömrəli Qərarının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2013, № 4, maddə 439 (Cild I) 4-cü hissəsi ləğv edilsin.

3. "Dəniz limanları haqqında" Azərbaycan Respublikası Qanununun tətbiqi ilə bağlı bəzi normativ hüquqi aktların təsdiq edilməsi və "Mərkəzi icra hakimiyyəti orqanları tərəfindən konkret sahələr üzrə elektron xidmətlər göstərilməsi Qaydaları"nın və "Elektron xidmət növlərinin Siyahısı"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2011-ci il 24 noyabr tarixli 191 nömrəli qərarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2015-ci il 8 iyul tarixli 262 nömrəli Qərarında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015, № 7, maddə 893 (Cild I) aşağıdakı dəyişikliklər edilsin:

3.1. həmin Qərarla təsdiq edilmiş 1 nömrəli əlavə - "Azərbaycan Respublikasının Dəniz Limanları Reyestrinin aparılması Qaydası"nın "Qeyd" hissəsi ləğv edilsin;

3.2. həmin Qərarla təsdiq edilmiş 2 nömrəli əlavə - "Gəmi agenti haqqında Əsasnamə"nin "Qeyd" hissəsi ləğv edilsin;

3.3. həmin Qərarla təsdiq edilmiş 3 nömrəli əlavə - "Limanlarda gəmi agenti tərəfindən xidmətlərin göstərilməsi üçün sertifikatın forması, qüvvədə olma müddəti, verilmə və ləğv edilmə Qaydası"nın "Qeyd" hissəsi ləğv edilsin.

4. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2015-ci il 8 sentyabr tarixli 296 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015, № 10, maddə 1211 (Cild I); 2024,№ 1, maddə 74) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının ərazi sularında üzmə Qaydaları"nın "Qeyd" hissəsi ləğv edilsin.

5. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2015-ci il 1 oktyabr tarixli 313 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015, № 10, maddə 1227 (Cild I) ilə təsdiq edilmiş "Limanlarda qanunsuz müdaxilə aktı zamanı təhlükəsizliyin təmin edilməsi Qaydası"nın 5-ci hissəsi ləğv edilsin.

6. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2016-cı il 15 avqust tarixli 306 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 8, maddə 1443 (Cild I) ilə təsdiq edilmiş "Dənizçilik şirkətinin "Əmniyyətli İdarəetmə haqqında Beynəlxalq Məcəllə"nin tələblərinə uyğun olması haqqında Şəhadətnamənin və gəminin "Əmniyyətli İdarəetmə haqqında Beynəlxalq Məcəllə"nin tələblərinə uyğun olması haqqında Şəhadətnamənin forması və verilməsi Qaydası"nın "Qeyd" hissəsi ləğv edilsin.

7. "Sürücülük vəsiqəsinin təsvirinin, spesifikasiyasının və nümunəsinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 2 aprel tarixli 145 nömrəli Qərarının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 4, maddə 742 (Cild I) 5-ci hissəsi ləğv edilsin.

8. "Nəqliyyat vasitələrinin şüşələrinə örtüklərin çəkilməsi Qaydası"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2023-cü il 21 yanvar tarixli 18 nömrəli Qərarının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2023, № 1, maddə 137 (Cild I) 2-ci hissəsi ləğv edilsin.

9. "Nəqliyyat vasitələrinin parklanmasına görə ödənişin məbləği"nin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2023-cü il 25 iyun tarixli 213 nömrəli Qərarının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2023, № 6, maddə 873 (Cild I) 3-cü hissəsi ləğv edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikasının Nazirlər Kabineti

№ 152 **QƏRAR** Bakı şəhəri, 13 mart 2024-cü il

## "Azərbaycan Respublikası Prezidentinin "Fitosanitar nəzarəti haqqında" Azərbaycan Respublikasının Qanununda və Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2019-cu il 3 may tarixli 1577-VQD nömrəli Qanununun tətbiqi və "Fitosanitar nəzarəti haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 2 avqust tarixli 441 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında" 2019-cu il 29 may tarixli 712 nömrəli, "Azərbaycan Respublikası Prezidentinin "Baytarlıq haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" 2005-ci il 22 noyabr tarixli 316 nömrəli və "Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyinin fəaliyyətinin təmin edilməsi haqqında" 2017-ci il 13 noyabr tarixli 1681 nömrəli fərmanlarında dəyişiklik edilməsi barədə" 2020-ci il 15 aprel tarixli 988 nömrəli və "Qida təhlükəsizliyi haqqında" Azərbaycan Respublikasının 2022-ci il 5 may tarixli 523-VIQ nömrəli Qanununun tətbiqi və Azərbaycan Respublikası Prezidentinin "Yeyinti məhsulları haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" 2000-ci il 26 yanvar tarixli 267 nömrəli, "Yeyinti məhsulları haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi ilə bağlı əlavə tədbirlər barədə" 2003-cü il 23 oktyabr tarixli 969 nömrəli fərmanlarının ləğv edilməsi haqqında" 2022-ci il 24 iyun tarixli 1723 nömrəli fərmanlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 14 dekabr tarixli 2390 nömrəli Fərmanının icrası ilə əlaqədar Azərbaycan Respublikası Nazirlər Kabinetinin bəzi qərarlarında dəyişiklik edilməsi haqqında

"Azərbaycan Respublikası Prezidentinin "Fitosanitar nəzarəti haqqında" Azərbaycan Respublikasının Qanununda və Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2019-cu il 3 may tarixli 1577-VQD nömrəli Qanununun tətbiqi və "Fitosanitar nəzarəti haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 2 avqust tarixli 441 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında" 2019-cu il 29 may tarixli 712 nömrəli,"Azərbaycan Respublikası Prezidentinin "Baytarlıq haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" 2005-ci il 22 noyabr tarixli 316 nömrəli və "Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyinin fəaliyyətinin təmin edilməsi haqqında" 2017-ci il 13 noyabr tarixli 1681 nömrəli fərmanlarında dəyişiklik edilməsi barədə" 2020-ci il 15 aprel tarixli 988 nömrəli və "Qida təhlükəsizliyi haqqında" Azərbaycan Respublikasının 2022-ci il 5 may tarixli 523-VIQ nömrəli Qanununun tətbiqi və Azərbaycan Respublikası Prezidentinin "Yeyinti məhsulları haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" 2000-ci il 26 yanvar tarixli 267 nömrəli, "Yeyinti məhsulları haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi ilə bağlı əlavə tədbirlər barədə" 2003-cü il 23 oktyabr tarixli 969 nömrəli fərmanlarının ləğv edilməsi haqqında" 2022-ci il 24 iyun tarixli 1723 nömrəli fərmanlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 14 dekabr tarixli 2390 nömrəli Fərmanının icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. "Fitosanitar tədbirlərinə və dövlət fitosanitar xidmətlərinə görə xidmət haqqının məbləğlərinin təsdiq edilməsi haqqında"Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 25 avqust tarixli 307 nömrəli Qərarının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020, № 8, maddə 1124 (Cild I) 2-ci hissəsi ləğv edilsin.

2. "Baytarlıq xidməti və nəzarəti tədbirlərinə görə alınan xidmət haqqının məbləği"nin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2021-ci il 22 iyun tarixli 178 nömrəli Qərarının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021, № 6 (IV kitab), maddə 684 (Cild I) 2-ci hissəsi ləğv edilsin.

3. "Qida təhlükəsizliyi haqqında" Azərbaycan Respublikası Qanununun tələblərinin pozulmasına görə Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinə əsasən Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi tərəfindən tətbiq edilən cərimələrdən toplanan və həmin Agentliyin hesabına köçürülən vəsaitin bölgüsü və ondan istifadə Qaydası"nın təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2023-cü il 25 yanvar tarixli 22 nömrəli Qərarının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2023, № 1, maddə 141 (Cild I) 2-ci hissəsi ləğv edilsin.

4. "Qida və yem məhsullarının, habelə qida məhsulları ilə təmasda olan material və məmulatların nümunələrinin sınaq laboratoriyalarında tədqiqinə (sınağına) görə xidmət haqqının məbləği"nin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2023-cü il 7 mart tarixli 72 nömrəli Qərarının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2023, № 3, maddə 422 (Cild I) 3-cü hissəsi ləğv edilsin.

5. "Qida təhlükəsizliyi sahəsində həyat və sağlamlığın qorunması məqsədilə risklərin idarə edilməsi üzrə qeyri-müəyyən subyektlər dairəsinə münasibətdə həyata keçirilən müvəqqəti tədbirlərin tətbiqi qaydası"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2023-cü il 5 may tarixli 149 nömrəli Qərarının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2023, № 5, maddə 716 (Cild I) 2-ci hissəsi ləğv edilsin.

6. "Qida məhsullarının zənginləşdirilməsi (fortifikasiya) haqqında qərarın qəbul edilməsi qaydası"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2023-cü il 5 may tarixli 150 nömrəli Qərarının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2023, № 5, maddə 717 (Cild I) 2-ci hissəsi ləğv edilsin.

7. "Qida məhsullarının təhlükəli hesab edilməsinə əsas verən halların açıq reyestrinin aparılması qaydası"nın təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2023-cü il 17 iyun tarixli 197 nömrəli Qərarının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2023, № 6, maddə 859 (Cild I) 2-ci hissəsi ləğv edilsin.

8. "Qida təhlükəsizliyi haqqında" Azərbaycan Respublikası Qanununun tələblərinə uyğun olmayan və (və ya) təhlükəli qida və yem məhsullarının geri çağırılması, yığışdırılması, utilizasiyası və məhv edilməsi qaydası"nın təsdiq edilməsi və Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2017-ci il 6 dekabr tarixli 542 nömrəli Qərarı ilə təsdiq edilmiş "Yoxlama və digər nəzarət tədbirləri çərçivəsində yoxlayıcı orqanlar tərəfindən fiziki və hüquqi şəxslərdən malların (məhsulların) götürülməsi, daşınması, saxlanması, zərərsizləşdirilməsi və ya məhv edilməsi Qaydası"nda dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2023-cü il 17 iyun tarixli 198 nömrəli Qərarının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2023, № 6, maddə 860 (Cild I); Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2024-cü il 13 fevral tarixli 86 nömrəli Qərarı) 3-cü hissəsi ləğv edilsin.

9. "Qida təhlükəsizliyi sahəsində risklərin təhlili qaydası"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2023-cü il 8 iyul tarixli 225 nömrəli Qərarının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2023, № 7, maddə 1065 (Cild I) 2-ci hissəsi ləğv edilsin.

10. "Qida və yem məhsullarına sağlamlıq sertifikatlarının verilməsi Qaydası və forması"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2023-cü il 26 oktyabr tarixli 383 nömrəli Qərarının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2023, № 10, maddə 1463 (Cild I) 2-ci hissəsi ləğv edilsin.

11. "Azərbaycan Respublikasının gömrük ərazisinə qida və yem məhsullarının, habelə qida məhsulları ilə təmasda olan material və məmulatların idxalı qaydası, həmin məhsul, material və məmulatlar gömrük ərazisinə gətirilməzdən əvvəl göndərilən elektron bildirişin forması və təqdim edilmə müddətləri, qida və yem məhsullarının tranzit daşıması Qaydası"nın, "Azərbaycan Respublikasının gömrük ərazisinə idxal olunması üçün təhlükəsizliyini təsdiq edən müvafiq sənədlə müşayiət edilməli olan qida və yem məhsullarının Siyahısı"nın təsdiq edilməsi və "Yeyinti məhsullarına verilən qida təhlükəsizliyi sertifikatının forması və verilmə Qaydaları"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il 16 iyul tarixli 302 nömrəli Qərarının ləğv edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2023-cü il 7 dekabr tarixli 442 nömrəli Qərarının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2023, № 12 (II kitab), maddə 1777 (Cild I) 4-cü hissəsi ləğv edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# İŞİMİZ, GÜZƏRANIMIZ




# Azərbaycan qazının Avropaya yolu Türkiyədən keçir

## TANAP-ın təməlinin qoyulmasından 9 il ötür

**Möhtəşəm "Cənub qaz dəhlizi"nin fəaliyyətində TANAP-ın (Trans-Anadolu Qaz Boru Kəməri) özünəməxsus yeri var. Əvvəla ona görə ki, hazırda Azərbaycandan Türkiyəyə ixrac edilən qazın böyük hissəsini bu kəmər daşıyır. Avropanın ölkəmizdən aldığı mavi yanacaq da TAP-a (Trans-Adriatik Qaz Boru Kəməri) məhz TANAP-dan keçərək daxil olur.**

Azərbaycanın və Türkiyənin birgə layihəsi - TANAP Xəzərin sahilindəki Səngəçal terminalından başlayaraq Adriatik dənizinin sahilinə, İtaliya torpağınadək uzanan 3500 kilometrlik "Cənub qaz dəhlizi"nin ən böyük hissəsidir. Onu "Cənub qaz dəhlizi"nin birləşdirici halqası, bel sütunu da adlandırırlar. Bu səbəblərdən də 2015-ci il martın 17-də Türkiyənin Qars vilayətinin Selim rayonunda TANAP-ın təməlinin qoyulması tarixi bir hadisə idi. Bu, uzunmüddətli danışıqlardan konkret işlərə keçməyə imkan yaradırdı. Çünki kəmərin salnaməsi hələ bundan xeyli əvvəl başlanmışdı. Azərbaycan Prezidenti İlham Əliyev və Türkiyənin o vaxt Baş naziri, indi Prezidenti olan Rəcəb Tayyib Ərdoğan TANAP üzrə hökumətlərarası sazişi İstanbulda hələ 2012-ci ilin iyun ayında imzalamışdılar. Layihənin həyata keçirilməsi istiqamətində genişmiqyaslı işlərə də elə həmin vaxtdan start verilmişdi. 2014-cü ilin ortalarınadək layihələndirmə işləri, araşdırmalar tamamlanmışdı. Sonra mühəndis-layihələndirmə, təchizat-tədarük, tikinti-idarəçilik müqavilələri imzalanmış və kəmərin tikintisinin bütün incəlikləri nəzərdən keçirilmişdi. Beləliklə, 2014-2015-ci illər TANAP-ın ərsəyə gəlməsində çox məsuliyyətli bir dövr olmuşdu.

Prezident İlham Əliyevin dediyi kimi: "TANAP-a aparan yol 2012-ci ildə başlamışdır. Tarixi İstanbul sazişi nəticəsində TANAP-ın yaşıl işığı yandırıldı. Tarixi İstanbul anlaşması Türkiyə və Azərbaycanın birgə siyasi iradəsi nəticəsində mümkün olmuşdur. Çünki TANAP haqqında bu qərarın qəbul edilməsinə qədər Azərbaycan qazının Türkiyə və ondan sonra Avropaya nəql edilməsi ətrafında bir neçə il çox böyük mübahisələr və müzakirələr aparılmışdır, ancaq heç bir nəticə verməmişdir. Belə olan halda əziz qardaşım Rəcəb Tayyib Ərdoğanla birlikdə qərara gəldik ki, bizə lazım olan bu nəhəng layihəni özümüz həyata keçirək və belə də oldu".

Bu boru xəttinin təkcə region üçün deyil, bütün Avropa məkanı üçün də əhəmiyyəti böyükdür. "Cənub qaz dəhlizi"ni yaradan üç kəmərin ikincisi olması TANAP-ın dəyərini daha aydın əks etdirir. Belə ki, bu xətt Gürcüstan-Türkiyə sərhədində genişləndirilmiş CQBK (Cənubi Qafqaz Boru Kəməri) ilə birləşir, Türkiyə-Yunanıstan sərhədində isə TAP-a qovuşur.

Xatırladaq ki, enerjinin İpək yolu sayılan TANAP 2018-ci il iyunun 12-də Türkiyənin Əskişəhər şəhərində istifadəyə verilib. Qardaş ölkəyə ilk qaz həcmlərinin nəqli planlaşdırıldığı kimi, həmin il iyunun 30-da başlanıb.

TANAP Türkiyənin ərazisində 1850 kilometrlik məsafə qət edir, ölkənin 20 vilayətindən, 67 rayonundan və 600 kəndindən keçərək Avropanın qapısına çatır. Kəmərin Gürcüstan-Türkiyə sərhədindən başlayıb Əskişəhərdə bitən hissəsinin uzunluğu 1350 kilometr, oradan Türkiyə-Yunanıstan sərhədinədək olan hissəsi isə 480 kilometr təşkil edir. 2019-cu il iyulun 1-dən etibarən TANAP Azərbaycan qazını TAP-a ötürmək üçün hazır vəziyyətə gətirilib.

TANAP ilk mərhələdə ildə 16 milyard kubmetr Azərbaycan təbii qazını nəql etmək gücündə layihələndirilmişdi. Bunun 6 milyard kubmetri Türkiyədəki, 10 milyard kubmetri isə Avropa ölkələrindəki istehlakçılar üçün nəzərdə tutulmuşdu. Növbəti illərdə isə kəmərin nəqletmə qabiliyyətinin artırılacağı da istisna deyildi. Lakin zaman, yaranmış şərait, yəni Avropanın mavi yanacağa tələbatının kəskin şəkildə artması bunu daha tez və daha ciddi çağırışlarla gündəmə gətirib. Belə ki, Azərbaycandan qaz almaq istəyən ölkələrin sayı getdikcə artır. Bu isə mavi yanacağı Avropaya çatdıran TAP-ın genişləndirilməsini tələb edir. TAP-ın genişləndirilməsi isə TANAP genişləndirilmədən mümkün deyil. 2022-ci il iyulun 18-də Avropa Komissiyasının Prezidenti Ursula Fon der Lyayenin Bakıya səfəri də məhz Avropaya qaz ixracının gələcək perspektivlərinə xidmət edirdi. Həmin məqsədlə Azərbaycanla Avropa İttifaqı arasında energetika sahəsində strateji tərəfdaşlıq haqqında memorandum imzalandı. Məqsəd 2027-ci ilədək Azərbaycandan Avropaya qaz ixracını ikiqat artırmaqdır.

Bu gün Azərbaycan qazı Gürcüstan və Türkiyədən başqa, 6 Avropa ölkəsinə - Bolqarıstana, Yunanıstana, İtaliyaya, Rumıniyaya, Macarıstana və Serbiyaya ixrac olunur. Mavi yanacaq Avropaya Türkiyənin ərazisindən keçərək, TANAP-la nəql edilərək çatdırılır və bu vəzifə yüksək səviyyədə yerinə yetirilir.

Cari il martın 1-də "Cənub Qaz Dəhlizi" Məşvərət Şurasının Bakıda keçirilən 10-cu və "Yaşıl Enerji" Məşvərət Şurasının 2-ci iclaslarında Türkiyənin energetika və təbii ehtiyatlar nazirinin müavini Nevzat Şatıroğlu da məhz bunları qeyd edib: "Bu görüşdə belə yüksəksəviyyəli iştirak region ölkələrinin enerji təhlükəsizliyi və "yaşıl enerji" ilə daha təmiz gələcək istiqamətində əməkdaşlıq əzmini nümayiş etdirir. Mənbələri və marşrutları şaxələndirməklə biz enerji təchizatının uzunmüddətli təhlükəsizliyinə nail olmalıyıq. Bu nəhəng layihələri sıx əməkdaşlıq yolu ilə həyata keçirmək olar. Türkiyə Şərqlə Qərb arasında özünəməxsus yerləşməsi ilə regionda enerji layihələri üçün əsas vasitəçi kimi xidmət etməkdə davam edir".

*Flora SADIQLI,*
*"Azərbaycan"*

# Yanvar-fevral aylarında ÜDM istehsalı 5 faiz artıb

**Cari ilin yanvar-fevral aylarında ölkədə 18 milyard 576,9 milyon manatlıq və ya əvvəlki ilin eyni dövrü ilə müqayisədə 5 faiz çox ümumi daxili məhsul istehsal olunmuşdur.**

Dövlət Statistika Komitəsinin məlumatına görə, iqtisadiyyatın neft-qaz sektorunda əlavə dəyər 0,7 faiz azalmış, qeyri-neft-qaz sektorunda isə 10,1 faiz artmışdır.

ÜDM istehsalının 39,9 faizi sənaye, 9,9 faizi ticarət; nəqliyyat vasitələrinin təmiri, 7 faizi nəqliyyat və anbar təsərrüfatı, 5,5 faizi tikinti, 2,7 faizi kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq, 2,2 faizi turistlərin yerləşdirilməsi və ictimai iaşə, 1,7 faizi informasiya və rabitə sahələrinin, 19,8 faizi digər sahələrin payına düşmüş, məhsula və idxala xalis vergilər ÜDM-in 11,3 faizini təşkil etmişdir.

Əhalinin hər nəfərinə düşən ÜDM 1824,1 manata bərabər olmuşdur.

# Əsas kapitala 2,6 milyard manatdan çox investisiya qoyulub

**İlin əvvəlindən ötən iki ayda əsas kapitala 2 milyard 638,1 milyon manat məbləğində, yaxud əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 15,5 faiz çox investisiya yönəldilmişdir.**



Neft-qaz sektoruna yatırılmış investisiyaların həcmi 12,5 faiz, qeyri-neft-qaz sektoruna yönəldilən investisiyaların həcmi isə 17,1 faiz artmışdır. İstifadə olunmuş investisiyanın 1439,7 milyon manatı və ya 54,6 faizi məhsul istehsalı sahələrinə, 1064,7 milyon manatı (40,3 faizi) xidmət sahələrinə, 133,7 milyon manatı (5,1 faizi) isə yaşayış evlərinin tikintisinə sərf olunmuşdur. Əsas kapitala yönəldilmiş investisiyaların 2121,3 milyon manatını və ya 80,4 faizini daxili investisiyalar təşkil etmişdir. Əsas kapitala yönəldilmiş investisiyaların 1921,3 milyon manatı və ya 72,8 faizi bilavasitə tikinti-quraşdırma işlərinin yerinə yetirilməsinə sərf olunmuşdur.

# Ölkə üzrə iki ayda 10,2 milyard manatlıq sənaye məhsulları istehsal edilmişdir

**Bu ilin yanvar-fevral aylarında ölkə üzrə 10,2 milyard manatlıq sənaye məhsulları istehsal edilmişdir. 2023-cü ilin müvafiq dövrü ilə müqayisədə neft-qaz sektorunda məhsul istehsalı 0,9 faiz azalmış, qeyri-neft-qaz sektorunda isə 11,2 faiz artmışdır.**



Sənaye məhsullarının 63,9 faizi mədənçıxarma, 29,5 faizi emal, 5,7 faizi elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı, 0,9 faizi isə su təchizatı, tullantıların təmizlənməsi və emalı sektorlarında istehsal olunmuşdur. Dövlət Statistika Komitəsinin məlumatına əsasən, mədənçıxarma sektorunda əmtəəlik neft hasilatı 6,7 faiz azalmış, əmtəəlik qaz hasilatı isə 4 faiz artmışdır.

Emal sektorunda dəri və dəri məmulatlarının, ayaqqabıların istehsalı 2,2 dəfə, metallurgiya sənayesi məhsullarının istehsalı 75,9 faiz, əczaçılıq məhsullarının istehsalı 51 faiz, mebel istehsalı 37,9 faiz, geyim istehsalı 37,1 faiz, tikinti materiallarının istehsalı 35,1 faiz, maşın və avadanlıqların quraşdırılması və təmiri işləri 34 faiz, avtomobil, qoşqu və yarımqoşquların istehsalı 30,7 faiz, içkilərin istehsalı 28,9 faiz, rezin və plastik kütlə məmulatlarının istehsalı 28,4 faiz, elektrik avadanlıqlarının istehsalı 18,3 faiz, kompüter, elektron və optik məhsulların istehsalı 16,2 faiz, kimya sənayesi məhsullarının istehsalı 14,7 faiz, toxuculuq sənayesi məhsullarının istehsalı 6,7 faiz, neft məhsullarının istehsalı 6,6 faiz, qida məhsullarının istehsalı 3,9 faiz, kağız və karton istehsalı 1,8 faiz artmış, tütün məmulatlarının istehsalı 0,6 faiz, hazır metal məmulatlarının istehsalı 2,4 faiz, poliqrafiya məhsullarının istehsalı 4,2 faiz, maşın və avadanlıqların istehsalı 15,2 faiz, ağacın emalı və ağacdan məmulatların istehsalı 38,1 faiz, sair sənaye məhsullarının istehsalı 47,9 faiz, sair nəqliyyat vasitələrinin istehsalı 50,4 faiz azalmışdır.

Elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı sektorunda istehsalın həcmi 7,9 faiz azalmış, su təchizatı, tullantıların təmizlənməsi və emalı sektorunda isə 22,7 faiz artmışdır.

# "Ağlabatan uyğunlaşdırılma" adlı yeni sosial layihə təqdim olunub

**Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyində əlilliyi olan şəxslərin hüquqları və inklüzivliyinin təmin edilməsi ilə bağlı vətəndaş cəmiyyəti institutları üçün "Ağlabatan uyğunlaşdırılma" adlı yeni sosial layihə təqdim olunub.**

Nazirlik yanında İctimai şuranın sədri Elşad Məmmədov əlilliyi olan şəxslərin reabilitasiyasının, onların sosial müdafiəsi və cəmiyyətə inteqrasiyasının, bu sahədə xidmətlərin daha da təkmilləşdirilməsinin Azərbaycan hökumətinin prioritet fəaliyyət istiqamətlərindən olduğunu, ölkəmizdə bu sahədə davamlı işlərin həyata keçirildiyini qeyd edib.

Bildirilib ki, ağlabatan uyğunlaşdırılma əlilliyi olan şəxslər tərəfindən əsas insan hüquqlarının və azadlıqlarının digərləri ilə bərabər səviyyədə həyata keçirilməsinin təmin olunması məqsədilə hər bir konkret halda zəruri və mümkün uyğunlaşma və düzəlişlər edilməsi deməkdir. Bunun üçün vebsaytlar, infrastruktur, iş mühiti, bankomatlar, ictimai nəqliyyat əlilliyi olan şəxslərin xüsusiyyətlərinə uyğunlaşdırılır.

Yeni layihə də əlilliyi olan şəxslərin emas.sosial.gov.az saytı üzərindən bu və ya digər müəssisədə yaradılmış müyəssər şəraitdən istifadə imkanlarına yiyələnmələrinə xidmət edir. Tədbirdə layihənin əhəmiyyəti, ondan istifadə prosedurlarına dair fikir mübadiləsi aparılıb.

# Sosial güvənli vətəndaş dövlətin dayağıdır

**Əhalinin sosial müdafiəsinin gücləndirilməsi hər zaman Azərbaycan dövləti üçün prioritet sahə olub. Prezident İlham Əliyev də dəfələrlə bəyan etmişdir ki, onun apardığı siyasət ilk növbədə Azərbaycan vətəndaşının sosial güvənliyinin təminatına xidmət edir.**

Ölkədə əhalinin rifahının ildən-ilə yaxşılaşması dövlət başçısının məhz bəyan etdiyi bu siyasət nəticəsində mümkün olmuşdur. Pensiyalar, ünvanlı sosial yardımlar, müxtəlif təyinatlı təqaüdlər, əməkhaqları demək olar, hər il artırılır. Bununla vətəndaş dünyada baş verən və ölkəmizə də təsir göstərən inflyasiyanın mənfi təsirindən maksimum qorunmuş olur. Digər tərəfdən xüsusən regionlarda yeni iş yerləri yaradılır ki, vətəndaş sosial müdafiəsini özü təmin edə bilsin. Rəqəmlərə müraciət edək: ölkədə həyata keçirilən sosial islahatlar sayəsində yoxsulluğun səviyyəsi 5 faizə düşüb. Bu gün ölkədə minimum pensiya 280, orta aylıq pensiya 500, orta aylıq maaş 1000 manat civarındadır.

Sığorta-pensiya sistemi ilə yanaşı, ölkədə əhalinin, xüsusilə aztəminatlı və sosial cəhətdən həssas kateqoriyadan olan insanların rifah halının yaxşılaşdırılması istiqamətində görülən işlər də nəticəsiz qalmamışdır. Məsələn, ötən ilin dekabr ayında Dövlət Sosial Müdafiə Fondu tərəfindən 442 min nəfərə (ölkə əhalisinin 4,4 faizinə) aylıq, 67,3 min nəfərə (ölkə əhalisinin 0,66 faizinə) birdəfəlik xarakterli olmaqla, ümumilikdə 509,3 min nəfərə (ölkə əhalisinin 5 faizinə) sosial müavinət ödənilmişdir.

Dövlətin apardığı sosial siyasət çoxşaxəli olmaqla yanaşı, cəmiyyətin bütün sahələrinə nüfuz etməsi ilə seçilir. Sözsüz ki, belə imkanlar qanunvericilik bazasının daha da humanistləşdirilməsi ilə mümkündür. Məsələn, qanunvericilik bazasını təkmilləşdirməklə himayədar ailəyə verilmiş, o cümlədən 18 yaşınadək əlilliyi müəyyən edilmiş uşağın tərbiyə edilməsinə görə aylıq və himayədar ailəyə verilmiş uşaqlara mövsümi geyim alınması üçün birdəfəlik sosial müavinət növləri təsis olunmuşdur.

Əhalinin sosial müdafiəsinin təmin edilməsində bir üsul da ünvanlı dövlət sosial yardım formasıdır. Keçən ilin dekabr ayında 64 min aztəminatlı ailənin 272,3 min üzvünə belə yardım verilmişdir. Bir ailəyə düşən sosial yardımın orta aylıq məbləği 487,1 manat olmuşdur ki, bu da 2022-ci illə müqayisədə 24,2 faiz çoxdur.

Azərbaycanda həssas kateqoriyadan olan bütün vətəndaşların sosial qayğılarına diqqətlə yanaşılır. Sosial müdafiə ilə bağlı formalaşan qanunvericilik bazası ölkədə yaşayan hər bir şəxsin hüququnu qoruyur. Ancaq həssas kateqoriyanın içində daha həssas bir kateqoriya da var. Bu, şəhid ailələri və müharibə əlilləridir ki, cəmiyyətdə də onlara böyük diqqət göstərilir. O səbəbdən postmüharibə dövründə zərər dəymiş şəxslərə dəymiş zərərin bərpası və onların cəmiyyətə inteqrasiyası istiqamətində sosial dəstək tədbirləri ilə əhatə edilməsi üçün Vətən müharibəsi şəhidlərinin, həmçinin itkin düşmüş hərbçilərin ailələri, müharibədə yaralanmış hərbçilər, erməni terrorundan zərər çəkmiş vətəndaşlar, eləcə də müharibə iştirakçıları əsas hədəf qrupları kimi müəyyən edilmişdir. Ötən il Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin fəaliyyətində bu kateqoriyadan olan insanlara dəstək proqramlarının sayı artırılmış, qanunla müəyyən olunmuş bütün hüquqlardan istifadə edilməsinə imkan yaradılmışdır.

Ötən il müharibə əlilliyi olan 4039 şəxsə 8078 sosial ödəniş təyin edilmişdir. Bununla yanaşı, 1418 şəhid ailəsi üzvü, müharibədə xəsarət alan 660 və müharibə iştirakçısı olan 2299 nəfər, ümumilikdə 4377 nəfər haqqı ödənilən ictimai işlərə cəlb olunmuşdur. Ümumiyyətlə, bu kateqoriyadan olan insanların bütün sosial qayğıları dövlət tərəfindən qarşılanır. Məsələn, keçən il müharibə əlillərinə 474 avtomobil verilmiş, 460 hərbçi 481 yüksək texnologiyalı müasir protezlə təmin olunmuşdur. Məqsəd bu kateqoriyadan olan insanların hərəkət imkanını artırmaqla onların cəmiyyətə inteqrasiyasını tezləşdirməkdir.

Vətən qarşısında xidmətləri olan vətəndaşlarımızın dövlətin verdiyi imkanlardan yararlanmağını asanlaşdırmaq üçün vahid əlaqələndirmə mərkəzləri yaradılmışdır. 2023-cü ildə bu qurum tərəfindən şəhid ailəsi üzvlərinə, müharibə ilə əlaqədar xəsarət almış hərbi qulluqçulara və əlilliyi müəyyən edilmiş şəxslərə müxtəlif xidmətlər göstərilmişdir. Bunun üstünlüyü ondan ibarətdir ki, həssas kateqoriyadan olan insanlara "bir pəncərə" prinsipi ilə 5 mərkəzi, 71 yerli icra hakimiyyəti orqanı tərəfindən 26 növ xidmət göstərilir.

Hər il yeni dövlət büdcəsi qəbul edilərkən sosial sahəyə ayrılan vəsaitin artdığının şahidi oluruq. Sözsüz ki, bu, dövlətin əhalinin sosial rifahına diqqətlə yanaşmasının göstəricisidir. Məlumat üçün bildirək ki, 2003-cü ildən 2022-ci ilə qədər dövlət büdcəsindən illik sosial müdafiə və sosial təminat xərclərinə ayrılan vəsait 20 dəfədən çox artmışdır. Bu dövrdə minimum pensiya 14 dəfə artaraq 180, orta aylıq pensiya 18,2 dəfə artaraq 436, yaşa görə orta aylıq pensiya 19 dəfə artaraq 467, əlilliyə görə artan aylıq pensiya 14 dəfə artaraq 367, ailə başçısını itirdiyinə görə orta aylıq pensiya 19 dəfə artaraq 411 manata çatmışdır.

*Rüstəm KAMAL,*
*"Azərbaycan"*

# İqtisadiyyatda işləyənlərin sayı və əməkhaqqı barədə

**Dövlət Statistika Komitəsi bildirir ki, 2024-cü il fevralın 1-i vəziyyətinə ölkə iqtisadiyyatında muzdla çalışan işçilərin sayı 1 milyon 725,1 min nəfər olmuşdur.**

Onlardan 901,7 min nəfəri iqtisadiyyatın dövlət, 823,4 min nəfəri isə qeyri-dövlət sektorlarında fəaliyyət göstərmişdir.

Muzdla işləyənlərin 19,2 faizi təhsil, 18,6 faizi ticarət; nəqliyyat vasitələrinin təmiri, 12,9 faizi sənaye, 8,5 faizi əhaliyə səhiyyə və sosial xidmətlərin göstərilməsi, 6,5 faizi dövlət idarəetməsi və müdafiə; sosial təminat, 6,3 faizi tikinti, 4,2 faizi nəqliyyat və anbar təsərrüfatı, 3,7 faizi peşə, elmi və texniki fəaliyyət, 3,3 faizi kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq, 2,2 faizi maliyyə və sığorta fəaliyyəti, 14,6 faizi isə iqtisadiyyatın digər sahələrində məşğul olmuşlar.

2024-cü ilin yanvar ayında ölkə iqtisadiyyatında muzdla çalışan işçilərin orta aylıq nominal əməkhaqqı əvvəlki ilin müvafiq dövrünə nisbətən 10,1 faiz artaraq 942,4 manat olmuşdur. İqtisadiyyatın mədənçıxarma sənayesi, maliyyə və sığorta fəaliyyəti, informasiya və rabitə, peşə, elmi və texniki fəaliyyət, eləcə də nəqliyyat və anbar təsərrüfatı sahələrində orta aylıq nominal əməkhaqqı daha yüksək olmuşdur.

# "Azeri Light" ucuzlaşıb

**"Azeri Light" markalı neftin bir barelinin qiyməti 0,65 dollar və ya 0,74 faiz azalaraq 87,74 dollar olub.**

AZƏRTAC xəbər verir ki, "Azeri Light" neftinin ən aşağı qiyməti 2020-ci il aprelin 21-də (15,81 ABŞ dolları), maksimal qiyməti isə 2008-ci ilin iyulunda (149,66 ABŞ dolları) qeydə alınıb.






# İqlim dəyişikliyi ilə mübarizədə Azərbaycan modeli

## COP29-da dünya bunun şahidi olacaq

BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının (COP29) Bakıda keçirilməsinin qərara alınması Azərbaycanın beynəlxalq təşkilatlarda fəal iştirakından və dünyada artan nüfuzundan xəbər verir. Bu qərar həm də beynəlxalq ictimaiyyətin ölkəmizin ekoloji sahədə həyata keçirdiyi tədbirlərə verdiyi ən böyük dəstək və qiymətdir.

Prezident İlham Əliyev COP29-la bağlı keçirdiyi ilk müşavirədə demişdir: "Biz buna layiqik, biz apardığımız siyasət nəticəsində dünya miqyasında çox güclü mövqelərə sahib olmuşuq. Azərbaycana beynəlxalq aləmdə olan hörmət günbəgün artır və biz bu hörməti öz əməlimizlə, işimizlə, siyasətimizlə qazanmışıq. Bizim müstəqil siyasətimiz, prinsipial mövqeyimiz, beynəlxalq hüquqa bağlılığımız, sədaqətimiz və eyni zamanda ölkə ərazisində suverenliyin bərpa edilməsi bizə olan hörməti daha da artırdı".

Azərbaycanın indiyə kimi beynəlxalq tədbirlərə evsahibliyi etməkdə böyük təcrübəsi var. Daha əvvəl evsahibliyi etdiyimiz Beynəlxalq Astronavtika Konqresi, Qoşulmama Hərəkatının iclası, humanitar forumlar, I Avropa Oyunları, IV İslam Həmrəyliyi Oyunları və digər tədbirlərdə ölkəmiz yüksək standartlar tətbiq edib. Başqa sözlə desək, öz modelini yaradıb. Heç şübhəsiz ki, COP29-da da belə olacaq - dünya iqlim dəyişikliyi ilə mübarizədə Azərbaycan modelinə şahidlik edəcək. Təxminən 8 ay sonra işə başlayacaq sessiya iqlim dəyişikliyi ilə bağlı yeni yanaşmaların yaranmasına və tərəflər arasında əməkdaşlığa imkan verəcək. Əksər dünya ölkələrinin dövlət və hökumət başçılarının, rəsmilərinin, tanınmış şəxslərinin iştirakı gözlənilən COP-un Bakı sessiyasında ekoloji çağırışların həll yolları, inkişaf tendensiyaları əsas müzakirə mövzularından olacaq.

Bu gün temperaturun qlobal səviyyədə artması səbəbindən hava şəraiti dəyişib, tez-tez təbii fəlakətlər baş verir. Meşə yanğınları, sel, tufan, torpaq sürüşmələri, quraqlıq kimi hadisələr çoxalıb. Sürətlə dəyişən iqlim insanlar üçün sağlamlıq problemləri də yaradıb. O səbəbdən dünyanın başı üzərini alan iqlim dəyişikliyi adlı bir kabusun fəsadlarını aradan qaldırmağın yolları hər gün axtarılır. COP-a bənzər beynəlxalq tədbirlərin keçirilməsi üzərində də iş gedir.

BMT-nin dəstəyi ilə qarşıdakı yaxın illər Qazaxıstanda bu məqsədlə iki böyük iqlim sammiti keçirilməsi qərara alınıb. Qazaxıstan Respublikasının Prezidenti Kasım-Jomart Tokayev bu barədə ölkəmizə səfər ərəfəsi "Azərbaycan" qəzetinə və APA-ya verdiyi müsahibəsində deyib: "Hazırda üzləşdiyimiz bütün çətinliklərdən bəlkə də ən əhəmiyyətlisi iqlim dəyişikliyidir. Mərkəzi Asiya bu problemlə mübarizədə ön sıralarda yer alır. Hətta 2050-ci ilə qədər qlobal istiləşməni 1,5 dərəcə ilə




məhdudlaşdırmaq hədəfinə çatsaq belə, hansı ki, getdikcə daha çətin görünür, biz Mərkəzi Asiyada 2-2,5 dərəcə temperatur artımı ilə üzləşəcəyik. Biz su ehtiyatlarının tükənməsi prosesindən narahatıq. Mərkəzi Asiyada quraqlıq və daşqınlar geniş miqyasda ziyan vuracaq və kənd təsərrüfatı sahəsinin məhsuldarlığı 30 faiz azalacaq. İqlim dəyişikliyinin yaratdığı risklərin nəticəsində 2050-ci ilə qədər təxminən 5 milyon daxili miqrant olacaq. Bu amillər birbaşa və ya dolayısı yolla dövlətlərimizin davamlı inkişafına ciddi təhlükə yaradır". Qazaxıstan 2026-cı ildə BMT çərçivəsində Mərkəzi Asiya Regional İqlim Sammitinin keçirilməsi təşəbbüsü ilə çıxış edib. Kasım-Jomart Tokayev müsahibəsində Azərbaycanı bu tədbirdə əsas qonaq qismində görməkdən şad olacağını bildirmişdir: "İnanıram ki, bu təşəbbüs səmərəli iqlim siyasətinin irəliləməsinə kömək edəcək və Mərkəzi Asiya ölkələrində davamlı enerjiyə keçidi sürətləndirən investisiyaların cəlb edilməsini asanlaşdıracaq. Sammit regionda karbon tullantılarının azaldılması üçün birgə strategiyaların qəbuluna imkan verəcək. Ölkəmiz MDB məkanında ilk ölkələrdən biri kimi iri enerji, neft-qaz, sənaye, kimya və dağ-mədən sənayesi müəssisələrini özündə birləşdirən istixana qazı emissiyaları üçün limit və ticarət sistemini işə salıb. Biz Azərbaycanın MDB məkanındakı türk dövlətləri arasında COP29 kimi irimiqyaslı tədbirə evsahibliyi etmək hüququ qazanan ilk dövlət olmasını alqışlayırıq. Bu baxımdan bizim qlobal miqyasda iri ekoloji tədbirlərin keçirilməsində Azərbaycanın təcrübəsini öyrənmək üçün gözəl imkanımız var və lazımi yardımı göstərməyə hazırıq".

Dost ölkə Prezidentinin fikirlərini belə inamla söyləməsinin kökündə Azərbaycanın üzərinə düşən vəzifəni layiqincə yerinə yetirəcəyinə və COP29-u ən yüksək səviyyədə keçirəcəyinə şübhə etməməsi dayanır. Cənab Tokayev haqlıdır. Çünki hazırlıq işlərinin layiqincə həyata keçirilməsi üçün komanda formalaşdırılıb, bütün qurumlar səfərbər olunub.

Təəssüf hissi ilə qeyd etməliyik ki, hər il COP kimi konfrans keçirilsə də, dünyanın hegemon dövlətləri bəşəriyyəti təhdid edən ekoloji problemlərin aradan qaldırılmasına bir çox halda biganə yanaşırlar. Beləleri qlobal problemdən ağızdolusu danışsalar da, hətta götürdükləri öhdəliklərə əməl etmirlər. Ölkəmiz isə hər zaman olduğu kimi, bu işdə də öz missiyasını ləyaqətlə yerinə yetirir, COP29-un Azərbaycanda keçirilməsinə qərar verilməsinin də əsas səbəbi budur.

*Züleyxa ƏLİYEVA,*
*"Azərbaycan"*

# "COP29-a hazırlıq çərçivəsində Azərbaycanla sıx əməkdaşlıq edirik"



Misirin ətraf mühit naziri xanım Yasmin Fuad bildirib ki, 2022-ci ilin sonunda Şarm Əl-Şeyxdə keçirilən COP-27 konfransı qlobal iqlim dəyişikliyi ilə mübarizə baxımından əla təcrübə olub və Dubaydakı COP28-in təşkilatçıları tərəfindən davam etdirilib.

Onun sözlərinə görə, COP29 iqlim konfransına evsahibliyi edəcək Azərbaycanın uyğun strukturları ilə də bu istiqamətdə sıx əməkdaşlıq mövcuddur. "Biz iqlim konfransına hazırlıq müddətində azərbaycanlı həmkarlarımız ilə təcrübə mübadiləsini davam etdirəcəyik", - deyə nazir vurğulayıb. AZƏRTAC Misir mediasına istinadla xəbər verir ki, Yasmin Fuad yerli mətbuata verdiyi açıqlamada son beş il ərzində iqlim sahəsində beynəlxalq əməkdaşlığın bir çox nailiyyətlərlə müşahidə olunduğunu bildirib. O qeyd edib ki, bu baxımdan BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının sessiyaları xüsusi əhəmiyyətə malikdir. Nazir əlavə edib ki, Şarm Əl-Şeyx və Dubaydan sonra Bakıda aparılacaq müzakirələr bu qlobal problemin həllində yeni mərhələnin davamı olacaq.

Misirli nazir bildirib ki, Azərbaycanda keçiriləcək COP29 konfransında Misirin böyük əhəmiyyət verdiyi Qırmızı dəniz və Ədən Körfəzinin Mühafizəsi Təşkilatının ətraf mühitin mühafizəsi üzrə tədqiqatları ətrafında da müzakirələr aparılacaq. "Hazırda regional və qlobal səviyyədə ətraf mühitin mühafizəsi işini dəstəkləmək üçün ortaq məsuliyyət konsepsiyalarına nail olmaq istiqamətində bir çox beynəlxalq forumların işində iştirak etməklə yanaşı, ölkəmiz Barselona 2025 Sazişinə sədrlik etmək üçün də hazırlıqlar aparır. Qırmızı dənizin ən mühüm flora nümunələri hesab edilən məşhur manqrov ağaclarının qorunması məsələsi də gündəlikdə olacaq", - deyə Yasmin Fuad qeyd edib.

# COP29-un işıqlandırılmasında iştirak edəcək jurnalistlər üçün ilk təlim keçirilib

Martın 13-də Medianın İnkişafı Agentliyinin və ADA Universiteti İnkişaf və Diplomatiya İnstitutunun birgə təşkilatçılığı ilə BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının (COP29) işıqlandırılmasında fəal iştirak edəcək ingilisdilli jurnalistlər üçün silsilə təlimlər çərçivəsində "Dayanıqlı inkişaf və iqlim dəyişikliyi media perspektivində" mövzusunda ilk təlim keçirilib.

AZƏRTAC xəbər verir ki, təlimin açılış mərasimində çıxış edən Medianın İnkişafı Agentliyinin icraçı direktoru Əhməd İsmayılov ekoloji məsələlərin ümumbəşəri əhəmiyyət kəsb etdiyini vurğulayaraq bu istiqamətdə peşəkar medianın üzərinə ciddi məsuliyyət düşdüyünü bildirib, medianın, ilk növbədə, ekoloji maarifləndirməyə böyük diqqət göstərməli olduğunu, həmçinin insanların ekoloji biliklərə yiyələnməsinin təşviqində oynadığı müstəsna rolu qeyd edib. İcraçı direktor, həmçinin diqqətə çatdırıb ki, Azərbaycan mediası COP29-un yaratdığı imkanlardan faydalanaraq bu istiqamətdə işini səmərəli mexanizmlər əsasında qurmalı, öz subyektiv mülahizələrini əsas götürərək ölkəmizin imicini ləkələmək istəyənlərə tutarlı arqumentlərlə cavab verməlidir.

İnkişaf və Diplomatiya İnstitutunun İxtisasartırma Proqramlarının rəhbəri Nərgiz İsmayılova qeyd edib ki, mötəbər tədbirin Azərbaycanda keçirilməsi ölkə reallıqlarının dünya ictimaiyyətinə səmərəli şəkildə çatdırılmasına böyük imkanlar yaradacaq, davamlı təşkil olunacaq belə təlimlər jurnalistlərimizin COP29-la bağlı biliklərini daha da artıracaq.

Azərbaycan energetika nazirinin müavini, COP29 Azərbaycan üzrə baş icraçı direktor Elnur Soltanov ətraf mühitin qorunmasında, ekoloji problemlərin həlli üçün birlikdə mühüm addımların atılmasında və Azərbaycanda iqlim dəyişikliyinin əhəmiyyəti barədə məlumatlılığın artırılmasında media nümayəndələrinin böyük rolunun olduğunu söyləyib.

İngilis dilində keçirilən təlimdə bərpaolunan enerji, iqlim dəyişikliyi məsələləri və dayanıqlılıq üzrə ixtisaslaşmış kommunikasiya mütəxəssisi Nik Mediç "İqlim dəyişikliyinin elmi əsasları", "Bərpaolunan enerji: texnologiya və inkişaf" mövzusunda məruzələrlə çıxış edib. ADA Universitetinin İnkişaf və Diplomatiya İnstitutunun Enerji və Dayanıqlı İnkişaf Proqramının baş elmi işçisi, təlimçi Əhməd Hümbətov isə "Mədən yanacaqları: onlar ətraf mühitə nə qədər mənfi təsir göstərir və biz həqiqətən onlarsız keçinə bilərikmi?", "İqlim dəyişikliyinin iqtisadi və siyasi aspektləri" mövzularında media nümayəndələri ilə geniş müzakirələr aparıb.

Sonda təlimçilər jurnalistlərin iqlim dəyişikliyi ilə bağlı suallarını cavablandırıblar.

# Dünyamızı qorumasaq...

## Təbiət bizi bağışlamayacaq

Biz təbiətə "ana" deyirik və bu, təsadüfi deyil. Təbiət öz qoynunda bizi bəsləyib böyüdür, su, od (Günəş), yel və torpağı bəxş etməklə canlılara həyat verir. Canlıların isə ən alisi insandır.

O insan ki, təbiətə bəzən qənim kəsilir. Bu gün təbiətdə ekoloji tarazlığın pozulmasının səbəbi də budur. Elə iqlim dəyişmələri də insanın təbiətə yersiz və aşırı müdaxiləsi üzündən baş verir. Qlobal istiləşmələr nəticəsində min illərin buzlaqları əriyir, dünyanın bir tərəfini sel suları çənginə alır, o biri tərəfində meşə yanğınları tüğyan edir, planetin "ağ ciyər"i hesab edilən meşələr kül olur, quraqlıq nəticəsində su qıtlığı təhlükəli həddə çatır və s. Təbiətdə baş verən bu və ya digər hallar həyəcan təbili çalmağın vaxtının çatdığından xəbər vermirmi?!

Azərbaycanda dünyamız üçün təhlükəli olan ekoloji fəlakətlərin qarşısının alınması, bu, mümkün olmayanda isə təsirinin azaldılması üçün ardıcıl tədbirlər görülür. Ölkəmizin dünyada ekoloji tarazlığın pozulması, ətraf mühitin mühafizəsi ilə bağlı noyabr ayında COP29-a evsahibliyi edəcəyi bu mənada təsadüfi deyildir. Qlobal beynəlxalq tədbirlərə evsahibliyi etməkdə böyük təcrübəsi olan Azərbaycanın bu tədbiri də layiqincə həyata keçirəcəyi heç kimdə şübhə doğurmur.

Elimizə bahar gəlir. Çöllər-düzlər, bağlar-bağatlar yavaş-yavaş yaşıl rəngə, gül-çiçəyə bürünür. Amma təbiət hər fəsildə gözəldir. Onda heç nə artıq deyil, hamısının yeri var. Təbiət insan ömrünü də sanki özünə oxşadıb, dörd "fəsil"ə bölüb - uşaqlıq, gənclik, ahıllıq və qocalıq. Deməli, insanı yaradan ulu Tanrı, yaşadansa təbiətdir.



Görəsən, ürəyində də olsa, təbiətin gözəlliyini vəsf etməyən varmı?! Təbii ki, yoxdur. Lakin heç kim təbiətin yaratdığını tam əks etdirə bilmir. Elə ona görə də biz təbiətin yaratdıqlarına təkrarsız gözəllik kimi baxırıq. Adi qanqal çiçəyinin rəng çalarlarını çəkməyə, olduğu kimi əks etdirməyə nə rəssam fırçasının, nə də şair sözünün qüdrəti çatır. Bir müdrik baharda qurbağaların səsini təbiətin simfoniyası adlandırıb. Təbiət öz sərvətlərini bizə bəxş etməklə yanaşı, ruhumuza, hiss və duyğularımıza qida verir. Onun qoynuna fəsillər boyu hər gün gah qaranlıq çökür, gah nur ələnir. Gecələr gələndə gündüzlər utancaq sevgililər kimi gizlənir. Təbiəti sevən adamlar mənən zəngin, həssas olur, Vətəni sonsuz məhəbbətlə sevir, dostluqda, yoldaşlıqda etibarlı, sədaqətli adamlar kimi seçilirlər. Xüsusən təbiətin qoynunda kəsilən çörək heç vaxt unudulmur.

Amma təbiət təkcə Yer ilə məhdudlaşmır. Günəş göy cisimlərinin tacı, bizim üçün isə həyat mənbəyidir. Çox yox, bir neçə saniyəliyə sönərsə, həyat məhv olar. Neçə illər öncə yazdığım şeirin sətirləri yadıma düşür:

*De, nədən alışıb, nədən yanırsan?!*
*De, nədən bu qədər alovlanırsan?!*
*Yoxsa, yanmağınla bizi anırsan?!*
*Min sual doğulur fikrimdə mənim,*
*Günəş, varlığına heyranam sənin.*

*Eşqin tükənməzdir ürəyimizdə.*
*Sənə möhtac yaşar çay da, dəniz də.*
*Başına dolanır Yer kürəmiz də.*
*Əzəldən olmusan hər şeyə zəmin,*
*Günəş, varlığına heyranam sənin.*

Yer və Göy Allahın bizə əmanətidir. Biz bu əmanətin qədrini bilməli, onu nəsildən-nəslə ötürməliyik. Amma bunu edirikmi? Adi bir cümlədə sözün birinin yeri dəyişəndə görürsən ki, başqa məna alınır. Təbiətin nizamı pozulanda isə nələrin baş verdiyini çoxları görmək istəmir. Özü də təkcə yeri çirkləndirməklə kifayətlənmirik, göylərin də nizamını pozuruq. Nəticədə məlum təbii fəlakətlər baş verir, hamısı da bir-birindən dəhşətli. Götürək öz ölkəmizi. 15-20 il öncə məcrasına sığmayan, yaz aylarında sahilboyu yerləşən şəhər, kənd və qəsəbələri, bağ-bağatları, əkin sahələrini suları altında qoyan Kür çayına elə bil göz dəyib. Çayda suyun səviyyəsi o qədər azalıb ki, kənd adamları, fermerlər əkin sahələrini vaxtında suvara bilmirlər.

*Bu necə görkəmdi, bu necə haldı?*
*Salmısan hər yana ahı, harayı.*
*Nisgilin qəlbimə dərin iz saldı,*
*Quruma, amandı, sən ey Kür çayı.*

*Gəlir göz önünə yaxın keçmişin,*
*Kükrəyə-kükrəyə axıb keçirdin.*
*Vurulan bəndləri gur sularınla*
*Dağıdıb, uçurub, yıxıb keçirdin.*

Lakin biz təbiətin şıltaqlığı qarşısında acizlik də göstərmirik. Əhalinin içməli su ilə təchizatını yaxşılaşdırmaq üçün dövlət səviyyəsində tədbirlər görülür. Salyanın Xıdırlı kəndi ərazisində quraşdırılmış xüsusi qurğuların köməyi ilə Xəzər dənizindən götürülən su duzdan təmizlənərək Ələt-Astara magistral avtomobil yolunun kənarında əkilən ağacların sulanması üçün istifadə edilir. Üstəlik, lazım olan yerlərdə artezian quyuları qazılır.

Torpaq bizim varlığımızın məskənidir. İnsan dünyasını dəyişəndə onu torpağa tapşırırıq. Vaxt çatanda hər birimizi torpaq öz qoynuna alır. Bununla belə, torpağa qarşı ədalətsizliklər, insafsızlıqlar etdiyimizi də boynumuza almalıyıq. Bir tərəfdən onun uğrunda mübarizə aparıb qan tökürüksə, digər tərəfdən başına olmazın oyunlar açırıq. Bu baxımdan hər bir ölkədə olduğu kimi, Azərbaycanda da müəyyən ekoloji problemlər var və müvafiq qurumlar onların həlli istiqamətində tədbirlər görür. Bu gün belə tədbirlər daha çox Ermənistanın viran qoyduğu Qarabağda və Şərqi Zəngəzurda həyata keçirilir. Təsadüfi deyil ki, Prezident həmin əraziləri "yaşıl zona" elan etmişdir.

SSRİ-nin keçmiş rəhbəri L.İ.Brejnev çıxışlarından birində belə bir fikir söyləmişdi: "Əgər hər hansı yad planetdən Yer kürəsinə hücum olarsa, biz - Yer kürəsinin ölkələri, xalqları birləşərək onları məhv edərik". İndiyə kimi yad planetlərin heç birindən dünyamıza hücum olmayıb, bəlkə heç vaxt da olmayacaq. Ancaq hələ də elə dövlətlər var ki, dünyanı yenidən bölüşdürmək, daha çox əraziyə sahib olmaq istəyirlər. Ermənistan da 35 il əvvəl belə bir xülyaya düşmüşdü. Sonu məlumdur. Amma nə olsun, dərs götürürlərmi? Bu gün bəşəriyyət üçüncü dünya müharibəsinin astanasındadır. Ən böyük ekoloji fəlakətləri isə müharibələr gətirir. Odsaçan silahlar, top mərmiləri, bombalar, raketlər... Meşələr külə dönür, torpaq yanır, göylər də od içində olur. Vallah, Yer kürəsi orbitindən çıxmırsa, qoçaqdır. Ekologiyanı insan üçün qorumaq amacında olan dünyanın başbilənləri onu-bunu silahlandırmaqdansa, bəlkə bu məsələni çözsünlər?!

*Seyran CAVADOV,*
*"Azərbaycan"*




● Klassik irsimizdən

# Nizami poemalarında dörd yaradılış ünsürü

**Dahi Azərbaycan şairi və mütəfəkkiri Nizami Gəncəvi intibah ədəbiyyatının möhtəşəm xəzinəsini yaratmaqla Şərq poeziyasını həm forma, həm də məzmunca zənginləşdirmiş, ədəbiyyata ümumbəşəri ideyalar gətirmiş, dünya ədəbiyyatı tarixində yeni bir yaradıcılıq mərhələsinin əsasını qoymuşdur. Azərbaycan ədəbiyyatı tarixində XII yüzillik mədəni intibah dövrü sayılmış və Nizami bu dövrdə yazıb-yaratmışdır.**



Azərbaycan ədəbiyyatına böyük töhfələr bəxş edən Nizami Gəncəvi öz yaradıcılığında xalq ədəbiyyatına müraciət etmiş, folklorumuzun tükənməz xəzinəsindən bəhrələnmişdir. Bu dahi sənətkarın "Xəmsə"sində yüzlərlə əfsanələrə, əsatirlərə təsadüf edilir. Bunlardan bəzilərini o özü yaratmış, bəzilərini yazılı məxəzlərdən, şifahi ədəbiyyatdan istifadə edərək yenidən işləmiş, təkmilləşdirmişdir. Nizami yaradıcılığında əfsanə və rəvayətlər, milli adət-ənənələr, xalq deyimləri, atalar sözü və məsəllər, folklor süjet və motivləri ilə yanaşı, həm də mərasimlər, Novruz bayramı ilə bağlı, o cümlədən Novruz çərşənbələrinin rəmzi olan dörd ünsürlə əlaqədar görüşləri diqqəti cəlb edir. Nizami irsini öyrənən alimlər belə qənaətə gəlmişlər ki, "Nizami maddə ilə məkanın ayrılmaz məfhum olduğunu qəbul edən, obyektiv gerçəkliyin əsasını təşkil edən dörd ünsür haqqında öz əsərlərində qeyd edir və göstərir ki, bunları Allah yaratmışdır". Beləliklə də, Nizami Gəncəvi Aristotelin "dünyanın dörd ünsürdən yaranması" nəzəriyyəsini qəbul etmişdir. Həmin nəzəriyyəyə görə, "dörd ünsürün hər birinin öz mərkəzi var və onlar bu mərkəzə doğru meyil edir". Hava və od hər zaman yuxarıya doğru qalxır, su ilə torpaq isə aşağıda yerləşir.

"Leyli və Məcnun" poemasında "Allahın peyğəmbərinin meracı haqqında" hissəsində şair dörd yaranış ünsürü ilə bağlı fikirlərini ifadə edir. "Şahzadənin tərifi və oğlumu ona tapşırmaq" fəslində isə dörd ünsür belə vəsf olunur:

*Yeddi ölkədən xərac alana*
*Dörd gövhərin düyününü açan*
*Böyüklərin gözünün nuru,*
*Tacidarlar namazının mehrabı...*

Nizamiyə görə, Yaranışın başlanğıcı dörd müqəddəs ünsür üzərində qurulmuşdur. Su, od, yel və torpaq bir-birilə vəhdət təşkil edir, biri digərini tamamlayır. Tədqiqatçı alim Ramazan Qafarlı haqlı olaraq bu ünsürlər arasında mövcud olan əlaqə və münasibətlərin qurulması barədə bildirir ki, "Su, od, torpaq və havanın vəhdəti ilə zamanın çıxışı, məkanın isə ilk dayanacağı müəyyənləşir. Vahiddən zərrələr ayrılır, varlıqlara çevrilir, hər şey ikiüzlü formalaşır, rəqəmlərin ardıcıllığı fəaliyyətin və inkişafın mərhələlərini təyin edir". "Leyli və Məcnun " əsərində göstərilir:

*Əlindəki şey istər arpa, istər qara pul olsun,*
*Onda dörd gövhərdən (torpaq, od, su, hava) hər şey var...*

Nizami "İskəndərnamə"nin "Şərəfnamə" hissəsində isə yazır:

*Sən göyləri qurub ucaltdın,*
*Yeri isə onların güzərgahı etdin.*
*Sən bir damcı sudan yaratdın*
*Günəşdən də parlaq gövhərləri...*

Burada şair Uca Tanrının qüdrətini, əvvəlcə əlçatmaz göyləri, sonra "bir damcı sudan" yeri yaratdığını vəsf etmişdir".

"Şərəfnamə"də Novruz və Səddə bayramlarının keçirilməsi ilə bağlı belə bir süjet verilir:

*Novruz və Səddə bayramlarında*
*Ayinlər yenidən olurdu bərpa*
*Ər üzü görməmiş gəlinlər, qızlar*
*Evindən sevinclə dişarı çıxar*
*Əllər al xınalı, üzlər bəzəkli*
*Hər yandan gəlirdi coşğun ürəkli...*

Mənbələrdən bəllidir ki, Səddə odla bağlı keçirilmiş qədim bayramlardandır. Zərdüştiliklə bağlı yaranmış bu bayramın Novruzdan təqribən əlli gün əvvəl keçirilməsi və odun həmin gün tapılması ilə əlaqədar mülahizələr də vardır.

Dahi Nizami "İskəndərnamə"nin "İqbalnamə" hissəsində də dörd ünsürlə bağlı fikirlərini bildirmişdir. O, "İqbalnamə"nin "Kitabın yazılmasının səbəbi" fəslində göstərir:

*Nədir dörd yol üstə məskən düzəltmək?*
*Nədir qarın güdmək dördayaqlıtək?*
*Dörd balış qeydindən qurtaranda biz,*
*Asudə yatarıq səssiz-səmirsiz ...*

Burada şair dörd yol və dörd balış dedikdə, yenə də dünyanın dörd ünsürdən ibarət olduğunu bir daha vurğulayır və bildirmək istəyir ki, insan ölən-dən sonra ancaq asudə ola bilər. Həmçinin "İqbalnamə"nin" "Arşimides ilə çinli kənizin hekayəsi" fəslində şair yazır:

*Rüzgar ona görə dəyişir hər an*
*Törəyib dörd ana yeddi atadan,*
*Oğlunu bir rəngdə görmək istəsən,*
*Ürəktək bir ata-analı ol sən...*

"İskəndərnamə"nin "İqbalnamə" fəslində "İskəndərin yeddi alimlə xəlvətə çəkilməsi" bəhsi çağdaş dövrümüzdə də maraq kəsb edən fikirlərlə zəngindir. Burada böyük İskəndər dövrünün ən məşhur yeddi alimi ilə görüşüb, onlarla dünyanın necə yaranması haqqında söhbət aparır. İskəndər Əflatun (Platon), Bəlinas (Plin), Ərəstu (Aristotel), Valis (Fales), Sokrat, Fərfüriyüs (Porfiriy), Hürmüz (Hermes) kimi filosoflara müxtəlif suallarla, xüsusən də ilk yaranma səbəbi, ilk tərkib, ilk baharın necə olması və sairə elmi izahlara ehtiyac duyulan vacib sorğularla müraciət edir. Əsərdən görürük ki, alimlər bu sualları müxtəlif formada izah edirlər. Məsələn, Ərəstu hesab edir ki, əvvəlcə hərəkət, hərəkət nəticəsində "parlaq göylər"in gərdişindən od, daha sonra hava, sonda isə şirin su yaranmışdır. Valis "məncə, su olmuşdur, hər şeydən əvvəl" deyərək sözünü belə əsaslandırmışdır:

*"Sudan bu kainat yarana bilməz"*
*Deyə inkar etmək istəsə hər kəs,*
*Nütfəni bir anlıq qoy salsın yada,*
*Süzümə sübutdur, dəlildir o da!"*

Dahi Nizaminin poetik qələmindən filosof Bəlinasın fikirlərini, kainatın başlanğıcında dörd ünsürün dayandığını belə ifadə edir:

*İlkin tilsim kimi yaranmış torpaq,*
*Qalan tərkiblər də ondandır ancaq*
*Hərəkət qüvvəsi ona etdi kar,*
*Atəşi söndükcə yarandı buxar...*

*Buxarda vəzncə ağır olanlar*
*Hərə bir mərkəzdə tuturdu qərar.*
*Onlardan birinci-işıqlı oddur...*
*İkinci havadır, hərəkətdədir...*
*Üçüncü - sudur ki, təravət verər...*
*Dördüncü torpaqdır, tapdayır əyyam...*

Əsərin "İqbalnamə" hissəsində adıçəkilən bölmədə iştirak edən digər alimlərin, Sokratın, Fərfüriyüsün, Hürmüzün və Əflatunun bütün kainatın Uca Yaradan tərəfindən xəlq edildiyi haqqında fikirləri poetik vasitələrlə diqqətə çatdırılmışdır.

Nizami "İqbalnamə"nin "Əflatunun dedikləri" bölməsində söyləyir:

*Bir kəs ki, əql ona ad verib: Qadir,*
*Özü bildiyini özü xəlq edir.*
*Ayrıca yaradıb o, hər gövhəri*
*Vasitə olmayıb burda digəri.*
*Hər gövhər bəzənib kamala yetdi,*
*Ortadan ixtilaf, ziddiyyət getdi.*
*Bu zidd qüvvələri bir yerə qatdı,*
*Ağıllı, hünərli insan yaratdı...*

Burada şair zidd qüvvələr dedikdə, dörd ünsürü - suyu, odu, torpaq və havanı nəzərdə tutmaqla demək istəyir ki, Uca Yaradan bir-birinə zidd olan bu dörd maddədən insan yaratdı.

Bütün bunlardan belə nəticəyə gələ bilərik ki, Nizami öz yaradıcılığında dörd ümumbəşəri ünsürün həm dünyanın, həm də insanın yaranmasında bilavasitə iştirakını şüurlu şəkildə qəbul etmiş, bu problemi əsərlərində daha da qabartmağa çalışmış, bununla da elmin, fəlsəfənin tərənnümü və təbliği işində əsl mütəfəkkir dünyagörüşünü şərh etmiş və dünyaya çatdırmışdır.

***Ülkər NƏBİYEVA,***
***Bakı Dövlət Universitetinin professoru, filologiya elmləri doktoru***

● Novruz atributları

# Bolluq, bərəkət rəmzi - Səməni

**Keçmiş zamanlardan bu günümüzə qədər Azərbaycan xalqı baharın gəlişini təntənəli bayram kimi qeyd edir. Böyük sevinclə qarşılanan Novruz bayramına günlərlə hazırlıq görülür. Bayrama dörd həftə qalmış, hər çərşənbə axşamı tonqal qalanır, bayram süfrəsi açılır.**



Həmin günlərdə evlərdə, həyət-bacalarda səliqə-sahman yaradılır, təmizlik işləri aparılır. Ağaclar əkilir. Su arxları təmizlənir. Əkin işləri üçün seçilən yerlərdə torpaq bellənir.

Bayrama günlər qalmış qovurğa qovrulur. Qoğal, paxlava, şəkərbura və digər şirniyyatlar bişirilir. Xonçalar həmin şirniyyatlarla, boyanmış yumurtalarla, şamlarla bəzədilir. Qeyd edək ki, bu bayramın əsrlərdir unudulmayan bir çox atributları var, Novruz bayramının əsas atributlarından biri dirilik, xeyir, bərəkət, bolluq rəmzi hesab edilən səmənidir. Novruz ənənəsinə görə, hər evdə səməni göyərdilməlidir.

Hələ qədim zamanlardan ulu əcdadlarımız qablarda səməni yetişdirir, bayram süfrələrinə qoyurdular. İnanırdılar ki, səməni onların evlərinə, el-obasına səadət, xoşbəxtlik, firavanlıq gətirəcək. Şair Abdulla Şaiqin "Səməni" şeirində səməniyə olan sevgi, ona bəslənən ümid və arzu belə ifadə edilib:

*Ey səməni, saxla məni*
*Hər il göyərdərəm səni.*
*Ayaq basdın ölkəmizə,*
*Bol-bol şənlik gətir bizə.*

Azərbaycanlılar həmişə Novruz bayramında süfrələrinin zəngin olmasına xüsusi diqqət yetirirlər. Süfrəyə cürbəcür xörəklər, şirniyyatlar, çərəzlər düzürlər. Ortaya qoyulmuş yamyaşıl səməni süfrəyə xüsusi yaraşıq verir.

Səməni yetişdirmək üçün bəzi adətləri yerinə yetirmək də vacib sayılır. Belə ki, inanca görə, səməni qoyarkən, ilk növbədə, xoş arzu və niyyətlərlə işə başlamaq, pis, naqis fikirlərdən uzaq olmaq lazımdır. Deyilənə görə, Novruza qədər səməni cücərib, böyüsə, arzuna çatacaqsan.

Səməni cücərtmək üçün vaxt da düzgün seçilməlidir. Yoxsa səməni Novruz bayramına qədər ya yaxşı boy atmaz, ya da solub-sarala bilər. Deyilənə görə, Novruzdan öncə ilk çərşənbə axşamı səməni qoyulmalıdır.

Folklorşünaslar qeyd edirlər ki, xalq arasında ilkin inanca görə, səmənini il təhvil olan gündən on üç gün sonra ya axar suya, ya da bar ağacının altına qoyarlar. Ayrı-ayrı bölgələrimizdə bununla bağlı adət-ənənələr var. Folklorşünas Almara Nəbiyeva yazır ki, Novruzdan on iki gün keçəndə, yəni on üçüncü gün qız-gəlin yığışıb mərasim keçirir: "Sonra da hər kəs səmənini götürüb aparıb bağda-bağçada torpağın üstünə qoyardılar. İnsanlar bu müqəddəs bitki ilə bağlı ayin-adət icra edirlər:

*Ay səməni,*
*Saxla məni.*
*Ürəyimdə tutduğum*
*Yara saxla məni".*

Azərbaycan xalqı səmənini müqəddəs hesab etdiyi üçün solub saralanda da onu zibilliyə atmır. Ölkəmizin bir sıra bölgəsində Novruz bayramı üçün göyərdilmiş səmənini bayram bitdikdən sonra axar suya atırlar. Gələn il Novruz bayramını yenidən ailə üzvləri, əzizləri ilə birlikdə könül xoşluğu, cansağlığı, bolluq, xeyir-bərəkət içərisində keçirmək üçün niyyət tutur, dualar edirlər.

Bəzi bölgələrimizdə isə inanca görə, insanlar səmənini dama atırlar.

Göyərdilmiş səmənidən halva da bişirirlər. Səməni halvası hazırlananda niyyət edir, dilək tuturlar. Buğdanı böyük qablarda göyərdirlər. Cücərəndə əzib şirəsini çıxarır, su əlavə edir, qaynadırlar. Halva hazır olana yaxın ona badam, qoz, fındıq ləpəsi əlavə edirlər. Səməni halvasından mütləq başqalarına pay vermək lazımdır.

***Zöhrə FƏRƏCOVA,***
***"Azərbaycan"***

# Baharın gəlişiylə...

Bahar gəlir.
Bu gəlişin ilıq
nəfəsi,
Yaşamaq, yaşatmaq
həvəsi
Çölə, düzə, çəmənə,
Hər gülə, hər çiçəyə,
Quşların nəğməsinə,
Cəh-cəhinə, səsinə
Təzə ahəng, can verir.
İnsana gəl-gəl deyir.
Döyünən hər ürəyə,
Neçə arzu, diləyə
İstəyinə yetməyə
Sanki qol-qanad verir.
Baxıram həyətdəki
Çıxan yaşıl otlara.
Bir hissəsi torpaqda
Göyərib, çəmənləşib.
Başqa bir hissəsisə
Bütün qüvvəsin yığıb
Yaşamaq həvəsiylə -
Günəşi görsün deyə
Dəmirtək möhkəm olan
Daşları dəlib çıxıb.
Yağan yağış dayanır.
Ətrafda nə vardısa
Yuxuya getmiş kimi
Yavaş-yavaş oyanır.
Torpaq üstəki otlar
Günəş hərarətiylə
Bir az da pərvazlanır,
Boy verərək böyüyür.
Görən buna sevinir.
Daşlar üstə bitənsə
Vaxt keçdikcə anbaan
Yanır, saralır-solur.
Ömrünü başa vurur,
Bax beləcə quruyur.
Düşünürəm: "Torpaqsız -
Bu anlamda vətənsiz
Dünyada heç nə, heç kəs
Yaşamır, xoşbəxt olmur,
Yəni yaşaya bilməz".

***Seyran CAVADOV,***
***"Azərbaycan"***



● Təqvim ili

# Yaz bərabərliyi günü



**İlin ilk və son günləri arasındakı müddət təqvim ili adlanır. Qriqori təqvimində adi il 365, uzun il isə 366 gündür.**

İlin başlanğıcının nə vaxtdan hesablanmasında daha çox müxtəliflik olmuşdur. Əksər ölkələrdə, eyni zamanda Azərbaycanda il yazdan hesablanmışdır. Bəzi ölkələrdə payızdan, bəzilərində isə qışdan götürülmüşdür. Misirlilər ilin başlanmasını Nil çayının daşmasından (Yay günəşduruşundan) hesablamışlar. Bir çox ölkədə isə ilin başlanğıcı bu və ya digər padşahın hakimiyyətə keçməsi günündən götürülmüş, bəzilərində müəyyən mühüm hadisə - böyük daşqın (Misirdə), güclü küləklərin başlanması (Babilistanda), Olimpiya oyunları (Yunanıstanda) və sairə ilə əlaqələndirilmişdir. Qədim Romada yeni il martın 1-dən hesablanmışdır. İmperator Yuli Sezarın vaxtında yeni il martın 1-dən yanvarın 1-nə keçirilmişdir.

Rusiyada da yeni il əvvəllər martın 1-də, sonralar isə sentyabrın 1-də bayram edilmişdir. Yalnız 1700-cü ildə I Pyotrun əmri ilə yeni il yanvarın 1-nə keçirilmişdir.

İlin başlanğıcı göründüyü kimi, çox-çox yerlərdə şərti səciyyə daşıyır. Amma, şübhəsiz ki, Günəş təqvimində yeni ilə Günəşin illik hərəkətindəki dörd səciyyəvi anın birindən başlamağın təbiiliyini şərtləndirir. Bunların içərisində də yaz bərabərliyi (21 mart) daha məqsədəuyğundur və bunun çox böyük elmi əsasları var. Çünki martın 21-də gecə gündüzlə bərabərləşir, fəsillərin gözəli olan baharın ilk günü başlayır. Bundan başqa, martın 21-də Günəşin göydəki vəziyyətini təyin edən ekvatorial koordinatların hər ikisi sıfra bərabər olur, başqa sözlə, Günəş koordinat başlanğıcında olur. Məhz buna görə də müdriklərimiz yeni ilin başlanğıcı kimi yaz bərabərliyi gününü götürmüş və onu Novruz bayramı adlandırmışlar.

***Hazırladı:***
***İ.ƏLİYEVA,***
***"Azərbaycan"***

● Fotoetüd



# "Elimizə bahar gəlir"

**Mədəniyyət Nazirliyi və Milli İncəsənət Muzeyinin təşkilatçılığı ilə keçirilən "Muzeydə musiqi" layihəsi çərçivəsində muzeydə növbəti konsert keçirilib.**

Muzeydən bildirilib ki, "Elimizə bahar gəlir" adlı konsert proqramı Beynəlxalq Muğam Mərkəzi tərəfindən xanəndələr Nisbət Sədrayeva, Mirələm Mirələmov, Almaxanım Əhmədli, Könül Xəlilzadə, Ariz Hüseynovun iştirakı ilə təqdim olunub.

Xanəndələri tarda Rüstəm Müslümov, kamançada Elnur Salahov, balabanda Rəfael Əsgərov, qanun ifaçısı Məhta Məhəmmədəlizadə, nağarada Siyavuş Kərimov müşayiət ediblər.






# Süni zəka ilə hazırlanan dərman



**Honkonqun "Insilico Medicine" şirkətinin süni zəkanın köməyi ilə hazırladığı dərmanın insanlar üzərində kliniki testlərinə icazə verilib. Preparat idiopatik ağciyər fibrozu xəstəliyinin müalicəsi üçün nəzərdə tutulub.**

Bu xəstəliklə üz-üzə gələn insanlar ağciyər çatışmazlığından əziyyət çəkir və nəticədə həyatlarını itirirlər. Sözügedən dərman hazırda ABŞ və Çindəki xəstəxanalarda ümumilikdə 60 nəfər xəstə üzərində sınaqdan keçirilir. Onun hazırlanmasına cəmi 18 ay vaxt sərf edilib.

2012-ci ildə Aleksandr Javoronkov tərəfindən təsis edilmiş "Insilico Medicine" şirkəti fəaliyyətinin əvvəlindən molekulların sintezi üçün generativ süni zəka modellərindən istifadə etməyə başlayıb. İlk öncə tədqiqatçılar fərdi süni zəka platformasında alqoritmə ağciyərlərdə destruktiv proseslərdən cavabdeh olan hədəflərin təyin edilməsini öyrədiblər. Bunun üçün fibroz barəsində olan məlumatlardan istifadə edilib. Xəstəlik toxumaların qalınlaşmasına və ya onlarda yara izlərinin əmələ gəlməsinə şərait yaradır. Bu isə öz növbəsində ağciyərlər də daxil olmaqla bir çox orqanın elastikliyini aşağı salır.

Tədqiqatçıların apardığı təhlil nəticəsində TNIK adlı zülal müəyyənləşib və bu zülal əsas antifibrotik hədəf qismində çıxış edib. Növbəti mərhələdə lazımi dərman preparatının hazırlanmasına namizəd olan 80 ədəd molekulun yaradılması üçün generativ kimyəvi alqoritmdən istifadə edilib. Bu molekullar arasında mütəxəssislər "INS018_055" adlı inhibitoru (fizioloji və fiziki-kimyəvi proseslərin gedişini ləngidən və ya saxlayan maddələrin ümumi adı) seçiblər. Bu inhibitor əsasında da müvafiq dərman hazırlanıb.

# Quşa ən çox bənzəyən dron

**Çin Mərkəzi Televiziyası dünyanın ən real ornitopterinin (qanadlarını çırparaq uça bilən təyyarə) görüntülərini yayımlayıb. Mütəxəssislər yeni pilotsuz aparatın hərbi və mülki tətbiqlərdə böyük potensiala malik olduğunu bildiriblər.**



"Little Falcon" adlı ornitopterin dizaynı "X"da paylaşılıb. Ornitopter Sian Şimal-Qərb Politexnik Universitetinin tədqiqatçılar qrupu tərəfindən hazırlanıb. Cihaz hərbi kəşfiyyat, ekoloji monitorinq və ətraf mühitin mühafizəsində potensial imkanlara malikdir. Mütəxəssislər hesab edirlər ki, belə dronların heyvanları narahat etmə ehtimalı azdır.

"Little Falcon" kimi pilotsuz təyyarələr quşların uçuş mexanikasını təqlid etmək üçün hazırlanıb və Çin aviasiya texnologiyasında əhəmiyyətli irəliləyiş hesab olunur. Mütəxəssislər qeyd edirlər ki, yüksək hündürlüklərdə biomimetik dronlar həqiqi quşlara o qədər çox bənzəyir ki, onları xüsusi avadanlıq olmadan ayırmaq çox çətindir.

Hərbi tətbiqlərə gəldikdə isə, müasir sabit qanadlı təyyarələr və rotorlu gəmilər gizliliklərini təkmilləşdirmək üçün müxtəlif texnologiyalardan istifadə edirlər. Ornitopterlər quşlara bənzədikləri üçün təbii kamuflyajın xüsusiyyətlərinə malikdirlər. Bu da dronları radar və vizual vasitələrlə aşkar etməyi çətinləşdirir.

# "Lenovo"nın yeni robotu

**"Lenovo" şirkəti "Daystar Bot GS" adlı robotunu anons edib. Sözügedən cihaz xarici görünüşcə "Boston Dynamics"in 4 ayaqlı "Spot" robotunu xatırladır.**



Lakin "Spot"dan fərqli olaraq, "Daystar Bot GS" 6 ədəd mexaniki ayağa sahibdir. Onun gövdəsi IP66 standartı üzrə qorunmaya sahibdir. Buna görə də robotdan müxtəlif müəssisələrdə və açıq havada istifadə etmək olar.

Robotun konstruksiyası onun hətta düz olmayan səthlər üzərində də rahatlıqla hərəkət etməsinə imkan verir. Cihazda olan sensorlarla alqoritmlərin kombinasiyası ona ətraf mühiti təhlil etməyə və müvafiq şəkildə reaksiya verməyə şərait yaradır.

# "McDonald's"ın qeyri-adi ətri

**Yaponiyada "McDonald's" müştərilərini növbəti dəfə qeyri-adi məhsulu ilə təəccübləndirib. Şirkət kartof qızartması qoxulu ətir istehsal edib. "McDonald's" bu barədə "X" sosial şəbəkəsində məlumat verib.**

Ətir üç fərqli iylə istehsal edilib: klassik, dəniz yosunlu və ədviyyatlı. Ətirlərin satışı martın 8-i başlayıb.

"McDonald's" qeyri-adi məhsullarla ilk dəfə deyil ki, sınaq keçirir. Bir zamanlar ABŞ-də çizburger tərkibli ətirli şamlar da istehsal edilmişdi.

# "Youtube"un analoqu işə salınacaq

**Amerikalı milyarder İlon Mask "Youtube" ilə rəqabət aparacaq "Amazon" və "Samsung Smart TV"lər üçün proqram təqdim edəcək.**




"Fortune" jurnalının məlumatına görə, yeni platformanın interfeysi televizorlarda quraşdırılmış "Youtube" tətbiqi ilə eyni olacaq.

"Mask "Youtube" ilə rəqabət aparmaqda qərarlıdır", - deyə nəşrin həmsöhbəti bildirib. Onun fikrincə, tətbiqin köməyi ilə İ.Mask istifadəçiləri televiziya ekranlarında uzun videolara baxmağa inandırmaqla yeni reklamçıları cəlb etmək niyyətindədir.

# İlin ən yaxşı qadın avtomobili

**"Kia EV9" elektromobili qadınlar üçün 2024-cü ilin ən yaxşı avtomobili seçilib.**



"Qadınların Ümumdünya Avtomobili" (WWCOTY) müsabiqəsinin münsiflər heyətində yer alan avtomobil mütəxəssisləri Cənubi Koreya krossoverini geniş salona, təsirli aerodinamikaya, təkmil dizayna və sürətli enerji doldurmasına görə yüksək dəyərləndiriblər.

Sözügedən yeddi nəfərlik elektromobilə 240 kilometr məsafəyə qədər enerji təchizatını doldurmaq üçün təxminən 15 dəqiqə kifayət edir. "Kia EV9" dünyanın ən yaxşı "qadın avtomobili" kimi 52 ölkədən 75 qadın mütəxəssis tərəfindən seçilib. Onun rəqibləri isə - "Volvo EX30" - ən yaxşı ailə avtomobili, "BMW 5-Series" - böyük avtomobil, "Volkswagen Amarok" - tam ötürücülü, "Aston Martin DB12" - eksklüziv avtomobil titullarını qazanıblar.

# "Wi-Fi" sürətini artıran çiplər

**Mütəxəssislərin fikrincə, smart cihazların və internet istehlakçılarının artması səbəbindən adi "Wi-Fi" marşrutlaşdırıcıları öz vəzifələrinin öhdəsindən gələ bilməzlər.**




Alimlər yeni tip marşrutlaşdırıcıdan istifadə edərək əlaqənin sabitliyini artırmağı təklif kimi irəli sürüblər. Hazırda marşrutlaşdırıcıların və simsiz şəbəkə avadanlıqlarının böyük əksəriyyəti bir anda məhdud tezlik diapazonunu idarə edə bilən "düz" çiplərə əsaslanır. Alimlər eyni vaxtda bütün lazımi tezliklərə xidmət edə bilən üçölçülü prosessorlar haqqında danışırlar. Mühəndislər bir çipdə müxtəlif tezliklər üçün nəzərdə tutulmuş çoxsaylı prosessorları yerləşdirmək üçün yarımkeçirici texnologiyasını təsvir ediblər. Beləliklə, marşrutlaşdırıcı eyni vaxtda bütün tezliklər üzrə məlumatları ötürə biləcək.

*Ülkər XASPOLADOVA,*
*"Azərbaycan"*


# OXUCULARIN VƏ MƏTBUATYAYIMI TƏŞKİLATLARININ NƏZƏRİNƏ!

**"AZƏRBAYCAN"** *qəzetinə*

*2024-cü il üçün abunə yazılışı davam edir!*

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| "Azərpoçt" MMC | (012) 598-49-55, (051) 225-02-13 |
| "Azərmətbuatyayımı" ASC | (012) 441-19-91, (050) 322-33-17 |
| "Qaya" firması | (012) 566-77-80, (050) 214-40-53 |
| "Region Press" MMC | (055) 316-79-01, (050) 316-79-01 |
| "Səma-M" MMC | (012) 594-09-59 |
| "Ziya" LTD | (012) 497-76-96, (050) 306-77-22 |
| "Pressinform" MMC | (012) 598-49-52, (070) 340-01-00 |
| "City press" MMC | (055) 819-09-26 |

**1 illik -187,20** (yüz səksən yeddi manat iyirmi qəpik) **manat**
**6 aylıq - 93,60** (doxsan üç manat altmış qəpik) **manat**
**3 aylıq - 46,80** (qırx altı manat səksən qəpik) **manat**
**1 aylıq - 15,60** (on beş manat altmış qəpik) **manat**


RƏSMİ DÖVLƏT QƏZETİ
AZƏRBAYCAN
AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI
Bakı Forumunda Azərbaycanın COP29-a evsahibliyi etməsi dəstəkləndi
Prezident İlham ƏLİYEV: "Niyyətimiz iqlim məsələlərinə töhfə verməkdir"
Forum beynəlxalq əməkdaşlığın möhkəmlənməsi işinə töhfə verəcək
Azərbaycan Ermənistan ilə sülh müqaviləsinin təşəbbüskarıdır
Mina probleminin aradan qaldırılmasında beynəlxalq ictimaiyyətin də dəstəyi vacibdir
"Yaşıl keçid" ölkəmiz üçün prioritet istiqamətlərdən biridir
Fransa növbəti dəfə ifşa olundu
Prezident İlham Əliyev dünyaya ədalət örnəyi göstərir
Dünyada islamofobiya və irqçiliyə yer olmamalıdır
Qərb məkrli siyasəti ilə Ermənistanı uçuruma aparır
azerbaijan-news.az

## Hörmətli oxucular!

*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya* ***(Tel.: (012) 539-59-33)*** *zəng vura bilərsiniz.*


# "Şəhid Anar Məmmədzadə: "Bayraq mənim namusumdur!" adlı sənədli filmin və eyniadlı kitabın təqdimatı olub

Azərbaycan Gənclər Fondunun dəstəyi ilə "Gəncliyə Dəstək" İctimai Birliyi təşkilatın üzvü olmuş, Zərdab şəhidlərinin ən gənci olan, ictimai aktiv 21 yaşlı Məmmədzadə Anar Nazim oğlunun xatirəsinə həsr olunmuş "Şəhid Anar Məmmədzadə: "Bayraq mənim namusumdur!" adlı sənədli filmin və eyniadlı kitabın təqdimatını keçirib. "Gəncliyə Dəstək" İctimai Birliyindən AZƏRTAC-a verilən məlumata görə, təqdimat Zərdab rayon Heydər Əliyev Mərkəzində təşkil olunub.



Tədbirdə Zərdab Rayon İcra Hakimiyyəti başçısının birinci müavini Ramo Hacıyev, icra hakimiyyətinin nümayəndələri, digər yerli dövlət strukturlarının rəhbərləri və şəhid ailələri iştirak ediblər. Dövlət himni səsləndirilib, şəhidlərimizin xatirəsi birdəqiqəlik sükutla yad olunub.

Filmin çəkilişinin yaradıcı heyət rəhbəri Vüsal Rəhimov filmin yaranma tarixi barədə danışıb. Şəhid Anar Məmmədzadənin atası Nazim Babaşov çıxış edərək əməyi keçənlərə təşəkkürünü bildirib.

Zərdab Rayon İcra Hakimiyyəti başçısının birinci müavini Ramo Hacıyev şəhidlərimizin ailələrinə göstərilmiş diqqət və qayğıdan danışaraq onlara Allahdan rəhmət, qazilərimizə can sağlığı diləyib. O, eyni zamanda "Gəncliyə Dəstək" İctimai Birliyinin fəaliyyətini yüksək qiymətləndirib, Azərbaycan Gənclər Fonduna təşəkkürünü bildirib.

Sonra "Şəhid Anar Məmmədzadə: "Bayraq mənim namusumdur!" adlı sənədli film nümayiş etdirilib.

Layihənin məqsədi ölkəmizin ərazi bütövlüyü, torpaqlarımızın işğaldan azad edilməsi uğrunda şücaət göstərən şəhidlərimizin tanıdılmasıdır.

# Bakıda "Süd vəzi xərçənginin müalicəsinə müasir yanaşmalar" mövzusunda beynəlxalq konfrans keçirilib

Martın 16-da Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin Milli Onkologiya Mərkəzi (MOM), Avrasiya Onkoloji Dərnəyi, "Regional İnkişaf" İctimai Birliyi (RİİB) və Azərbaycan Onkoloqlar Cəmiyyətinin birgə təşkilatçılığı ilə Bakıda "Süd vəzi xərçənginin müalicəsinə müasir yanaşmalar" mövzusunda beynəlxalq konfrans keçirilib.





AZƏRTAC xəbər verir ki, konfransı giriş sözü ilə açan Milli Onkologiya Mərkəzinin baş həkimi, Səhiyyə Nazirliyinin baş onkoloqu Azad Kərimli iştirakçıları MOM-un baş direktoru, akademik Cəmil Əliyevin adından salamlayaraq, son illər Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə həyata keçirilən uğurlu səhiyyə islahatlarından, səhiyyə sisteminin müasirləşdirilməsi və yüksək texnologiyalara əsaslanan tibbi avadanlıqlarla təminatı istiqamətində görülən işlərdən, Milli Onkologiya Mərkəzində yaradılmış şəraitdən, ən müasir avadanlıqlarla təchiz edilmiş tibb müəssisəsinin onkoloji xəstəliyin erkən diaqnostikası və müalicəsi, tibb personalının bilik və təcrübəsinin artırılması sahəsində görülən işlərdən danışıb, konfransın işinə uğurlar arzulayıb.

Çıxış edən Avrasiya Onkoloji Dərnəyinin sədri Hilmi Kodaz Milli Onkologiya Mərkəzi ilə qurulmuş səmərəli əməkdaşlıqdan və əldə olunan uğurlardan danışaraq, bu cür konfransların tibb elminin yeni nailiyyətlərinin təbliği və təcrübə mübadiləsinin həyata keçirilməsində əvəzsiz rol oynadığını bildirib.

"Regional İnkişaf" İctimai Birliyinin nümayəndəsi Şəhla Talıbzadə çıxışında Birinci vitse-prezident, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın təşəbbüsü və rəhbərliyi ilə səhiyyə sahəsində həyata keçirilən çoxşaxəli proqram və layihələrdən, əldə olunan nailiyyətlərdən, ictimai birlik tərəfindən son illər aidiyyəti qurumlar və tibb müəssisələri ilə birlikdə aztəminatlı və digər həssas kateqoriyadan olan insanların sağlamlığının qorunması, tibbi xidmətlərin keyfiyyətinin yüksəldilməsi, həkimlərin bilik və təcrübələrinin artırılması, əhalinin maarifləndirilməsi və digər istiqamətlərdə ardıcıl icra edilən tədbirlərdən söz açıb.

Konfransda Azərbaycan və Türkiyədən dəvət edilmiş mütəxəssislər süd vəzi xərçənginin müasir diaqnostika və müalicə üsullarını əhatə edən mövzularla çıxış ediblər. Tədbir çərçivəsində həmçinin xəstə təqdimatları, süd vəzi xərçənginə aid ən son yeniliklər və xüsusi halların geniş müzakirəsi aparılıb.

Konfransda dinlənilən məruzələr "Süd vəzi xərçəngində biomarker", "İnfiltrativ duktal, lobulyar xərçəng və digər histoloji tiplər", "Süd vəzi xərçəngi xəstələrinin müşahidəsi necə aparılmalıdır. Radioloji/nuklear diaqnostika üsulları və müayinənin aparılma tezliyi", "Luminal erkən mərhələ süd vəzi xərçəngi - neoadyuvant və adyuvant müalicə", "Her-2 müsbət süd vəzi xərçəngi - neoadyuvant və adyuvant müalicə - kimə və necə aparılmalıdır", "Üçlü neqativ süd vəzi xərçəngi - neoadyuvant və adyuvant müalicə - kimə və necə aparılmalıdır?", "Süd vəzi xərçəngində şüa müalicəsinin tətbiqi", "Luminal tip süd vəzi xərçəngi", "Hər-2 müsbət süd vəzi xərçəngi", "Üçlü neqativ süd vəzi xərçəngi", "Süd vəzi xərçəngi xəstələrində qidalanma", "Metastatik reseptor halından asılı olmadan metastatik müalicədən tam cavab alınan xəstələrə yanaşma - cərrahi müalicənin yeri", "Süd vəzi xərçəngi və hamiləlik, fertillik", "Kişilərdə süd vəzi xərçəngi, Pejet xərçəngi", "Geriatrik süd vəzi xərçəngi xəstələrinə yanaşma" kimi mövzuları əhatə edib.

Məruzələr üzrə onkologiyanın aktual problemləri, müasir dövrdə onkoloji xəstəliklərin müalicəsində tətbiq edilən yeniliklər müzakirə olunub, təcrübə mübadiləsi aparılıb.

Sonda iştirakçılara sertifikatlar təqdim edilib.

«AZƏRBAYCAN» qəzetinin reklam xidməti

## ALLAH RƏHMƏT ELƏSİN!

Milli Məclisin rəhbərliyi, deputatlar, parlament Aparatının və İşlər İdarəsinin kollektivləri parlament Aparatının Milli Məclisin, komitələrin və komissiyaların işinin təşkili şöbəsi müdirinin müavini İlqar Əliyevə bacısı

**ESMİRA BALOĞLANOVANIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.


BAŞ REDAKTOR
**Bəxtiyar SADIQOV**

**Əlaqə telefonları:**

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| Baş redaktor müavinləri | - 538-86-86, 434-63-30, 539-72-39 | Humanitar siyasət şöbəsi | - 538-56-60 |
| Məsul katib | - 539-43-23, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Məsul katib müavinləri | - 539-44-91, | Fotoillüstrasiya şöbəsi | - 538-84-73, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Kompüter mərkəzi | - 538-20-87, |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, | Mühasibatlıq | - 539-59-33 |

*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, "Azərbaycan" nəşriyyatı, IV mərtəbə*

contact@azerbaijan-news.az
az.reklam@mail.ru



www.azerbaijan-news.az

Qeydiyyat № 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir

Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır

Gündəlik rəsmi dövlət qəzeti

Tiraj 4300
Sifariş 565

Qiyməti 60 qəpik